**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)**

# Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)

# 2025-ci il üzrə məruzəsi

**Naxçıvan – 2026**

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır.

## Giriş sözü

Azərbaycanın bugün dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması və etibarlı müdafiə mexanizmlərinin formalaşdırılması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə həyata keçirilən dərin və məqsədyönlü hüquqi islahatlar dövlətçilik ənənələrimizin möhkəmləndirilməsinə, hüququn aliliyinə əsaslanan müasir idarəetmə modelinin qurulmasına və insan hüquq və azadlıqlarının qorunmasını təmin edən yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Beləliklə konstitusiya dəyərlərinə söykənən, vətəndaşın hüquq və azadlıqlarını ali dəyər kimi qəbul edən dövlət mexanizmi təşəkkül tapmış, ölkəmiz hüquqi inkişaf yolunda davamlı və ardıcıl addımlar atmışdır.

2025-ci il ölkəmizin tarixində xüsusi əhəmiyyət kəsb edən dövr kimi yadda qalmışdır. Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu isə dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə, konstitusion dəyərlərin daha dərindən dərk edilməsinə və insan hüquqlarının təmininin yeni mərhələyə yüksəlməsinə xidmət edir. Suverenlik isə bu hüquqların müstəqil, kənar təsirlərdən azad şəkildə qorunmasının fundamental şərtidir.

“Konstitusiya və Suverenlik İli” münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarının layihəsi Milli Məclisə təqdim edilmiş, müstəqillik dövrünün ən böyük amnistiya aktı qəbul olunaraq, insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqlik bir daha nümayiş etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında da 2025-ci il ərzində amnistiya aktının icrası çərçivəsində müvafiq dövlət qurumları tərəfindən kompleks və əlaqələndirilmiş tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada təhqiqat və istintaq orqanları, məhkəmələr, icra məmurları, hərbi hissə komandanlıqları və cəzaçəkmə müəssisələri tərəfindən ümumilikdə **254 nəfər şəxsə amnistiya tətbiq edilmişdir**.

Ölkəmiz bugün istər beynəlxalq, istərsə də regional miqyasda, bütün müstəvilərdə öz mövqeyini ortaya qoyaraq sülhə, sabitliyə, sivilizasiyalararası dialoqa töhfə verir. 2025-ci ilin avqust ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ABŞ-a rəsmi səfəri çərçivəsində Ermənistanla imzalanan Birgə Bəyannamədə regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyəti vurğulanmış, Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpa olunması üçün razılığa gəlinmişdir.

Bir sözlə, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin bərpa olunması Naxçıvan əhalisinin öz ölkəsi daxilində maneəsiz hərəkət etmək hüququnu təmin edəcəkdir.

Səfər çərçivəsində əldə olunan razılaşmalar və verilən mesajlar göstərir ki, Azərbaycan regional sülhün, iqtisadi inkişafın və beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşı olaraq öz mövqeyini möhkəmləndirməkdədir.

Naxçıvan Muxtar Respublikası ölkəmizin ümumi inkişaf stategiyasında xüsusi yer tutur və burada həyata keçirilən hər bir təşəbbüs insan hüquqlarının qorunması və sosial rifahın təmin olunmasına xidmət edir. Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və hüquqi inkişafının balanslı şəkildə təmin edilməsi istiqamətində atılan addımlar bölgəyə göstərilən xüsusi diqqət və qayğının bariz nümunəsidir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikanın davamlı inkişafı üçün möhkəm institusional və hüquqi baza formalaşdırmışdır. Sözügedən dövlət proqramı yalnız iqtisadi və sosial sahələri deyil, insan hüquqlarının təminat mexanizmlərinin gücləndirilməsini də prioritet istiqamət kimi müəyyən etmişdir. "Konstitusiya və Suverenlik İli"ndə Naxçıvan Muxtar Respublikasının inkişafına yönəlmiş mühüm tədbirlərdən biri də yerli sahibkarlığın dəstəklənməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının rezidentlərinə 10 illik vergi, gömrük və sosial sığorta güzəştlərinin tətbiq edilməsi olmuşdur. Bu qərarlar muxtar respublikanın iqtisadi potensialının gücləndirilməsinə, yeni biznes təşəbbüslərinin təşviqinə və dayanıqlı məşğulluğun təmininə xidmət edir. Bütövlükdə, həyata keçirilən kompleks və məqsədyönlü tədbirlər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının davamlılığını təmin etməklə yanaşı, insan hüquqlarının qorunması və sosial rifahın yüksəldilməsi istiqamətində mühüm nəticələrə zəmin yaradır.

Bu inkişaf prosesində insan hüquq və azadlıqlarının qorunmasının davamlı və sistemli şəkildə təmin olunması mühüm institusional mexanizmlərin mövcudluğunu zəruri edir. Bu baxımdan Ombudsman institutu muxtar respublikada insan hüquqlarının müdafiəsində, vətəndaş-dövlət münasibətlərində hüquqi tarazlığın qorunmasında əsas rol oynayır. Eyni zamanda muxtar respublikada Ombudsmanın fəaliyyəti muxtar respublikanın sosial-iqtisadi inkişaf xüsusiyyətləri, idarəetmə strukturu və yerli spesifika nəzərə alınmaqla həyata keçirilir. Bir sözlə, Ombudsman insan hüquqlarının müdafiəsi sahəsində milli prioritetlərin regional səviyyədə effektiv icrasına xidmət edir.

2025-ci il ərzində muxtar respublikada insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, habelə Ombudsmanın fəaliyyətinin operativ təşkili məqsədilə Aparatın strukturu qanunvericiliyə uyğun olaraq təkmilləşdirilmişdir. Bu çərçivədə, başçəkmə və monitorinq tədbirlərinin yüksək səviyyədə icrasını təmin etmək məqsədilə aparıcı məsləhətçi-həkim və məsləhətçi-psixoloq ştat vahidləri yaradılaraq Aparatın strukturuna əlavə edilmişdir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) (bundan sonra - Ombudsman) 2025-ci ildə də öz fəaliyyətini konstitusiyanın aliliyinə, qanunun hökmranlığına və insan hüquqlarının etibarlı müdafiəsinə əsaslanaraq həyata keçirmişdir. İl ərzində həyata keçirilən tədbirlər, aparılan başçəkmə və monitorinqlər, baxılan müraciətlər bir daha göstərmişdir ki, Ombudsman institutu muxtar respublikada səmərəli və effektiv müdafiə mexanizmi kimi formalaşmışdır.

Öz fəaliyyətini həm milli prioritetlərə, həm də beynəlxalq insan hüquqları standartlarına uyğun olaraq davam etdirmiş Ombudsmanın icraatında 2025-ci il ərzində **241 müraciət olmuşdur.** (Müraciətlərin 190-nı şikayətlər, 51-ni isə ərizələr təşkil etmişdir)

Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş, həmçinin Aparatda şəxslərin qəbulu, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisəslərinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerlərinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, təhsil və tibb müəssisələrinə həyata keçirilmiş başçəkmələr və monitorinqlər zamanı təqdim edilmişdir.

Hesabat dövründə Ombudsman tərəfindən keçirilən kollektiv və fərdi qəbullarda, açıq görüşlərdə, başçəkmə və monitorinqlərdə, aksiya və digər tədbirlərdə iştirak edən ümumilikdə **9634** şəxs dövlət və vətəndaş münasibətində Ombudsmanın aktiv dəstəyini hiss etmişdir.

Hesabat ilində Ombudsmana dövlət qurumlarının fəaliyyəti ilə əlaqədar daxil olmuş şikayətlər üzrə statistik göstəricilər təhlil edilmişdir. Bəzi müraciətlərdə iki və daha artıq şikayət olunan subyektin olması nəzərə alınmaqla, müvafiq mərkəzi icra hakimiyyəti orqanları və onların tabeliyindəki qurumlardan 144, məhkəmə hakimiyyəti orqanlarından 6, yerli icra hakimiyyəti orqanlarından 22, bələdiyyələrdən 7, vəzifəli şəxslərdən 10, digər subyektlərdən isə 7 şikayət daxil olmuşdur.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni **30.3 faizini hüquq və azadlıqların inzibati və məhkəmə təminatı təşkil etmişdir. Müraciətlərin 20.3 faizi əmək, 19.5 faizi sosial təminat, 5.4 faizi isə mülkiyyət hüququnun təmini və müdafiəsi** ilə bağlı olmuşdur. Digər müraciətlər isə vətəndaşlıq, təhsil, azadlıq, müraciət etmək, informasiya əldə etmək, özbaşınalıqdan müdafiə və vicdanlı davranış, azad sahibkarlıq, şərəf və ləyaqətin müdafiəsi, sağlamlığın qorunması, hüquqi yardım almaq, təhlükəsiz yaşamaq və digər hüquqlarla əlaqəlidir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətin Ombudsmanın səlahiyyətlərinə aid olmaması, şikayətlə bağlı məhkəmə icraatının getməsi, şikayətin anonim olması, şikayətdə üçüncü şəxs qismində müraciət edənin razılığının olmaması, ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən 1 il müddətinə verilməməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən **46 müraciətə baxılmaqdan imtina edilmişdir** (onlardan 6 müraciət aidiyyəti üzrə göndərilmişdir). **195 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, 66 müraciətdə (59 tam, 7 qismən) hüquq pozuntusu aradan qaldırılaraq ərizəçilərin hüquqları bərpa edilmiş,** 60 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 20 müraciət üzrə hüquqi məsləhətlər verilmiş, 9 müraciət nəzarətdə saxlanılmış, 40 müraciətin icraatı davam etdiyindən növbəti ilə qalıq qalmışdır *(onlardan 31-i dekabr ayında daxil olmuşdur).*

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.2-ci maddəsinə əsasən

Ombudsmana ictimai birliklər tərəfindən şikayətlər daxil olmuş, müraciətlər qanunamüvafiq qaydada araşdırılaraq zəruri tədbirlər görülmüşdür.

Qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılarkən vəzifəli şəxslərin yazılı arayışları tələb olunmuş, yerində araşdırmalar aparılaraq nəticələri sənədləşdirilmiş, həmçinin hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə aidiyyəti dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələri və mütəxəssislər dəvət edilərək zəruri tədbirlər görülmüş, ekspert rəyləri alınmışdır.

Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri bir sıra problemlərin operativ həllində və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır. **Nəticədə baxılmış müraciətlərin 46 faizi üzrə pozuntu halları aradan qaldırılaraq ərizəçilərin pozulmuş hüquqları bərpa olunmuşdur.**

Muxtar respublikanın aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması və yazılı cavab verilməməsi barədə şikayətçilər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər qanunamüvafiq qaydada araşdırılmış, vətəndaşların hüquqlarını pozan dövlət orqanlarına zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq sorğular ünvanlanmış, hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

İnsan hüquq və azadlıqlarının təmini vəziyyətini daim diqqətdə saxlayaraq monitorinqini aparan Ombudsman 2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarına insan hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi, o cümlədən əhalinin həssas qruplarının problemlərinin operativ şəkildə həll olunması məqsədilə təklif və tövsiyələrlə müraciət etmişdir.

Ombudsmanın fəaliyyətinə etimad göstərərək müraciət edən bütün şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının qorunması naminə konstruktiv əməkdaşlıq edən dövlət qurumlarına və vətəndaş cəmiyyəti nümayəndələrinə təşəkkürümü bildirir, birgə səylərimizin hüquqların müdafiəsinin güclənməsinə töhfə verəcəyinə inanıram.

**Günay Rzayeva**

Naxçıvan Muxtar Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# I FƏSİL

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ

## 1.1. Mülki və siyasi hüquqların müdafiəsi

***Azadlıq hüququ.*** Azadlıq hüququ insan hüquq və azadlıqları sistemində əsas və ayrılmaz hüquqlardan biri olmaqla, şəxsiyyətin toxunulmazlığının, şəxsiyyətinin və hüquqi təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Azadlıq hüququnun məhdudlaşdırılması yalnız qanunla nəzərdə tutulmuş hallarda və zəruri prosedurlara ciddi riayət olunmaqla həyata keçirilməli, hər bir şəxsə münasibətdə proporsionallıq və insanpərvərlik prinsipləri əsas götürülməlidir.

Bu sahədə Ombudsmanın ünvanına daxil olan müraciətlərdə əsasən Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri üzrə qeydiyyata alınması, xarici ölkəyə gedə bilmək üçün ümumvətəndaş pasportunun verilməsi, polis əməkdaşı tərəfindən alınmış şəxsiyyət vəsiqəsinin geri qaytarılması və bu kimi digər məsələlər öz əksini tapmışdır. Həmin şikayətlər üzrə qanunvericiliklə müəyyən olunmuş qaydada araşdırmalar aparılaraq qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənəd Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsidir. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi onun azadlıq hüququnun və digər hüquqlarının qanunvericiliklə müəyyən edilmiş qaydada sərbəst və maneəsiz həyata keçirilməsini təmin edir. Şəxsiyyət vəsiqəsinin qanunvericiliklə müəyyənləşdirilən qaydalara zidd olaraq alınması qəti qadağandır.

**Ərizəçi H (11-2025).** Ombudsmana müraciət edərək borcunu ödəyə bilmədiyi üçün ondan Naxçıvan Şəhər Polis İdarəsinə şikayət verildiyini, polis əmədaşları tərəfindən saxlanılaraq polis idarəsinə aparıldığını, şəxsiyyət vəsiqəsi əlindən alındığı üçün yaşayış yerinə geri qayıda bilmədiyini və mehmanxanaların onu qəbul etmədiyini bildirmiş, şəxsiyyət vəsiqəsinin ona geri qaytarılmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Tərəfimizdən aidiyyəti dövlət orqanına müraciət olunduqdan sonra ərizəçinin şəxsiyyət vəsiqəsi ona geri qaytarılaraq pozulmuş azadlıq hüququ bərpa olunmuşdur.

“Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 2-ci abzasına əsasən barəsində həbs, ev dustaqlığı və ya girov qətimkan tədbirləri seçilmiş, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş, qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmiş şəxslərdən şəxsiyyət vəsiqəsi təhqiqat, ibtidai istintaq, məhkəmə orqanları və cəzanı icra edən orqanlar və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi tərəfindən müvəqqəti alınır və həmin şəxs haqqında iş üzrə icraata və ya şəxsi işə əlavə edilir. Göstərilən əsaslar aradan qalxdıqda şəxsiyyət vəsiqəsi dərhal sahibinə və ya onun qanuni nümayəndəsinə, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsə qaytarılır.

**Ərizəçi T (226-2024).** Ombudsmana etdiyi müraciətində ümumvətəndaş pasportunun dəyişdirilməsi ilə bağlı Naxçıvan "Asan xidmət" mərkəzinə müraciət etdiyini, lakin Pasport və Qeydiyyat Şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.1-ci maddəsi (xuliqanlıq) üzrə barəsində açılmış cinayət işinə xitam verilməsinə dair məlumatların müvafiq sistemdə əks olunmadığı bildirilərək etibarlılıq müddəti bitmiş ümumvətəndaş pasportunun dəyişdirilməsinin mümkün olmadığını qeyd etmiş, hüquqlarının müdafiəsinə köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətə dair mülahizələrin alınması və araşdırmanın aparılması məqsədilə müvafiq dövlət orqanlarına sorğular göndərilmiş, araşdırma nəticəsində ərizəçinin pozulmuş hüququ bərpa olunaraq ümumvətəndaş pasportu dəyişdirilmişdir.

Qanunvericiliyin tələblərinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Qeydiyyatın məqsədi şəxslərin uçota alınması, onların başqa şəxslər, habelə dövlət və cəmiyyət qarşısında vəzifələrini icra etməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi üçün zəruri şərait yaratmaqdır.

Müəyyən səbəblərdən daimi yaşayış yeri üzrə qeydiyyatdan çıxarılan və yaşayış yeri olmayan vətəndaşların müraciətlərinə diqqətlə yanaşılmış, Ombudsman tərəfindən belə şəxslərin hüquqlarının təmin edilməsi üzrə zəruri tədbirlər görülmüş və aidiyyəti dövlət qurumlarına təklif və tövsiyələr verilmişdir.

**Ərizəçi F (231-2024).** Ombudsmana müraciət edərək xəbərdarlıq edilmədən ailə üzvləri ilə birlikdə yaşayış yerindən qeydiyyatdan çıxarıldığını, heç bir ünvanda qeydiyyatda olmadığı üçün şəxsiyyət vəsiqəsini dəyişdirə bilmədiyini və digər hüquqlarını həyata keçirə bilmədiyini qeyd etmiş, bu məsələnin araşdırılmasını xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin qeydiyyatda olduğu evin və onun qonşusunun mülkiyyətində olan mənzilin ayrı-ayrı yaşayış yerləri olmasına baxmayaraq, ünvanlarda dəyişiklik edilərkən yol verilmiş texniki səhvlik səbəbindən hər iki daşınmaz əmlakın ünvanının dövlət reyestrində eyni göstərildiyi, qonşunun qeydiyyatdan çıxarılmaqla bağlı tələbinin aidiyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən təmin olunduğu, nəticədə ərizəçinin və ailə üzvlərinin yaşadıqları ünvandan qeydiyyatdan çıxarıldıqları məlum olmuşdur.

Tərəfimizdən aidiyyəti dövlət orqanlarına müraciət olunduqdan sonra ərizəçinin yaşadığı evin ünvanında dəqiqləşdirmələr aparılmış və həmin yaşayış sahəsi yeni ünvanı ilə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış, lakin daşınmaz əmlak üzərində mülkiyyət hüququ ərizəçinin mərhum atasına məxsus olduğundan və vərəsələrdən heç birinin adına rəsmiləşdirilmədiyindən yaşayış yeri üzrə qeydiyyatın aparılması mümkün olmamış, ərizəçiyə hüquqları izah olunaraq məhkəməyə müraciət etməsi tövsiyə olunmuşdur.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən vətəndaş yaşayış yeri üzrə qeydiyyata alınması üçün digər zəruri sənədlərlə birlikdə mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, qanunvericilikdə nəzərdə

tutulmuş başqa sənədi və ya vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsini də təqdim etməlidir.

Bəzən aidiyyəti dövlət orqanları tərəfindən yaşayış yerləri üzrə ünvanlarda dəyişiklik edilərkən yol verilmiş texniki səhvliklər nəticəsində vətəndaşlar heç bir xəbərdarlıq edilmədən daimi yaşayış yerləri üzrə qeydiyyatdan çıxarılaraq hüquqları pozulur. Bu kimi hallarda qeydiyyatdan çıxarılmış şəxslərin şəxsiyyət vəsiqələrinin etibarsız olması əmək müqavilələrinin bağlanmasını, təhsil müəssisələrinə qəbulu, tibbi və digər xidmətlərdən istifadəni mümkünsüz edir ki, nəticə etibarilə həmin şəxslərin sosial təminat, sağlamlığın qorunması, təhsil və digər hüquqlarının məhdudlaşdırılmasına səbəb olur.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasının əsasları göstərilmişdir. Belə ki, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında şəxsin yaşayış sahəsindən çıxarılması və ya yaşayış sahəsindən istifadə hüququna xitam verilməsi, o cümlədən qeydiyyata alınma üçün əsas olmuş sənədlərin və ya məlumatların həqiqətə uyğun olmadığının aşkar edilməsi şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılması üçün əsasdır.

Azərbaycan Respublikası Konstitusiyasına və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərə əsasən azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

**Ərizəçi R (01-2025).** Ombudsmana müraciət edərək oğlunun hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olarkən yaranmış mübahisə nəticəsində barəsində cinayət işinin açıldığını, lakin zərərçəkmiş şəxslə barışdığını, oğlunun hərbi xidmətini bitirməyinə çox az müddət qaldığını, görmə qüsuruna görə özünün kənar şəxslərin daim köməyinə və qayğısına ehtiyacının olduğunu, bu səbəbdən digər oğlunun müddətli həqiqi hərbi xidmətə çağırışına möhlət verildiyini bildirmiş, oğlunun cinayət məsuliyyətindən azad edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətlə əlaqədar aidiyyəti dövlət orqanı ilə qarşılıqlı əməkdaşlıq edilmiş, ərizəçinin ailə vəziyyəti, törədilmiş əməlin ictimai təhlükəliliyi, təqsirləndirilənin şəxsiyyəti nəzərə alınaraq şəxsin barəsində "Zərərçəkmiş şəxslə barışmaqla cinayət məsuliyyətindən azad etmə" institutu tətbiq edilməklə məsələ müsbət həllini tapmışdır.

Cinayət törətmiş şəxsin dövlət məcburetmə tədbirlərinə məruz qalmalı olması cinayət qanunvericiliyinin ümumi qəbul olunmuş yanaşmasıdır. Bu zaman cinayətlərin törədilməsinin qarşısını alan ən təsirli vasitə cəzanın ağırlığı deyil, onun qaçınılmazlığıdır. Bununla yanaşı qanunla nəzərdə tutulan bir sıra hallarda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Müasir cinayət ədalət mühakiməsi sisteminin fərqləndirici xüsusiyyəti cinayət məsuliyyətindən azad etmənin həm məhkəməyədək mərhələdə, həm də məhkəmə icraatı mərhələsində mümkün olması, bununla da cinayət təqibinə xitam verilməsi ilə əlaqədar cinayət işlərinin sayının azalma prosesidir.

Qeyd edilməlidir ki, cinayət məsuliyyətindən azad etməni o zaman əsaslandırılmış və ədalətli hesab etmək olar ki, cinayət törətdikdən sonra təqsirləndirilən şəxsin cinayət

cəzası təyin edilmədən azad edilməsi şəxsin hüquq və azadlıqlarının, bütün hüquq qaydalarının cinayətkar qəsddən müdafiəsinə mane olmur və bununla yanaşı təqsirkar şəxsin islah olunmasına, yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yardımçı, cinayət qanunvericiliyinin vəzifələrinə isə müvafiq olur və cəzanı tətbiq etmədən də onun məqsədlərinə nail olmağa imkan verir.

Cinayət Məcəlləsinin 11-ci fəslində cinayət məsuliyyətindən azad etmənin əsasları göstərilmiş və bu əsaslar sırasında zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə (Cinayət Məcəlləsinin 73-cü maddəsi) xüsusi yer tutur.

Belə ki, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər. Dispozitivlik prinsipinə əsasən qanunverici belə qərarın qəbul edilməsini cinayət prosesini həyata keçirən orqanların vəzifəsi deyil, hüququ kimi müəyyən etmişdir.

***"İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə" Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi.***

Ombudsman və onun Preventiv qrupu (PQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin müəssisələrinə 33, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 15, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 4, Səhiyyə Nazirliyinin müəssisəsinə 4, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisəsinə 2 və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tabeliyində olan Naxçıvan Şəhər Müvəqqəti Yerləşdirmə Mərkəzinə 2 başçəkmə olmaqla, **60 başçəkmə** həyata keçirilmişdir. Bunlardan 15-i plandankənar olmuşdur.

Başçəkmələr zamanı saxlanılan şəxslər təkbətək və konfidensial qaydada qəbul edilmiş, onların hüquqlarının təmini vəziyyəti, o cümlədən müəssisələrdə saxlanma şəraiti, rəftar, tibbi xidmət, görüş, telefon danışığı və bu kimi digər məsələlər, habelə mətbuatda və sosial şəbəkələrdə həmin şəxslər barəsində yayımlanmış məlumatlar araşdırılmış, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində Ombudsmanın tövsiyələrinin icra vəziyyəti yoxlanılmışdır.

Başçəkmələr həyata keçirilərkən hüquq pozuntusu faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə texniki vasitələrdən istifadə edilməklə foto, audio və video qeydiyyatları aparılmış, başçəkmələrin gedişi və nəticələri protokollaşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Başçəkmələr zamanı **970** şəxslə ümumi, **41** şəxslə təkbətək və konfidensial görüş keçirilmişdir. Başçəkmələrin gedişində qəbul edilmiş şəxslərin müraciətləri araşdırılmış, qaldırılmış bəzi məsələlər operativ şəkildə yerində həll olunmuş və müraciət edənlərə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər baxılmaq üçün icraata qəbul olunmuş, qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılmışdır. Araşdırmaların nəticələri barədə müraciət edən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada yazılı formada cavablar verilmişdir.

Belə ki, başçəkmələr zamanı Ombudsmanın icraatına **13 müraciət daxil olmuş,** başçəkmələrdə müraciət edənlərdən 4 şəxsin pozulmuş hüquqları bərpa edilmiş, 1 müraciətə baxılmasından imtina edilərək aidiyyəti üzrə göndərilmiş, 3 müraciət üzrə hüquqi məsləhət verilmiş, 2 müraciət nəzarətdə saxlanılmış, 3 müraciətdə hüquq pozuntusu aşkar edilməmişdir.

Yaşayış sahəsi, qida və gigiyena məsələləri saxlanılan şəxslərin ləyaqət hissinə və rifah halına təsir edən amillərdəndir. Buna görə də başçəkmələr zamanı saxlanılan şəxslərin ləyaqətlərinin qorunması, işçi heyətin onlarla humanist və müsbət rəftar etmə öhdəliyinə əməl etmə məsələlərinə xüsusi diqqət yetirilmiş, saxlanılan şəxslərin saxlanılması üçün bütün mümkün sahələrdən istifadə, gigiyena və sanitariya qurğuları, onların sağlamlığının qorunması və açıq havada olmaq imkanı monitorinq olunmuşdur.

2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 34 saxlanılan şəxs üçün nəzərdə tutulmuş İstintaq Təcridxanasında mövcud şəraitlə bağlı sıxlıq probleminin yenə də aşkar olunduğu və saxlanılan şəxslərin hər biri üçün yaşayış sahəsinə dair qanunvericiliyin tələblərinə əməl olunmadığı müəyyən olunmuşdur.

İstintaq Təcridxanasına həyata keçirilmiş başçəkmələrin nəticələri nəzərə alınaraq, şəxsi cəmiyyətdən təcrid etmədən azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzaların və ən ciddi prosessual məcburiyyət tədbiri olan həbsə alternativ qətimkan tədbirlərinin (ev dustaqlığı, girov, şəxsi zaminlik və s.) tətbiqinin mümkünlüyü yoxlanılmalıdır.

Məlum olduğu kimi, "Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2009-cu il tarixli 2 saylı Qərarında məhkəmələrə həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən ilk növbədə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 154-cü maddəsində nəzərdə tutulmuş digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün yoxlanılması, təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasının əsaslandırılması tövsiyə olunur. Bununla yanaşı, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar cəza siyasətinin humanistləşdirilməsini və cinayətlərin dekriminallaşdırılmasını, qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına əməl olunmasını, alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsini nəzərdə tutur.

Başçəkmələr zamanı saxlanma şəraitinin digər aspektləri - işıqlandırma, havalandırma, sanitariya şəraiti, masa və oturacaqlar, habelə fərdi çarpayı və yataq ləvazimatları ilə təchizat məsələləri, o cümlədən əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində verilmiş təklif və tövsiyələrin icrası vəziyyəti araşdırılmış, müsbət dəyişikliklərin olduğu müşahidə edilmişdir.

Belə ki, ötən ildə həyata keçirilmiş başçəkmələrdə verilmiş təklif və tövsiyələrə uyğun olaraq penitensiar müəssisələrin hamam və sanitar qovşaqlarında əsaslı təmir işləri aparılaraq sanitariya və gigiyena qaydalarına uyğun zəruri şərait yaradılmış, elektrik sistemlərinə dəyişiklik edilərək işıqlandırma daha da yaxşılaşdırılmışdır.

Monitorinqlərin aparıldığı müəssisələrdə təmir-bərpa işlərinin həyata keçirilməsi şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir.

Qeyd olunanlarla yanaşı, 2025-ci il ərzində penitensiar müəssisələrə həyata keçirilmiş başçəkmələr zamanı bir sıra nöqsanlar aşkar olunmuşdur.

Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin bəzi rejim bölmələrinə baxış keçirilərkən məhkumların gigiyena-sanitariya qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə tam təmin olunmadıqları, naqillərin açıq olduğu müəyyən olunmuşdur. Bununla yanaşı, əvvəlki başçəkmələrdə olduğu kimi məhkumların videogörüş keçirmək hüququnun təmin edilməsi üçün şəraitin yaradılmadığı, bədən tərbiyəsi və idmanla məşğul olmaları üçün mövcud şəraitin qənaətbəxş olmadığı müşahidə olunmuşdur.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 84-cü maddəsində müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin isə həftədə bir dəfə, müddəti on beş dəqiqə olmaqla, videogörüş keçirmək hüququ təsbit edilmişdir. Lakin texniki imkanlar olmadığından məhkumların videogörüş keçirmək hüququ həyata keçirilmir.

Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin tibbi-sanitar hissəsinə baxış zamanı məhkumlara tibbi xidmətin göstərilməsi üçün yaradılmış şəraitin qənaətbəxş olmadığı, ixtisaslı kadr və həkim çatışmazlığının olduğu, sanitariya-gigiyena qaydalarına tam əməl edilmədiyi, ambulator və stasionar müalicəyə cəlb olunmuş məhkumlara göstərilən tibbi yardımın qənaətbəxş olmadığı və bəzi tibbi aparatların istifadəyə yararsız olduğu müəyyən olunmuşdur.

Penitensiar müəssisələrdə maddi-məişət şəraitinin yaxşılaşdırılması, sanitariya-gigiyena şəraitinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılması və mövcud nöqsanların aradan qaldırılması məqsədilə müəssisələrin rəhbərliyinə təklif və tövsiyələr verilmişdir.

Ombudsmanın tapşırığına əsasən Preventiv qrupun üzvləri tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən Müvəqqəti Saxlama Yerinə, şəhər və rayon polis idarə, şöbə və bölmələrinin saxlama yerlərinə müntəzəm həyata keçirilmiş başçəkmələr zamanı azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı məsələlər araşdırılmış, saxlamanın əsasları, qanuniliyi, müddət və şərtləri, saxlanılan şəxslərin hüquqlarının təmini ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunub-olunmaması məsələləri aydınlaşdırılmışdır.

Cinayət-prosessual qanunvericiliyə əsasən hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə alınmanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları ona aydın olan dildə bildirilməlidir.

Başçəkmələr zamanı qəbul edilmiş şəxslərin hüquq və vəzifələri, daxili intizam qaydaları, o cümlədən həbs yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası barədə məlumatlandırılması ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilib-edilməməsi halları araşdırılmış, Ombudsmana müraciət etmə qaydaları barədə məlumat lövhələrinin mövcudluğu yoxlanılmış, bununla bağlı çatışmazlıqlar yerində aradan qaldırılmışdır.

Tutulmuş şəxsin hüquqlarının təmin olunması üçün cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerinin əməkdaşları şəxsə tutulduğu andan öz vəkili və qanuni nümayəndəsi ilə ləyaqətli şəraitdə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmalıdır.

Tutulmuş və ya həbs edilmiş şəxslər qanunvericiliklə müəyyən edilmiş hüquq və azadlıqlardan istifadə edir və vəzifələr daşıyırlar. Həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək imkanı ilə təmin olunmaq, müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşmək, o cümlədən yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə görüşmək tutulmuş və ya həbs edilmiş şəxslərin əsas hüquqlarındandır.

Başçəkmələr zamanı tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarından qanunamüvafiq qaydada istifadə edib-etməməsi ilə yanaşı, şəxslərin saxlanılması ilə bağlı qanunvericlikdə nəzərdə tutulmuş prosessual normalara əməl edilib-edilməməsinin də monitorinqi aparılmışdır.

Bəzi hallarda polis orqanlarındakı (Sədərək Rayon Polis Şöbəsi, Ordubad Rayon Polis Şöbəsi) müvafiq qeydiyyat kitablarında qeydlərin aparılması zamanı natamam qeydə alınma hallarına rast gəlinmişdir.

Qeyd etmək lazımdır ki, polis orqanlarındakı sənədləşmədə olan nöqsan və çatışmazlıqlar qeydiyyat işinin düzgün təşkil edilməməsini, şəxslərin saxlanılması ilə bağlı prosessual müddətlərə riayət edilib-edilməməsini müəyyənləşdirməkdə çətinliklərə səbəb olur və bir çox hallarda belə pozuntuların aşkarlanmamasına xidmət edir. Bu halların qarşısının alınması üçün qanunvericiliyin tələbləri nəzərə alınaraq, hər bir saxlanılan şəxslə bağlı əhatəli və dolğun qeydiyyat aparılmalı, saxlanılan şəxsin adı, saxlanma səbəbi, saxlanmanın vaxtı, dindirmə, başqa yerə köçürülmə, onlar barədə bütün prosessual hərəkətlər və digər məlumatlar müfəssəl şəkildə təsvir olunmalıdır.

2025-ci il ərzində Ombudsmanın Preventiv qrupu tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan Müvəqqəti Saxlama Yerinə, polis idarə, şöbə və bölmələrinə həyata keçirilmiş başçəkmələr zamanı Müvəqqəti Saxlama Yerinin kameralarında tutulmuş və ya həbs edilmiş şəxslərin müəyyən edilmiş normalara müvafiq olaraq yeməklə, gündəlik ərzaq normaları ilə təmin edilmədiyi, onların idmanla məşğul olmaq və stolüstü oyunlar oynamaq, ödənişsiz psixoloji yardım almaq kimi hüquqlarının həyata keçirilməsinə şəraitin yaradılmadığı, bəzi müəssisələrin müvəqqəti saxlama yerlərində şəraitin uzunmüddətli saxlanılma (24 saatdan artıq) üçün əlverişli olmadığı və ölçülərinin qanunvericiliyin tələblərinə uyğun olmadığı, işıqlandırmanın və havalandırmanın olmadığı, bəzi polis şöbə və bölmələrində müvəqqəti saxlama yerlərinin ləğv olunduğu və görüş otaqlarının olmadığı müşahidə edilmiş, saxlanma şəraitinin yaxşılaşdırılması və mövcud nöqsanların qanunvericiliyin tələblərinə əməl olunmaqla aradan qaldırılması üçün təklif və tövsiyələr verilmiş, bu istiqamətdə zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 30 iyul tarixli 130 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi Normaları"nın 2.4-cü və 5.14-cü bəndlərinə əsasən şəhər-rayon polis orqanlarının binalar kompleksinin tikintisi üçün ayrılmış sahədə digər bina, qurğu və meydançalarla yanaşı, müvəqqəti saxlama yeri də yerləşdirilir. Şəhər-rayon polis orqanlarının binalar kompleksində yerləşdirilən müvəqqəti saxlama yerlərinin girişləri növbətçi hissənin yaxınlığında yerləşdirilməli və həmin hissənin nəzarəti altında olmalıdır.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan M.Füzuli adına Ordubad şəhər tam orta internat məktəbinə əvvəllər həyata keçirilmiş başçəkmələr zamanı məktəbdə gecələyən təhsilalanların saxlanma şəraiti ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olmayan bir sıra nöqsan və çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Aşkar olunmuş nöqsan və çatışmazlıqlarla bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə verilmiş tövsiyələrdən sonra məktəbdə gecələyən təhsilalanlar üçün qanunvericiliklə müəyyən olunmuş qida normalarına ciddi əməl olunmaqla, qidanın minimum keyfiyyətinə nəzarət gücləndirilmiş, uşaqlara müvafiq normativ-hüquqi akta uyğun olaraq geyim, ayaqqabı və yumşaq inventarlar verilmiş, onların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığı təmin edilmiş, eyni zamanda uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə onların maraqları və qabiliyyətləri nəzərə alınaraq dərnəklər və digər mədəni tədbirlər təşkil edilmişdir.

Lakin müəssisəyə həyata keçirilmiş başçəkmələr zamanı bəzi nöqsan və çatışmazlıqların mövcud olduğu müəyyən edilmişdir. Belə ki, müəssisənin yataqxanasında, hamam və sanitar qovşaqlarda əsaslı təmir-bərpa işlərinə ehtiyacın olduğu, həmçinin məktəbdə psixoloji xidmətin keyfiyyətinin yetərsiz olduğu müşahidə edilmişdir.

Ordubad şəhər tam orta internat məktəbində gecələyən təhsilalanların psixi sağlamlığına diqqətin artırılması, uşaqlarla psixoloji işin aparılmasında nümunəvi sənədlərin, fərdi iş planlarının formalarının işlənib hazırlanması, bu istiqamətdə məşğələlərin aparılması üçün kabinetlərin əyani vəsaitlərlə təmin olunması, həmçinin əmək təlimi və peşə hazırlığı işlərinin aparılması üçün maddi-texniki bazanın gücləndirilməsi və emalatxanaların yaradılması zəruridir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Psixi Xəstəliklər Dispanserinə həyata keçirilmiş başçəkmələr zamanı pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri araşdırılmış, pasiyentlərin geyim, şəxsi gigiyena əşyaları (sabun, diş fırçası, diş məcunu və sair) və yumşaq invertarlarla təmin edilmədiyi, palatalarda yataq ləvazimatlarının - yataq örtüklərinin, döşəklərin, balışların və onların üzlərinin natəmiz və köhnə olduğu, hamam və əl-üz dəsmallarının olmadığı, kanalizasiya sisteminin nasaz olması səbəbindən hamamın və sanitar qovşaqların, hətta bəzi palataların istifadəyə yararsız, natəmiz və rütubətli olmasına baxmayaraq, hələ də istifadə olunduğu, sanitariya-gigiyena qaydalarına əməl olunmadığı, pasiyentlərin içməli su təminatının olmadığı, su kranlarından gələn suyun içildiyi, palatalarda pəncərələrin otaq daxilində dəmir arakəsmələrlə bağlı olması səbəbindən açılmadığı üçün havalandırmanın olmadığı, ventilyasiyaların işləmədiyi,

nəticədə palatalarda və koridorlarda kəskin qoxunun olduğu, elektrik lampalarının bir çoxunun işləməməsi səbəbindən süni işıqlandırmanın normal olmadığı aşkar olunmuşdur.

Həmçinin başçəkmələr zamanı Dispanserin qazanxanasının binanın zirzəmisində yerləşdiyi, camaşırxanada mövcud olan 4 ədəd paltaryuyan maşından 3-nün işləmədiyi, 1-nin isə qismən işlədiyi, qurutma maşınının işləmədiyi, paltarların və yataq ləvazimatlarının qurudulması zamanı sanitariya-gigiyena qaydalarına əməl edilmədiyi, soyuducu və dondurucuların işləməməsi səbəbindən bəzi ərzaq məhsullarının (yumurta, kərə yağı) minimum keyfiyyətinə və təhlükəsizliyinə nəzarət olunmadığı, müəssisənin əsaslı təmirə ehtiyacının olduğu müəyyən olunmuşdur.

Bununla yanaşı, xəstəliklərinin ağırlıq dərəcəsi və gedişindən asılı olmayaraq, Dispanserdə pasiyentlərin eyni şəraitdə saxlanıldığı, pasiyentlərin müalicəsi üçün dərman preparatlarının çeşidinin və miqdarının məhdud olduğu, pasiyentlərin istirahət hüququnun təmini məqsədilə yaradılan şəraitin asudə vaxtın səmərəli təşkili üçün yetərli olmadığı, həkim-psixiatrların və ya digər mütəxəssislərin çatışmazlığı səbəbindən pasiyentlərin psixi vəziyyətinin müayinəsini, psixi pozuntusunun diaqnostikasını, müalicəsini və profilaktikasını, psixo-sosial reabilitasiyasını özündə birləşdirən ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsinin mümkün olmadığı müşahidə edilmişdir.

Əhalinin həssas kateqoriyası kimi psixiatriya yardımı və narkoloji xidmətə ehtiyacı olan şəxslərin müalicə aldıqları müəssisədə qanunvericiliyə uyğun zəruri maddi-məişət şəraitinin yaradılması, onların qanunvericiliyə uyğun qida normaları, şəxsi gigiyena əşyaları və yumşaq invertarlarla təmin edilməsi, keyfiyyətli tibbi xidmətlərin təşkilinə diqqətin artırılması və bu sahədə digər nöqsanların aradan qaldırılması, müəssisənin əsaslı təmir edilməsi, yenidənqurma zamanı müasir standartların nəzərə alınması üçün Səhiyyə Nazirliyinə təklif və tövsiyələr verilmiş, daha sonra həyata keçirilmiş başçəkmə zamanı sanitar qovşaqlarda cüzi təmir işlərinin aparıldığı, lakin digər nöqsan və çatışmazlıqların aradan qaldırılmadığı, hətta mövcud şəraitin daha da pisləşdiyi müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinın tabeliyində olan "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi"nə həyata keçirilmiş başçəkmələr zamanı ahılların və digər sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının müdafiəsi, qidalanma, içməli su, habelə isti və soyuq su ilə təminat, asudə vaxtın təşkili, rəftar, sənədləşmə məsələləri araşdırılaraq, şəraitin qənaətbəxş olduğu müşahidə edilmiş, bu kateqoriyadan olan şəxslərə tibbi-psixoloji və profilaktik tədbirlərin daha yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı müəssisənin rəhbərliyinə təklif və tövsiyələr verilmişdir.

Müvəkkilin preventiv mexanizm funksiyasının icrası məqsədilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tabeliyində olan Naxçıvan Şəhər Müvəqqəti Yerləşdirmə Mərkəzinə həyata keçirilmiş başçəkmələr zamanı Mərkəzdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin saxlama şəraiti, saxlanılma rejimi, onların hüquqlarının təmini vəziyyəti öyrənilmiş, qeydiyyat kitablarına baxış keçirilmiş, maddi-məişət şəraitinin qənaətbəxş olduğu müşahidə olunmuşdur.

Həmçinin hesabat dövründə Preventiv qrup üzvləri Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki postlarında olmuş, ərzaq anbarlarına və hərbi sirr təşkil etməyən digər

obyektlərə baxış keçirmiş, şəxsi heyətlə fərdi və ümumi söhbətlər aparmış, hüquqi maarifləndirmə tədbirləri keçirmiş, şəraitin qənaətbəxş olduğu müəyyən edilmişdir.

Ümumiyyətlə həyata keçirilən başçəkmələrin təhlili şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi əksər müəssisələrdə ixtisaslı kadr, o cümlədən həkim çatışmazlığının, psixoloji yardımla bağlı çatışmazlıqların olması qənaətinə gəlməyə əsas verir. Ödənişsiz psixoloji yardımın göstərilməsinin qaydaları və şərtləri barədə hüquqi baza mövcud olsa da, qapalı müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsinə ciddi ehtiyac vardır.

Hesabat dövründə həyata keçirilən başçəkmələrin nəticələri ilə bağlı Ombudsman tərəfindən aidiyyəti dövlət qurumlarına çoxsaylı təkliflərlə müraciətlər ünvanlanmış, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmiş, təkrar başçəkmələr zamanı həmin tövsiyələrin icra vəziyyəti yoxlanılmışdır. Hüquqların təmini sahəsində mövcud olan ayrı-ayrı nöqsanlar və çatışmazlıqlar barədə aidiyyəti qurum və müəssisələrə verilən təklif və tövsiyələrin əksəriyyətinə əməl olunsa da, bəziləri nəzərə alınmamış və nəticədə inzibati prosedurların icrasında, saxlama və xidmət şəraitində müşahidə edilən problemlər və ləngimələr hüquqların effektiv təmin edilməsinə diqqətin artırılmasının zəruriliyini ortaya qoymuşdur. Qeyd edilməlidir ki, bu sahədə məsul qurumların fəaliyyəti Ombudsman tərəfindən daim diqqət mərkəzində saxlanılır.

***Hüquq və azadlıqların məhkəmə təminatı.*** Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüquqi dövlətin prinsiplərindən biri olmaqla, insanların qanuni maraqlarının müdafiəsi və hüquq münasibətlərinin ədalətli tənzimlənməsi üçün əsas mexanizm kimi çıxış edir. Bu hüquq vətəndaşların məhkəməyə çıxış imkanını təmin etməklə, hüquqların pozulması hallarının obyektiv və qərəzsiz araşdırılmasını, mübahisələrin qanun çərçivəsində və ədalətli həllini nəzərdə tutur.

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, ədalət mühakiməsinin vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilməsinə təminat verir.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə ölkəmizdə hüquq-müdafiə vasitələrinə çatım imkanlarının genişləndirilməsi, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, məhkəmə qərarlarının icrası mexanizmlərinin müasirləşdirilməsi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün islahatlar aparılmaqdadır.

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 1.7-ci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması Ombudsmanın səlahiyyətlərinə aid deyildir. Bununla belə, həmin Qanunun 1.9-cu maddəsində Ombudsmanın məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq, 13.2.6-cı maddəsində Naxçıvan

Muxtar Respublikasının dövlət orqanının, bələdiyyənin və digər qurumun, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək hüquqları təsbit edilmişdir.

Həmçinin, bu Qanunun 13.2.7-ci maddəsi şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduğu hallarda Ombudsmanın Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu müəyyən edir.

2025-ci ildə hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə hakimlərin hərəkət və ya hərəkətsizliyindən narazılıq, məhkəmə baxışı zamanı prosessual hüquq normalarının, o cümlədən çəkişmə prinsipinin pozulması, prosessual müddətlərə riayət edilməməsi, məhkəmə qərarlarının surətinin proses iştirakçılarına vaxtında göndərilməməsi, məhkəmə aktlarından narazılıq, məhkəmə qərarlarından yuxarı instansiya məhkəməsinə şikayət vermək hüququnun əsassız məhdudlaşdırılması, qanuni qüvvəsini almış məhkəmə qərarlarının icra olunmaması və digər hallar öz əksini tapmışdır.

Həmin şikayətlərə baxılaraq qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində araşdırmalar aparılmış, vətəndaşların hüquqlarının pozulması halları müəyyən edildikdə onların bərpası istiqamətində zəruri tədbirlər görülmüş, Ombudsmanın səlahiyyətlərinə aid olmayan müraciətlər üzrə qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavablar verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinə əsasən, məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Məhkəmə qərarlarının icrası ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətlərin yekun mərhələsidir və məhkəmə qərarlarının hüquqi qüvvəsinin təmin olunmasına xidmət edir. Qərarların icrası vətəndaşların hüquqlarının və qanuni maraqlarının qorunması, ədalətin bərpa edilməsi və qanunun aliliyinin təmin olunması üçün əhəmiyyətlidir.

İcra prosesi həm də cəmiyyətdə hüquqi intizamın möhkəmlənməsinə və vətəndaşların hüquqlarının pozulmasının qarşısının alınmasına mühüm töhfə verir. Buna görə də, məhkəmə qərarlarının vaxtında və tam icrası hüquqi dövlət quruculuğu baxımından olduqca mühümdür.

Ölkəmizdə məhkəmə qərarlarının icrası mexanizminin təkmilləşdirilməsi, icra sənədləri və icra hərəkətləri üzrə vahid elektron məlumat bazasının yaradılması, maraqlı tərəflər üçün informasiya əlçatanlığının təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsinə baxmayaraq, məhkəmə qərarlarının icrası ilə bağlı problemlər hələ də mövcuddur.

Ombudsmanın ünvanına məhkəmə qərarlarının icra olunmaması ilə bağlı daxil olmuş şikayətlər əsas etibarilə məhkəmə qərarlarının icra olunmaması, icra tədbirlərinin gecikdirilməsi, borclu barəsində axtarış işinin nəticə verməməsi səbəbindən icra sənədi üzrə icraatın uzun müddət dayandırılması ilə bağlı olmuşdur. Hər bir şikayət üzrə araşdırma aparılmış və bəzi hallarda məhkəmə qərarlarının icrasına tam və ya qismən nail olunsa da, bir çox hallarda icra qurumu tərəfindən hüquqpozmaya yol verilmədiyi aşkar olunmuşdur.

**Ərizəçi S (181-2025).** Ombudsmana müraciət edərək Culfa Rayon Məhkəməsində mülki iş üzrə iddiasının rədd edildiyini və dövlət rüsumunun geri qaytarılmadığını, daha

sonra verdiyi apellyasiya şikayətinə baxılmadığını və nəticə ilə bağlı heç bir cavabın verilmədiyini bildirmiş, Culfa Rayon Məhkəməsində ona qarşı edilmiş süründürməçiliyin qarşısının alınaraq verdiyi apellyasiya şikayətinə baxılması və ödədiyi dövlət rüsumlarının geri qaytarılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin şikayəti qanunamüvafiq qaydada araşdırılmış, onun cavabdehə qarşı borc tələbinə dair iddia ərizəsi üzrə Culfa Rayon Məhkəməsində mülki işə baxılaraq iddiasının rədd edildiyi və ödədiyi dövlət rüsumunun ərizəçiyə aid edildiyi məlum olmuşdur.

Həmçinin vətəndaşın Culfa Rayon Məhkəməsinin qətnaməsindən verdiyi apellyasiya şikayətində məhkəmənin ünvanı, tələb, məhkəmə aktını düzgün hesab etməməsinin konkret əsasları, istinad etdiyi konkret fakt və hallar olmadığından, habelə onları təsdiq edən sübutlar göstərilmədiyindən, həmçinin apellyasiya şikayətinə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd əlavə olunmadığından apellyasiya şikayəti geri qaytarılmış və Culfa Rayon Məhkəməsinin müvafiq qərardadı vətəndaşın şəxsi elektron kabinetinə yerləşdirilmişdir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 114-cü maddəsinə əsasən tələb edilən miqdardan artıq dövlət rüsumu ödənilərsə, ərizəni baxılmaq üçün qəbul etməkdən imtina edilərsə, ərizə geri qaytarılarsa, iş üzrə icraata xitam verilərsə, ərizə baxılmamış saxlanılarsa, apellyasiya şikayəti geri qaytarılarsa və ya apellyasiya icraatına xitam verilərsə ödənilmiş dövlət rüsumu qaytarılır.

Bu Məcəllənin 363.1.2-ci maddəsinə əsasən apellyasiya şikayətinə müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənədlər əlavə olunmadıqda apellyasiya şikayəti birinci instansiya məhkəməsi tərəfindən qaytarılır.

Məhkəmə sistemində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi məhkəmələrə çatım imkanlarını asanlaşdırmağa, onların fəaliyyətində keyfiyyət və səmərəliliyin artırılmasına hədəflənmişdir.

Bir sıra şikayətlər məhkəmə qərarlarının surətinin proses iştirakçılarına vaxtında göndərilməməsi ilə bağlı olmuşdur. Məhkəmə qərarının tərəflərə vaxtında verilməməsi həmin qərardan yuxarı instansiya məhkəməsinə şikayət etmək hüququnu da məhdudlaşdırmış olur.

**Ərizəçi M (05-2025).** Ombudsmana etdiyi müraciətində qonşusu tərəfindən mülkiyyət hüququnun pozulması tələbi ilə bağlı Culfa Rayon Məhkəməsinə iddia ərizəsi ilə müraciət etdiyini, məhkəmə prosesində onun adından iştirak etməsi üçün qohumuna etibarnamə verdiyini, nümayəndəsinin birinci məhkəmə prosesindən başqa digər proseslərdə iştirakına hakim tərəfindən icazə verilmədiyini, məhkəmə prosesləri yekunlaşdıqdan sonra qeydiyyatda olduğu ünvana göndərilmiş zərfin üzərində adının yazılmasına baxmayaraq qətnamədə iddiaçı kimi başqa şəxsin adının qeyd olunduğunu, apellyasiya şikayəti verə bilmədiyini qeyd etmiş, məhkəmə qətnaməsinin ona təqdim olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin şikayəti qanunamüvafiq qaydada araşdırılmış, tərəfimizdən şikayətlə bağlı aidiyyəti məhkəməyə müraciət olunduqdan sonra müvafiq düzəlişlər edilməklə məhkəmənin qətnaməsi rəsmi qaydada vətəndaşa təqdim edilmiş və vətəndaşa apellyasiya şikayəti vermək hüququ izah olunmuşdur.

Müraciətlərin təhlili onu göstərir ki, aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı şikayətlər çoxluq təşkil edir və bir çox hallarda tələb könüllü icra olunmadığından, borclu barədə tələbin yönəldilə biləcəyi əmlak və ya gəlirlər aşkar edilmədiyindən, həmçinin borclunun yeri məlum olmadığından məhkəmə qərarlarının icrasında müəyyən çətinliklər yaranır.

**Ərizəçi İ (170-2025).** Ombudsmana müraciət edərək Şahbuz Rayon Məhkəməsinin müvafiq qətnaməsinə əsasən iki uşağının saxlanılması üçün alimentin tutularaq onun xeyrinə ödənilməsi qət olunsa da, borclu tərəfindən alimentin vaxtında ödənilmədiyini bildirmiş, alimentin tutulmasına və aliment öhdəliyi üzrə borcun ödənilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı tələbin borclu tərəfindən könüllü icra olunmadığı, onun barəsində məcburi icra tədbirlərinin həyata keçirildiyi, 15 gün müddətinə inzibati həbs növündə inzibati tənbeh tətbiq edildiyi məlum olmuş, tərəfimizdən aidiyyəti dövlət qurumuna müraciət olunduqdan sonra tələb borclunun əmlakına yönəldilmiş, borcluya məxsus avtonəqliyyat vasitəsinin üzərinə həbs qoyularaq Dövlət Yol Polisi İdarəsinin mühafizə olunan duracağına yerləşdirilmiş, nəqliyyat vasitəsi qiymətləndirilərək aliment öhdəliyi üzrə borcun ərizəçinin xeyrinə ödənilməsi təmin edilmişdir.

Alimentin borclu tərəfindən vaxtında ödənilməməsi və ya ödənişdən boyun qaçırılması, yaxud da borclunun icra qurumlarından gizlənməsi müvafiq məhkəmə qərarlarının icra edilməsinə ciddi maneələr törədir. Qeyd olunanlarla bağlı bir sıra hallarda zəruri tədbirlərin görülməsi təmin edilsə də, ümumilikdə bu kimi məsələlər xüsusi narahatlıq doğurmaqdadır. Bu səbəbdən aliment öhdəliklərinin icrasına xüsusi yanaşılması, o cümlədən bu sahədə məhkəmə qərarlarının icrasındakı problemlərin həlli istiqamətində tədbirlərin görülməsi zəruridir.

Məhkəmə qərarlarının icrası ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdən ünsiyyət hüququnun təmin edilməsində müəyyən problemlərin olduğu müəyyən edilmişdir. Ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası zamanı bəzi hallarda tərəflər uşaqların mənafelərinin üstünlüyü prinsipini nəzərə almır və belə hallar uşaqların psixologiyasına mənfi təsir göstərir.

**Ərizəçi Ə (144-2025).** Ombudsmana etdiyi müraciətində Naxçıvan Şəhər Məhkəməsinin müvafiq qətnaməsinə əsasən azyaşlı uşağı ilə görüşüb ünsiyyətdə olmaq hüququnun müəyyən edildiyini, ötən müddət ərzində borclunun qətnamənin icrasını qəsdən yerinə yetirmədiyini, Naxçıvan Şəhər İcra və Probasiya Şöbəsinin məcburi icra tədbiri nəticəsində icra məmurunun iştirakı ilə iki görüşün keçirildiyini, icra məmurunun telefon vasitəçiliyi ilə övladı ilə ünsiyyətdə olduğunu, bu görüşlərin formal xarakter daşıdığını bildirmiş, məsələnin araşdırılmasında və qanunamüvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir.

Araşdırma zamanı İcra və Probasiya Şöbəsi tərəfindən zəruri icra hərəkətləri çərçivəsində tələbin təmin edilməsi barədə borcluya xəbərdarlıq edildiyi, icra sənədi üzrə bir neçə dəfə borclunun yaşayış yeri üzrə icra məmurunun iştirakı ilə icra hərəkətlərinin həyata keçirildiyi, borclu tərəfindən uşaqla görüşə lazımi şərait yaradılsa da, uşağın görüşmək istəmədiyi üçün görüşün qısa müddətdə həyata keçirildiyi məlum olmuşdur.

Tərəfimizdən aidiyyəti dövlət orqanına müraciət olunduqdan sonra tərəflərin, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısı yanında Uşaq Hüquqlarının Müdafiəsi Komissiyasından və Naxçıvan Şəhər Təhsil Şöbəsindən dəvət olunmuş psixoloqların iştirakı ilə icra hərəkətləri həyata keçirilmiş, görüşün həyata keçirilməsinə lazımi şərait yaradılsa da, uşaq görüşmək istəməmiş, psixoloq tərəfindən uşağın psixoloji dəstək aldıqdan sonra ünsiyyətin təmin edilə biləcəyi barədə rəy verilmişdir.

Bu baxımdan, ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası ilə bağlı uşaqların mənafelərinin üstünlüyü prinsipi nəzərə alınmaqla, daha effektiv metodlar tətbiq edilməli, mənfi nəticələrin qarşısının alınması məqsədilə icra prosesində psixoloqun iştirakı təmin olunmalıdır.

Müraciətlərin təhlili təcrübəsi göstərir ki, icra tədbirlərinin həyata keçirilməsində mövcud çətinliklər bəzən borclunun olduğu yerin müəyyən edilməməsi ilə bağlı olur. Bu zaman yerli icra qurumu tərəfindən borclunun axtarılması barədə qərar qəbul edilərək polis orqanlarına göndərilsə də, bəzən axtarış tədbirləri həyata keçirilmir və ya bu tədbirlər gecikdirilir. Həmin şikayətlərlə əlaqədar Ombudsman tərəfindən aidiyyəti üzrə ünvanlanmış sorğular əsasında borclunun yeri müəyyən olunaraq, yerli icra qurumuna təhvil verilmiş, icra tədbirləri davam etdirilmiş və bir sıra hallarda tələb təmin olunmuşdur.

Bu kimi halların qarşısının alınması məqsədilə aidiyyəti qurumlar arasında funksional əlaqələndirmə lazımi səviyyədə təşkil edilməli, məhkəmə qərarlarının icrası mexanizmləri təkmilləşdirilməli, zəruri təsir vasitələri effektiv olmalı, məhkəmə qərarlarının icrasına nəzarət gücləndirilməlidir.

***Hüquqi yardım almaq hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq, o cümlədən səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxs tutulduğu və ya barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşə və konfidensial ünsiyyət saxlaya bilər. Hüquqi yardım istədiyini bildirən tutulmuş və ya həbs edilmiş şəxs hüquqi yardımı almayanadək dindirilməməli və ya onun dindirilməsi vəkilin iştirakı olmadan davam etdirilməməlidir.

Saxlanılan şəxslərin hüquqi yardım almaq və vəkillə görüşmək hüququ həmin şəxslərin pis rəftardan müdafiəsinin əsas təminatlarındandır. Ombudsmanın preventiv mexanizm funksiyalarının icrası məqsədilə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlama yerlərində həyata keçirilmiş başçəkmələr zamanı saxlanılan şəxslərin həmin müəssisələrdə hüquq və azadlıqlarının təmini vəziyyəti ilə yanaşı, müdafiəçisi ilə görüşmək hüququnun təmin olunmasına şərait yaradılması məsələləri araşdırılmış və müəssisələrin rəhbərlərinə tutulan, həbs edilən və ya məhkum edilən şəxslərə hüquqi yardımın göstərilməsi üçün vəkil ilə ləyaqətli şəraitdə təklikdə görüşmək və konfidensial ünsiyyətin saxlanılması üçün lazımi şəraitin yaradılması tövsiyə olunmuşdur.

Ombudsman əhalinin peşəkar hüquqi yardımla təmin edilməsi və bununla da hüquq və azadlıqların daha etibarlı müdafiəsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də maarifləndirmə işinin təşkili istiqamətində Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası ilə əməkdaşlığı 2025-ci ildə də davam etdirmişdir.

**Ərizəçi M (87-2025).** Ombudsmanın təşkilatçılığı ilə keçirilən "Açıq qapı" aksiyasında müraciət edərək ərindən faktiki olaraq ayrı yaşadığını, ərinin azyaşlı övladının saxlanılması üçün heç bir maddi yardım etmədiyini, aliment almaq üçün ilkin mediasiya sessiyasında iştirak etdiyini, məhkəməyə müraciət etmək istədiyini bildirmiş, ona hüquqi yardımın göstərilməsini xahiş etmişdir.

Aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasının üzvü olan vəkil tərəfindən ərizəçiyə hüquqi məsələlərə dair məsləhətlər verilmiş və ödənişsiz keyfiyyətli hüquqi yardım göstərilmişdir.

**Ərizəçi M (91-2025).** Ombudsmana müraciət edərək nikahına xitam verildiyini, onunla birgə yaşayan övladlarını xarici ölkəyə aparmaq istədiyini, lakin keçmiş ərinin buna razılıq vermədiyini bildirmiş, bu məsələdə ona köməklik göstərilməsini xahiş etmişdir. Müvafiq qurumlarla əməkdaşlıqdan sonra ərizəçiyə hüquqi yardım göstərilərək tələbi təmin edilmişdir.

Hüquqi yardım almaq üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hüquqi yardımın göstərilməsi həmin şəxslərin hüquq və azadlıqlarının səmərəli müdafiəsinə şərait yaratmaqla yanaşı, ədalət mühakiməsinin daha effektiv həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

***Hüquq və azadlıqların inzibati təminatı.*** Ölkə konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsi ilə yanaşı, inzibati qaydada müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada şikayət edə bilər.

Ombudsmana ünvanlanmış şikayətlərin təhlili göstərir ki, müvafiq sahədə müraciətlər əsasən, fərdi yaşayış evlərinə elektrik və qaz xəttlərinin çəkilməməsi, elektrik sayğaclarının quraşdırılmaması, qanunsuz olaraq saxlanılmış nəqliyyat vasitələrinin mühafizə olunan duracaqdan çıxarılmaması, nəqliyyat vasitələrinə dövlət qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməməsi, müddətli həqiqi hərbi xidmətə yararsız hesab edilməyərək çağırışa möhlət verilməməsi, "Müharibə veteranı" adlarının və vəsiqələrinin verilməməsi, torpaq, yol, su problemlərinin həll olunmaması və bu kimi digər məsələlərlə bağlı olmuşdur.

Müraciətlərin araşdırılması zamanı dövlət orqanları, bələdiyyələr və digər qurumlarla əməkdaşlıq davam etdirilmiş, insan hüquqlarının pozulması ilə bağlı müvafiq hallar aşkar edildikdə, bu pozuntuların qarşısının alınması və hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi M (03-2025).** Ombudsmana müraciət edərək təsərrüfatla məşğul olduğunu, Kəngərli rayonu, Qıvraq qəsəbəsində hər il bələdiyyənin balansında olan 2 hektar torpaq

sahəsini müqavilə əsasında icarəyə götürərək taxıl əkdiyini, icarə haqqı olaraq 100 manat ödəniş etdiyini, buna baxmayaraq bələdiyyə tərəfindən əkin subsidiyasının ona verilmədiyini bildirmiş, subsidiyanı almasına köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar aidiyyəti qurumlara müraciətlərdən sonra ərizəçiyə subsidiya ödənişi həyata keçirilmişdir.

**Ərizəçi H (56-2025).** Ombudsmana müraciət edərək nəqliyyat vasitəsinin daimi uçotunun aparılması, qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi üçün Dövlət Yol Polis İdarəsinə müraciət etdiyini, lakin heç bir əsas olmadan sənədlərinin geri qaytarıldığını bildirmiş, məsələnin araşdırılmasında və qanunamüvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə əlaqədar tərəfimizdən aidiyyəti dövlət orqanına müraciət olunduqdan sonra ərizəçinin nəqliyyat vasitəsi Dövlət Yol Polisi İdarəsində qeydiyyata alınmış və nəqliyyat vasitəsinə dövlət qeydiyyat nişanı verilmişdir.

**Ərizəçi B (94-2025).** Ombudsmana müraciət edərək Babək rayonu, Payız kəndində fərdi yaşayış evinə verilən suyun dayandırıldığını, bu barədə dəfələrlə Babək Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinə etdiyi müraciətinə etinasız yanaşıldığını, eyni məsələ ilə bağlı Babək Rayon İcra Hakimiyyətinə və Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinə etdiyi müraciətlərinin nəticəsiz qaldığını, bu səbəbdən normal həyat şəraitinin və sağlamlığının pozulduğunu bildirmiş, evinə gələn su xəttinin bərpa olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Tərəfimizdən aidiyyəti dövlət orqanlarına müraciət olunduqdan sonra suqəbuledici qurğunun səmərəliliyinin artırılması məqsədilə çöküntü və lil qatları təmizlənmiş, suyun tənzimlənməsi üçün siyirtmələr quraşdırılaraq ərizəçinin fərdi yaşayış evinə içməli suyun verilməsi təmin olunmuşdur.

**Ərizəçi İ (123-2025).** Ombudsmana müraciət edərək azyaşlı övladları ilə birlikdə Şərur rayonu, Şəhriyar kəndində yaşadığını, fərdi yaşayış evinə gələn elektrik xəttində nasazlıq olduğunu, bununla bağlı dəfələrlə Şərur Rayon Elektrik Şəbəkəsinə müraciət etsə də, müraciətinə baxılmadığını bildirmiş və evinə gələn elektrik xəttinin təmir edilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı "Azərişıq" ASC-nin Naxçıvan Regional Enerji Təchizatı və Satışı İdarəsinə müraciət olunduqdan sonra Şərur Elektrik Şəbəkəsinin əməkdaşları tərəfindən ərizəçinin evinə gələn elektrik xəttinə baxış keçirilərək yaranmış nasazlıq aradan qaldırılmışdır.

**Ərizəçi Ə (66-2025).** Ombudsmanın təşkilatçılığı ilə Kəngərli rayonunda keçirilmiş "Açıq Qapı" aksiyasında müraciət edərək əmək pensiyaçısı olduğunu, maddi imkanının aşağı olması səbəbindən istifadə etdiyi qazın dəyərini bir neçə ay vaxtında ödəmədiyi üçün qazın verilməsinin dayandırıldığını və qaz sayğacında nasazlığın yarandığını bildirmiş, bu məsələdə ona köməklik göstərilməsini xahiş etmişdir. Tərəfimizdən Kəngərli Rayon İcra Hakimiyyəti ilə qarşılıqlı əməkdaşlıq edilmiş və vətəndaşın məsələsi müsbət istiqamətdə həll olunmuşdur.

**Ərizəçi R (149-2025).** Ombudsmana müraciət edərək restoranda işlədiyi müddətdə restoranın sahibinin sosial şəbəkədə videosunun yayıldığını, həmin şəxsin videonun

paylaşılması ilə bağlı ondan şübhələndiyi üçün şikayəti əsasında Naxçıvan Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən İdarəyə aparıldığını, polis əməkdaşları tərəfindən mobil telefonlarının götürüldüyünü, barəsində hər hansı icraatın başlanmamasına baxmayaraq telefonlarının ona geri qaytarılmadığını bildirmiş, məsələnin araşdırılmasını və qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti araşdırılaraq hüquq pozuntusu faktı aşkar olunmuş, tərəfimizdən Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra görülmüş zəruri tədbirlər nəticəsində ərizəçinin mobil telefonları ona geri qaytarılaraq hüquq pozuntusu aradan qaldırılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən şəxsiyyətin şərəf və ləyaqəti dövlət tərəfindən qorunur, heç bir hal şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

Şərəf və ləyaqətin qorunması, hər bir insanın hüquqlarının əsas hissəsi olaraq hüquqi və etik baxımdan böyük əhəmiyyət kəsb edir. Şərəf və ləyaqət, insanların şəxsi və sosial həyatlarında yüksək qiymətləndirilən dəyərlərdir. Bu, insanın etibarı, cəmiyyətdəki nüfuzu, xarakteri və qiyməti ilə bağlıdır. İnsanların şərəf və ləyaqətinin qorunması həm hüquqi, həm də etik baxımdan mühafizə olunur.

Şərəf və ləyaqətin qorunması, həm fərdi hüquqların, həm də cəmiyyətin ümumi əxlaq normalarının qorunması baxımından əhəmiyyətlidir. Cəmiyyətin bu məsələyə verdiyi önəm, həm də sosial ədalət və insan hüquqlarının təmin edilməsində əsas rol oynayır.

***İnformasiya əldə etmək hüququ.*** İnformasiya əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə reallaşdırılması bütün sahələrdə aşkarlığın və şəffaflığın təmin olunmasına, insan hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsinə şərait yaradır.

Azərbaycan Respublikasının Konstitusiyasında və insan hüquqlarına dair beynəlxalq sənədlərdə informasiya əldə etmək hüququ hər kəsin istənilən məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığını ehtiva edir.

İnformasiya azadlığı insan hüquq və azadlıqlarının təminatçısı olan cəmiyyətin mühüm xüsusiyyətidir və cəmiyyətdə baş verən dinamik proseslərdən xəbər tutmaq vətəndaşların əsas ehtiyaclarından olduğundan informasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun icrasına nəzarəti həyata keçirən Ombudsman bu hüququn təmini, müdafiəsi və maarifləndirmə işinin təşkili, habelə monitorinq və təhlilin aparılması istiqamətində geniş fəaliyyət həyata keçirməklə informasiya əldə etmək hüququnun daha səmərəli təmininə, informasiya cəmiyyətinin qurulmasına və açıq hökumətin təşviqinə istiqamətlənmiş islahatlara dəstək verir.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına 1 şikayət daxil olmuş, şikayətdə əks

olunmuş halların araşdırılması zamanı informasiya sahibi tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilib-edilməməsi aydınlaşdırılmış və informasiya sorğusunun qanunla nəzərdə tutulmuş qaydada və müddətdə təmin edilmədiyi müəyyən olunmuş, informasiya sahibindən pozuntunun aradan qaldırılması tələb olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 13-1.2-ci maddəsinə görə şikayət konkret informasiya sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin fəaliyyəti barəsində olmadıqda, həmin iş üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda, habelə ərizəçi informasiya sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin informasiya əldə etmək üçün yaratdığı imkanlardan kifayət qədər səmərəli istifadə etmədikdə Ombudsman şikayətə baxmır.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və onun Aparat rəhbəri İnzibati Xətalar Məcəlləsinin 371 – 374, 381.2, 381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyətinə malikdir.

Hesabat dövründə qeyd olunan hallarla bağlı inzibati xəta haqqında protokol tərtib olunmamış, informasiya sahibləri barəsində inzibati tənbeh tədbirlərinin tətbiqinə dair qərar qəbul edilməmişdir.

İnformasiya əldə etmək hüququnun təbliği, bu hüquqla bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Şərur Rayon İcra Hakimiyyətində, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində, Naxçıvan Dövlət Texniki Kollecində maarifləndirmə tədbirləri həyata keçirilmiş, informasiya sahibi olan dövlət orqanlarının, bələdiyyələrin və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun pozulması ilə əlaqədar daxil olan müraciətlərə baxılması və cavablandırılması barədə iştirakçılara məlumat verilmişdir. Ümumilikdə, informasiya sahəsində hüquq və azadlıqların təmin edilməsi məqsədilə keçirilmiş tədbirlərdə 185 nəfər iştirak etmişdir.

***Müraciət etmək hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır**.** Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Müraciətlərin analitik təhlili zamanı müəyyən olunan problemlərdən biri də aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması, həmçinin yazılı cavab verilməməsidir. Müvəkkilə ünvanlanmış bu müraciətlər qanunamüvafiq qaydada araşdırılmış, hərəkət və ya hərəkətsizliyi nəticəsində vətəndaşların hüquqlarını pozan dövlət orqanlarından müvafiq

tədbirlərin görülməsi tələb edildikdən sonra hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

**Ərizəçi İ (63-2025).** Ombudsmana müraciət edərək yaşa görə əmək pensiyası almaq hüququnun yarandığını, bu məqsədlə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciət etsə də, fərdi hesabında tələb olunan pensiya kapitalının və 25 il sığorta stajının olmaması əsas gətirilərək ona əmək pensiyasının təyin olunmasından imtina edildiyini, 2016, 2017 və 2018-ci illərdə sadələşdirilmiş vergi ödəyicisi kimi qeydiyyatda dayanaraq vergi (vergilər) ödəsə də, həmin illərin sosial sığorta stajına daxil edilmədiyini, bu işlə əlaqədar məhkəmədə iddia qaldırdığını, inzibati mübahisəyə dair məhkəmə icraatında Fondun Kəngərli Rayon Şöbəsinin məsuliyyətsizliyi ucbatından ödədiyi vergi qəbzlərində başqa şəxsin adının qeyd edildiyi məlum olduğundan həmin sənədlərin mülki iş kimi məhkəmə qaydasında baxılmasına zərurət yarandığını, bu işlə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna dəfələrlə yazılı müraciət etsə də, müraciətinə yazılı cavab verilmədiyi üçün işin məhkəmədə baxılmasının mümkünsüz olduğunu bildirmiş və yazılı müraciətinə cavab verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı vətəndaşın müraciət etmək hüququnun pozulduğu, qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə müraciətinə baxılmadığı müəyyən olunmuş, Ombudsman tərəfindən quruma müraciət olunduqdan sonra poçt vasitəsilə ərizəçiyə yazılı cavab verilmişdir.

**Ərizəçi Ə (115-2025).** Ombudsmana müraciət edərək Şahbuz qəsəbə icra nümayəndəsinin müvafiq sərəncamı ilə yaradılmış komissiya tərəfindən atasına torpaq sahəsinin verildiyini, bu halın Şahbuz Rayon Dövlət Arxivinin arayışı ilə təsdiq edildiyini, 2011-ci ilədək həmin torpaq sahəsindən əkin üçün istifadə etdiklərini, Şahbuz bələdiyyəsinin qərarı ilə həmin torpaq sahəsinin qanunsuz olaraq digər mülkiyyətçinin istifadəsinə verildiyini, pozulmuş mülkiyyət hüququnun bərpa olunması məqsədilə anasının inzibati icraatla bağlı Şahbuz bələdiyyəsinə yazılı müraciət etdiyini, lakin 4 ay keçməsinə baxmayaraq müraciətinə cavab verilmədiyini bildirmiş və qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti araşdırılaraq hüquq pozuntusu faktı aşkar olunmuş, Ombudsman tərəfindən pozuntu faktının aradan qaldırılması üçün bələdiyyəyə müraciət olunduqdan sonra ərizəçiyə yazılı cavab verilmişdir. Vətəndaş Ombudsmana ərizə ünvanlayaraq hüquqları müdafiə olunduğuna görə təşəkkürünü bildirmişdir.

**Ərizəçi M (145-2025).** Ombudsmana müraciət edərək nəvəsinin 2022-ci ildən "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsinin Endokrinoloji xəstəliklər şöbəsində şəkərli diabet xəstəliyi üzrə I tip ağır formada, insulindən asılı "hiperqlikemik koma" diaqnozu ilə dispanser qeydiyyatında olduğunu, ona 18 yaşınadək əlilliyə görə müavinətin təyin edildiyini, nəvəsinin 18 yaşı tamam olduğundan müavinətin

ödənişinin dayandırıldığını, nəvəsinin əlilliyinin yenidən qiymətləndirilməsi ilə bağlı tibbi-sosial ekspertiza müayinəsinə göndərişin verilməsi üçün "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsində fəaliyyət göstərən həkim-məsləhət komissiyasına yazılı formada müraciət etdiyini, lakin müraciətinə baxılmadığını və cavab verilmədiyini bildirmiş, həkim-məsləhət komissiyasına etdiyi yazılı müraciətinin cavablandırılmasını, həmçinin komissiya tərəfindən göndərişin verilməsi və ya verilməsindən imtina barədə qəbul edilmiş qərarın cavab məktubuna əlavə olunmasını xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı hüquq pozuntusu aşkar edilmiş, pozulmuş hüququn bərpası məqsədilə yuxarı qurum olan Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə müraciət olunduqdan sonra göndərişin verilməsindən imtina barədə qəbul edilmiş qərarla birlikdə ərizəçiyə yazılı cavab göndərilmişdir.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər. Müraciətə baxan subyektlərin vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə baxarkən müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat verməli, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərməli, şikayət vermək qaydasını izah etməlidirlər.

Həmin Qanunun 14-cü maddəsinə əsasən müraciətinə baxılan vətəndaşın müraciətinə baxılmasının nəticəsi barədə yazılı cavab almaq hüququ vardır.

Qanunvericiliyin qeyd olunan müddəalarından aydın olur ki, vətəndaşların müraciətlərinə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalı, müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara gecikdirilmədən yazılı cavab verilməlidir. Belə ki, vətəndaşların müraciətlərinə cavab verilməməsi və ya heç bir əsas olmadan gecikdirilərək cavab verilməsi onların müraciət etmək hüququnu əhəmiyyətsiz edir.

Müraciətlərə baxılmasının nəticəsi barədə onlara yazılı formada məlumat verilməməsi, həmçinin müraciət təmin edilmədikdə bunun səbəblərinin göstərilməməsi və şikayət vermək qaydasının izah edilməməsi ciddi hüquq pozuntusudur və məsuliyyətə səbəb olur.

Vətəndaşların müraciətinə əsaslandırılmış cavabın verilməməsi, həmçinin inzibati orqanların hərəkətsizliyi nəticəsində inzibati aktın qəbul edilməsi və ya onun qəbul edilməsindən imtina olunması haqqında qərarın qəbul edilməməsi onların müraciət etmək, hüquq və azadlıqların inzibati və məhkəmə təminatı kimi konstitusion hüquqlarının ciddi pozuntusu olduğundan bu hallar aradan qaldırılmalı və qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə müvafiq qərar qəbul edilməlidir.

***Seçki hüququ.*** Demokratik cəmiyyətlərin əsasını təşkil edən seçki hüququ vətəndaşların siyasi proseslərdə bilavasitə iştirakının təmin olunmasında əsaslı rola malikdir. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Məlum olduğu kimi, 2025-ci il Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin keçirilməsi ilə əlamətdar olmuşdur. Seçkilərin keçirilməsi ərəfəsində seçki

hüququ ilə bağlı müxtəlif mövzularda silsilə maarifləndirmə tədbirləri təşkil olunmuş, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinə riayət olunması məsələləri dəyərləndirilmişdir.

Ölkəmizin Konstitusiyasında və respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş vətəndaşların seçki hüququnun təmin edilməsi Ombudsmanın diqqət mərkəzində olmuşdur.

Bələdiyyə seçkiləri günü Ombudsman və təsisatın əməkdaşları Naxçıvan şəhəri və rayonlarda 6 seçki dairəsi üzrə 97 seçki məntəqəsində, o cümlədən hərbi hissələrdə və penitensiar müəssisələrdə müstəqil olaraq öz təşəbbüsləri ilə müşahidələr aparmışlar.

Müşahidələr zamanı Ombudsman həm məntəqə seçki komissiyalarının üzvləri, həm də müşahidəçi və seçicilərlə bilavasitə görüşmüş, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrənmiş, pozuntu halları və seçkilərə müdaxilə halları müşahidə edilməmişdir.

Ombudsman muxtar respublikanın müxtəlif bölgələrində səsvermə prosesində müşahidəçi qismində iştirak edən, eyni zamanda seçki hüququnun təmin edilməsi vəziyyətinin monitorinqini həyata keçirən təsisatın əməkdaşlarından mütəmadi olaraq məlumatlar almış, seçki prosesini və seçicilərin hüquqlarının təmini ilə bağlı vəziyyəti diqqətdə saxlamışdır.

Monitorinqlər göstərmişdir ki, əlilliyi olan, yaşlı və müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin seçki hüququnun həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərindən irəli gələn şərait yaradılmışdır.

Seçkilərin keçirildiyi müddətdə seçki hüququnun pozulması ilə bağlı Ombudsmanın ünvanına şikayət və müraciət daxil olmamış, vətəndaşların seçki hüququ qanunvericiliyin tələblərinə müvafiq qaydada təmin edilmişdir.

Muxtar respublikada həyata keçirilmiş seçkilər demokratik, azad, şəffaf, ədalətli, seçki qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş qaydada keçirilmiş, ölkəmizin demokratik hüquqi dövlət quruculuğu və insan hüquqlarının təmin edilməsi prinsiplərinə sadiq olduğu nümayiş etdirilmişdir.

## 1.2 İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi

***Əmək hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Əmək hüququ, əmək münasibətlərini tənzimləyən hüquq sahəsidir və işçi ilə işəgötürən arasındakı münasibətləri, onların hüquq və vəzifələrini müəyyən edir. Hər bir insanın əmək hüququ öz yaşayışını təmin etmək məqsədilə qazanc əldə etmək, sərf edəcəyi əməyin formasını və ya növünü azad surətdə seçmək, habelə əsassız olaraq işdən azad edilmədən müdafiə imkanlarını özündə birləşdirir.

Əmək hüququ sosial ədalətin və iqtisadi inkişafın əsas elementlərindən biri olmaqla, insanların fərdi və ictimai rifahının təmin edilməsində və cəmiyyətin davamlı inkişafında mühüm rol oynayır. Bu hüquq işçilərin sosial-iqtisadi maraqlarının qorunmasını, ədalətli, bərabər və təhlükəsiz əmək şəraitinin yaradılmasını, habelə onların peşəkar inkişafının təmin edilməsini nəzərdə tutur. Bu hüququn səmərəli təmini ölkədə sosial sabitliyi və iqtisadi inkişafı şərtləndirir.

Hesabat dövründə əmək hüquqları ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlərdə qanunvericiliyin tələbləri pozulmaqla işdən azad edilmə, əmək müqaviləsində göstərilən əmək haqqının və məzuniyyət pulunun ödənilməməsi, son haqq-hesabın düzgün hesablanmaması və ya ödənilməməsi, əmək müqaviləsinin "Əmək və Məşğulluq" altsistemində qeydiyyata alınmaması, iş vaxtından artıq, gecə vaxtı, iş günü hesab edilməyən bayram günləri görülən işə görə əməkhaqqının ödənilməməsi, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan əlilliyi olan şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların verilməməsi, məşğulluğun təmin olunmaması və bu kimi digər məsələlər öz əksini tapmışdır. Həmin şikayətlər üzrə aparılmış araşdırmalar zamanı pozulmuş əmək hüquqlarının bərpası istiqamətində qanunamüvafiq tədbirlər görülmüşdür. Həmin müraciətlər üzrə yuxarı dövlət orqanlarına, o cümlədən əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciətlər ünvanlanmış, bir sıra hallarda aşkar olunmuş pozuntu faktları ilə əlaqədar işəgötürənlərə icrası məcburi göstərişlər verilmişdir.

**Ərizəçi R (29-2025).** Ombudsmana müraciət edərək 42 il pedaqoji fəaliyyətlə məşğul olduğunu, Babək rayonu Qahab kənd tam orta məktəbində direktor vəzifəsində işlədiyi zaman Babək Rayon Təhsil Şöbəsi tərəfindən əmək müqaviləsinin "Əmək və Məşğulluq" altsistemində qeydiyyata alınmadığını, bu məsələ ilə bağlı Babək Rayon Təhsil Şöbəsinə dəfələrlə müraciət etdiyini, lakin nəticəsinin olmadığını bildirmiş və əmək müqaviləsinin "Əmək və Məşğulluq" altsistemində qeydiyyata alınmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətində qeyd etdiyi halların araşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə sorğular göndərilmiş, Dövlət Əmək Müfəttişliyi Xidməti ilə qarşılıqlı əməkdaşlıq edilməklə,

ərizəçinin pozulmuş əmək hüququ bərpa olunaraq əmək müqaviləsi geri tarixə altsistemdə qeydiyyata alınmışdır.

**Ərizəçilər Kol (22-2025).** Ombudsmana kollektiv müraciət edərək ştatların ixtisarı ilə əlaqədar əmək müqavilələrinə xitam verildiyini, işəgötürən tərəfindən onlara əmək müqavilələrinə xitam verilməsi ilə əlaqədar müvafiq pul təminatlarının verilməsi barədə əmr imzalandığını, lakin həmin pul təminatlarının, həmçinin istifadə etmədikləri əmək məzuniyyətinə görə kompensasiyaların ödənilmədiyini və dövlət orqanında ehtiyat kadr kimi saxlanılmadıqlarını, bu məsələ ilə bağlı müəssisəyə müraciət etdiklərini, lakin heç bir nəticənin olmadığını bildirmiş, müraciətdə qeyd olunan məsələnin araşdırılmasını və pozulmuş əmək hüquqlarının bərpa olunması üçün zəruri tədbirlərin görülməsinə köməklik göstərilməsini xahiş etmişdirlər.

Müraciətin araşdırılması zamanı hüquq pozuntusu aşkar edilmiş, tərəfimizdən aidiyyəti üzrə müraciət olunduqdan sonra ərizəçilərə əmək məzuniyyəti verilməyən illər üzrə kompensasiya və işdənçıxarma müavinətləri ödənilmiş, həmçinin onlar dövlət orqanında ehtiyat kadr kimi saxlanılmışdır.

**Ərizəçi A (28-2025).** Ombudsmana müraciət edərək "Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası" publik hüquqi şəxsində işlədiyini, əmək münasibətlərində ona qarşı ayrı-seçkiliyə yol verildiyini bildirmiş, məsələnin araşdırılmasını və qanunamüvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Tərəfimizdən yuxarı dövlət orqanına müraciət olunduqdan sonra qanunamüvafiq qaydada tədbirlər görülmüş, ərizəçi yenidən Ombudsmana müraciət edərək heç bir şikayətinin olmadığını bildirmişdir.

"İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin 7-ci və 23-cü maddələrinə əsasən bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanlar, hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər.

Əmək qanunvericiliyinə əsasən əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, etnik mənsubiyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, mənşəyinə, yaşına, ailə vəziyyətinə və ailə vəzifələrinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı birbaşa və dolayı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır.

**Ərizəçi R (36-2025).** Ombudsmana müraciət edərək arvadının Babək rayonu Cəhri Qəsəbə Ailə Sağlamlıq Mərkəzində tibb bacısı vəzifəsində işlədiyini, lakin öz razılığı olmadan vəzifəsindən azad edilərək texniki işçi kimi yenidən işə götürüldüyünü, arvadının əvvəlki işinə geri qaytarılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə və digər dövlət orqanlarına müraciət etdiyini, lakin heç bir nəticənin olmadığını, özünün işsiz olduğunu, əlilliyə görə əmək pensiyası aldığını, ailəsinin maddi vəziyyətinin pis olduğunu bildirmiş, arvadının pozulmuş əmək hüququnun bərpa olunmasına və əvvəlki işinə geri qaytarılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti qanunamüvafiq qaydada araşdırılmış, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə müraciət olunduqdan sonra ərizəçinin arvadı əvvəlki işinə bərpa olunmuşdur.

Əmək qanunvericiliyinin tələblərinə əsasən, əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı, istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir. Qeyd olunanlara baxmayaraq, bir sıra hallarda qanunvericiliyin bu tələblərinin işəgötürənlər tərəfindən pozulması faktları müəyyən edilmiş, görülmüş tədbirlər nəticəsində hüquqların bərpası təmin olunmuş, lakin bəzi hallarda bu mümkün olmamışdır.

**Ərizəçi S (31-2025).** Ombudsmana müraciət edərək 2019-cu ildən Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində (indiki adı Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidməti) laborant vəzifəsində işlədiyini, 2020-ci ilin əvvəlində ona hamiləliyə və doğuşa görə ödənişli sosial məzuniyyət verildiyini, məzuniyyətinin müddəti bitdikdən sonra əvvəlki işinə geri qaytarılmadığını, bu məsələ ilə bağlı Səhiyyə Nazirliyinə dəfələrlə şifahi və yazılı formada müraciət etdiyini, ona əvvəlki işinə bərpa olunacağı bildirilsə də, heç bir nəticənin olmadığını və süründürməçiliyə məruz qaldığını qeyd etmiş, pozulmuş əmək hüququnun bərpa edilərək əvvəlki işinə geri qaytarılmasına və ya ixtisasına uyğun başqa işlə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətə dair mülahizələrin alınması və araşdırmanın aparılması məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə verilmiş sorğuya cavab olaraq ərizəçinin sosial məzuniyyətdə olan başqa işçinin yerinə müvəqqəti olaraq vəzifəyə təyin edildiyi, ərizəçinin hamiləliyə və doğuşa görə sosial məzuniyyətə buraxıldığı, digər işçinin isə qismən ödənişli sosial məzuniyyətdən geri qayıtdığı üçün ərizəçinin işə geri qaytarılmadığı bildirilmişdir.

Müraciətin araşdırılması zamanı zəruri sənəd kimi ərizəçinin işə qəbul, məzuniyyətin verilməsi və əmək müqaviləsinə xitam verilməsi barədə əmrlərin surətləri yuxarı dövlət orqanından alınmış, sənədlərə baxış zamanı ərizəçiyə eyni tarixli, eyni nömrəli əmrlə sosial məzuniyyət verildiyi, eyni zamanda əmək müqaviləsinə xitam verildiyi, beləliklə əmək qanunvericiliyinin ciddi və kobud pozuntusuna yol verildiyi müəyyən edilmişdir.

Ərizəçinin pozulmuş əmək hüququnun bərpa olunması məqsədilə tərəfimizdən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə edilmiş müraciətə cavab olaraq ləğv edilmiş Gigiyena və Epidemiologiya Mərkəzinin yerinə yaradılmış Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidmətinin strukturunda epidemioloq köməkçisi vəzifəsi üzrə vakant yerin olmadığı bildirilmiş, nəticədə qurum tərəfindən ərizəçinin pozulmuş əmək hüququnun bərpası məqsədilə heç bir qanunamüvafiq tədbir görülməmişdir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 73-cü maddəsinə əsasən müddətli əmək müqaviləsinin müddətinin bitməsinə azı bir həftə qalmış tərəflərdən heç biri digər tərəfi müddətin bitməsinə görə müqaviləyə xitam verilməsi barədə yazılı formada (kağız

daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) xəbərdar etməzsə, həmin əmək müqaviləsi əmək müqaviləsində göstərilən müddətə uzadılır.

İşçinin müəyyən üzrlü səbəbdən (məzuniyyətdə olması) iş yerində olmadığı dövrdə müddətli əmək müqaviləsinin müddəti qurtardığı hallarda həmin müqaviləyə qanunvericilikdə nəzərdə tutulmuş qaydada xəbərdar edilmişdirsə, işçi işə çıxdığı gün işəgötürən tərəfindən xitam verilə bilər.

Bu Məcəllənin 83-cü maddəsində qeyd olunur ki, istər işçi, istərsə işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir. Müvafiq əmr (sərəncam, qərar) işəgötürən tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Əmrin surəti işçinin əmək kitabçası ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir.Əmək müqaviləsinə xitam verilmiş işçiyə son haqq-hesab (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əməkhaqqı və digər ödəmələr) sonuncu iş günü ödənilməlidir.

Bununla yanaşı, bu Məcəllənin 83-cü maddəsinə əsasən bütün növ məzuniyyətlərin verilməsi işçinin yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) ərizəsi əsasında işəgötürənin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilir.

İşəgötürən məzuniyyətlərin verilməsinin uçotunu dürüst və vaxtında aparmağa borcludur. Məzuniyyətlərin verilməsinin uçotu işçilərin iş illəri, məzuniyyətlərin növləri, müddətləri, verildiyi vaxt və müvafiq əmrin (sərəncamın, qərarın) nömrəsi, tarixi göstərilməklə aparılmalıdır.

Qanunvericiliyin qeyd olunan müddəalarının təhlili göstərir ki, istər əmək müqaviləsinə xitam verilməsi, istərsə də işçiyə məzuniyyətin verilməsi işəgötürənin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir. Eyni tarixli, eyni nömrəli əmrlə həm məzuniyyətin verilməsi, eyni zamanda əmək müqaviləsinə xitam verilməsi əmək qanunvericiliyinin tələblərinin pozulmasına səbəb olur.

Ombudsman iş yerlərində işçilərin hüquqlarının və qanuni mənafelərinin etibarlı müdafiəsini, pozulmuş hüquqların bərpası üçün müvafiq tədbirlərin görülməsini, əmək qanunvericiliyinin və digər normativ-hüquqi aktların tələblərinə ciddi şəkildə əməl olunmasına nəzarətin gücləndirilməsini zəruri hesab edir.

***Sosial təminat hüququ.*** Əhalinin, xüsusilə həssas qrupların hüquqlarının müdafiəsi, onların rifah halının getdikcə yaxşılaşması, yoxsulluğun səviyyəsinin daha da azalması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Dövlətin sosial funksiyası ilə birbaşa bağlı olan sosial təminat hüququ insanın əsas hüquq və azadlıqlarından biri kimi, hər bir şəxsin layiqli həyat səviyyəsinə nail olmasına, sosial ədalətin qorunmasına və bərabər imkanların yaradılmasına xidmət edir və dövlətin iqtisadi inkişafından asılı olaraq realizə edilir.

Əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması, vətəndaşların ünvanlı dövlət sosial yardımından asılılığının aradan qaldırılması muxtar respublikada sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasında ehtiva olunmuş bu hüquqdan özünü saxlamaq qabiliyyətindən məhrum olmuş, yaxud başqalarına nisbətən cəmiyyətdə daha çox sosial müdafiəyə ehtiyacı olan şəxslər öz yaşayışlarını təmin etmək üçün yararlanırlar.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlərdə pensiya təminatı hüququnun həyata keçirilməməsi, sosial müavinətlərin, o cümlədən ünvanlı dövlət sosial yardımının təyin olunmaması, sosial sığorta haqlarının fərdi şəxsi hesaba əlavə edilməməsi, özünüməşğulluq proqramına cəlb olunma ilə bağlı müraciətlərin nəticəsiz qalması, əlilliyin müəyyən olunmaması, habelə əlilliyi olan şəxslərin mənzillə, minik avtomobili və təkərli oturacaqla, reabilitasiya vasitələri ilə təmin edilməsi ilə bağlı mövcud problemlər, habelə birdəfəlik maddi yardım verilməsində köməklik göstərilməsi və digər məsələlər öz əksini tapmışdır. Şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində hüquq pozuntularının aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

**Ərizəçi M (138-2025).** Ombudsmana müraciət edərək Babək rayonu Nehrəm Qəsəbə Ailə Sağlamlıq Mərkəzində işlədiyini, 02.06.2025-ci il tarixdə hamiləliyə və doğuşa görə məzuniyyətə çıxdığını, əkiz uşaqlarının olduğunu, lakin hamiləliyə və doğuma görə müavinətin ödənilmədiyini, dəfələrlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciət etsə də, nəticəsiz qaldığını bildirmiş, hamiləliyə və doğuma görə müavinətin ödənilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı verilmiş sorğulara cavab olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən müavinətin ödənilməsi üçün müvafiq sənədlərin hazırlanaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna təqdim edildiyi və qısa müddət ərzində ödənişin həyata keçiriləcəyi bildirilsə də, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müavinətin ödənilməsi üçün hamiləlik və doğuma görə haqq-hesab cədvəli düzgün tərtib olunmadığından müvafiq səhvlər qeyd olunaraq cədvəlin təsdiqindən imtina edildiyi və geri qaytarıldığı bildirilmişdir.

Ombudsman tərəfindən aidiyyəti qurumlara müraciət olunduqdan sonra hüquq pozuntusu aradan qaldırılmış və bəyannamə Fondun Mərkəzləşdirilmiş elektron informasiya sisteminə emal olunaraq müavinətin ödənişi təmin edilmişdir.

Aztəminatlı ailələrin və əhalinin həssas qruplarından olan şəxslərin sosial təminat hüququnun müdafiəsi dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Bu baxımdan, orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailələrə qanunvericiliklə müəyyən edilmiş qaydada ünvanlı dövlət sosial yardımının verilməsi böyük əhəmiyyət kəsb edir.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi və ödənilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərlə əlaqədar aidiyyəti üzrə sorğular göndərilmiş, bir sıra hallarda görülmüş tədbirlər nəticəsində şikayətlər təmin edilmişdir.

**Ərizəçi İ (122-2025).** Ombudsmana müraciət edərək nikahına xitam verildikdən sonra keçmiş arvadının 4 azyaşlı uşağına baxmadığını və Bakı şəhərinə getdiyini, uşaqlarını tək başına böyütdüyünü, bu səbəbdən heç bir yerdə işləyə bilmədiyini, aztəminatlı ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət

Sosial Müdafiə Fondunun Şərur Rayon Şöbəsinə müraciət etdiyini, ailəsinin maddi-məişət şəraitinin müayinəsinin aparıldığını, lakin heç bir nəticənin olmadığını bildirmiş və maddi vəziyyəti nəzərə alınaraq ailəsinə ünvanlı dövlət sosial yardımının verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin Nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" altsisteminə (VEMTAS) daxil etdiyi müraciəti əsasında avtomatlaşdırılmış qaydada ailəsinə bir il müddətinə aylıq 474.53 manat məbləğində sosial yardım təyin olunmuşdur.

**Ərizəçi Ş (52-2025).** Ombudsmana müraciət edərək iki azyaşlı övladının olduğunu, arvadının işləmədiyini, özünün aldığı əməkhaqqının ailəsinin tələbatlarını ödəmədiyini, ünvanlı dövlət sosial yardımının təyin olunması ilə bağlı dəfələrlə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etsə də, nəticəsiz qaldığını, maddi vəziyyətlərinin yaxşı olmadığını bildirmiş, aztəminatlı ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Tərəfimizdən aidiyyəti dövlət orqanına müraciət olunduqdan sonra VEMTAS tərəfindən avtomatlaşdırılmış qaydada ərizəçinin ailəsinə bir il müddətinə aylıq 317,14 manat məbləğində ünvanlı dövlət sosial yardımı təyin olunmuşdur.

Ünvanlı dövlət sosial yardımlarının təyin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin təhlili göstərir ki, bu sahədə çətinliklər mövcuddur. Belə ki, vətəndaşlara sosial yardımın təyin edilməsi üçün "Ünvanlı yardım" (VEMTAS) altsistemi üzərindən elektron qaydada müraciət etməkdə, qeydiyyatdan keçərkən zəruri məlumatları sistemə daxil etməkdə vətəndaşlar bəzi çətinliklərlə üzləşirlər. Nəticədə ailənin maddi-məişət şəraitinin müayinəsi aparılarkən informasiyaların natamam olması səbəbindən sosial yardımın təyin olunmasından imtina edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli, 37 saylı Qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na əsasən sosial yardımın alınması üçün ailəni təmsil edən şəxs Elektron Hökumət İnformasiya Sistemi və ya "e-sosial" internet portalında yerləşdirilmiş "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" elektron xidmətdən istifadə etməklə "Ərizə-bəyannamə"ni dolduraraq VEMTAS altsisteminə göndərir.

Sosial yardımın alınması üçün müraciətlər "Ünvanlı yardım" (VEMTAS) altsistemi tərəfindən 15 (on beş) iş günü müddətində araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır. Müraciətin qəbul olunduğu gün VEMTAS tərəfindən seçilmiş nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun struktur bölmələrinin və ya "DOST" mərkəzlərinin sosial yardım üzrə işçisinə bu Qaydalara uyğun ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması barədə tapşırıq göndərilir. Həmin işçi müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi texniki avadanlıqlar vasitəsilə ailəni təmsil edən şəxsin iştirakı ilə video və foto çəkilişi əsasında ailənin maddi-məişət şəraitinin müayinəsini həyata keçirməli və nəticələrini gücləndirilmiş elektron imza ilə təsdiqləyərək real vaxt rejimində VEMTAS-a ötürməlidir.

Bu Qaydalarda dəqiq müddətin müəyyən olunmasına baxmayaraq, bir çox hallarda ailənin maddi-məişət şəraitinin müayinəsi daha uzun müddətlərdə aparılır ki, bu da sosial yardımın təyin olunmasında ləngimələrə və süründürməçilik hallarına səbəb olur.

Bununla yanaşı, ünvanlı dövlət sosial yardımlarının təyin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş bəzi müraciətlərdə isə hüquq pozuntusu aşkar olunmuş, hüquqların bərpası ilə bağlı aidiyyəti dövlət orqanlarına müraciət olunsa da, heç bir zəruri tədbir görülməmişdir.

**Ərizəçi Ə (71-2025).** Ombudsmanın təşkilatçılığı ilə Sədərək rayonunda keçirilən “Açıq Qapı” aksiyasında müraciət edərək aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımının təyin olunduğunu, qohumuna məxsus nəqliyyat vasitəsini idarə edərək Dövlət Sosial Müdafiə Fondunun əməkdaşları tərəfindən nəqliyyat vasitəsini idarə etməsinin videolentə alındığını, bu səbəbdən ailəsinə təyin edilmiş sosial yardımın dayandırıldığını və sosial yardımın verilməsindən 1 il müddətinə imtina edildiyini bildirmiş və ailəsinin maddi vəziyyəti nəzərə alınaraq ailəsinə yenidən ünvanlı dövlət sosial yardımının təyin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətə dair mülahizələrin alınması və araşdırmanın aparılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş sorğuya cavab olaraq sosial yardım alan ailələrin səyyar monitorinqi zamanı vətəndaşın istifadəsində nəqliyyat vasitəsi müəyyən olunduğundan onun ailəsinə təyin olunan sosial yardımın dayandırıldığı və 1 il müddətinə ailənin sosial yardım almaq hüququnun məhdudlaşdırıldığı bildirilmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin mülkiyyətində yaxud istifadəsində avtonəqliyyat vasitəsinin olub-olmaması ilə bağlı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə verilmiş sorğuya cavab olaraq Dövlət Yol Polis İdarəsində ərizəçinin mülkiyyətində və ya istifadəsində hər hansı bir avtonəqliyyat vasitəsinin qeydiyyatda olmadığı bildirilmişdir.

Müraciətin araşdırılması zamanı icarə və ya digər əşya hüquqlarına dair müqavilə və ya etibarnamə əsasında ərizəçinin mülkiyyətində və ya istifadəsində hər hansı bir avtonəqliyyat vasitəsinin qeydiyyata alınmadığı müəyyən edilmiş, ərizəçinin pozulmuş sosial təminat hüququnun bərpa edilərək ailənin sosial yardım almaq hüququna qoyulan məhdudiyyətin aradan qaldırılması ilə bağlı zəruri tədbirlərin görülməsi və aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımının təyin olunması məsələsinə yenidən baxılması üçün tərəfimizdən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciətlər olunsa da, Nazirlik tərəfindən qeyd olunanlar nəzərə alınmadan müraciətlərə eyni məzmunlu cavablar verilərək ərizəçinin pozulmuş sosial təminat hüququnun bərpa olunması istiqamətində heç bir müvafiq tədbir görülməmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152-ci maddəsinə əsasən mülkiyyət hüququ subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. İstifadə hüququ əmlakdan (əşyadan) fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Həmin Məcəllənin 153.3-cü maddəsinə əsasən əmlakın fiziki və ya hüquqi şəxsin mülkiyyətində, Azərbaycan Respublikasının və ya bələdiyyələrin mülkiyyətində olmasından asılı olaraq əmlaka mülkiyyət hüququnun, əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququnun əldə edilməsi və ona xitam verilməsi xüsusiyyətləri yalnız qanunla müəyyənləşdirilə bilər.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin XIII hissəsinə əsasən Azərbaycan Respublikası ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi icarə və ya digər əşya hüquqlarına dair müqavilə, etibarnamə əsasında başqa şəxsə verildikdə, müvafiq orqanlarda təkrar dövlət qeydiyyatından keçirilməlidir.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən sosial yardım almaq üçün müraciət edilən zaman ailə sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə (ailənin tərkibi, əmlakı və gəliri haqqında) tam və düzgün məlumat verməlidir. Sosial yardım təyin edildikdən sonra ailənin gəlirlərində dəyişiklik baş verdikdə, həmçinin müvafiq orqanların informasiya ehtiyatlarından və sistemlərindən əldə olunan məlumatlar əsasında sosial yardımın dayandırılmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar aşkarlandıqda, sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır.

Ailənin sosial yardım almaq hüququna baxılma zamanı sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə (ailənin tərkibi, əmlakı və gəliri haqqında) düzgün olmayan və ya natamam məlumat verildiyi aşkar olunduqda və yaxud bu Qanunun 10.2-ci maddəsinin tələbi pozulduqda, həmin ailə 1 (bir) il müddətinə sosial yardım almaq hüququnu itirir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 4.3.6-cı bəndinə əsasən ailənin mülkiyyətində və ya istifadəsində nəqliyyat vasitəsi olması barədə məlumatlar ailənin verməli olduğu məlumatlardan istisna olunmuşdur.

Qanunvericiliyin qeyd olunan müddəalarından aydın olur ki, şəxsin əmlaka mülkiyyət və ondan istifadə hüququ yalnız qanunla müəyyənləşdirilə bilər. Azərbaycan Respublikası ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi icarə və ya digər əşya hüquqlarına dair müqavilə, etibarnamə əsasında başqa şəxsə verildikdə, müvafiq orqanlarda təkrar dövlət qeydiyyatından keçirilməlidir.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş bir sıra müraciətlərdə əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin aparılmasında köməyin göstərilməsi, çətin həyat şəraitində olanlara sosial işçilərin təyin edilməsi və digər təminat məsələləri öz əksini tapmışdır. Bu qəbildən olan müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına sorğular verilmiş və problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi B (08-2025).** Ombudsmana müraciət edərək epilepsiya xəstəliyindən əziyyət çəkdiyini, əlilliyinin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndəriş verilməsi üçün yaşayış yeri üzrə "Şahbuz Rayon Mərkəzi Xəstəxanası" publik

hüquqi şəxsin tərkibində fəaliyyət göstərən həkim-məsləhət komissiyasına müraciət etdiyini, lakin tibbi müayinə və müalicəsinin nəticələrinə baxılmadan müvafiq göndərişin verilməsindən imtina edildiyini bildirmiş, əlilliyinin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndəriş verilməsinə və ona əlilliyin müəyyən edilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətin araşdırılması zamanı ərizəçinin müayinələrinin nəticələrinə obyektiv yanaşılmadığı və onun tibb müəssisəsində süründürməçiliyə məruz qaldığı müəyyən olunmuş, yuxarı quruma müraciət olunduqdan sonra həkim-məsləhət komissiyası tərəfindən ərizəçinin əlilliyinin qiymətləndirilməsi üçün tibbi-sosial ekspertiza müayinəsinə göndəriş "Əlillik" (TSERAS) altsisteminə yerləşdirilmişdir.

Müraciətin araşdırılmasının sonrakı mərhələsində Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət olunmuş və Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən ərizəçiyə "Epilepsiya xəstəliyi" diaqnozu ilə orqanizim funksiyalarınızın 70% pozulmasına görə 2 il müddətinə) əlillik təyin olunmuşdur.

**Ərizəçi İ (217-2024).** Ombudsmana müraciət edərək ərinin azadlıqdan məhrum edildiyini, ərinin "yoğun bağırsağın kronu" xəstəliyindən əziyyət çəkdiyini, həmin diaqnozla ərinə 5 il müddətinə əlilliyin təyin edildiyini, lakin məhkum olduqdan sonra əlilliyə görə verilən müavinətin dayandırıldığını bildirmiş və ərinin əlilliyinin yenidən qiymətləndirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması məqsədilə aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə və Ədliyyə nazirliklərinə müraciət olunmuş, qarşılıqlı əməkdaşlıq nəticəsində ərizəçinin ərinə "Yoğun bağırsağın divertikulyar xəstəliyi" diaqnozu səbəbindən iki il müddətinə əlillik təyin edilmişdir.

Müraciətlər əsasında aparılan təhlil nəticəsində məlum olmuşdur ki, tibbi-sosial ekspert komissiyasının fəaliyyətinin təkmilləşdirilməsinə baxmayaraq, hələ də bu sahədə problemlər mövcuddur. Bir sıra hallarda elektron sistemə daxil edilən göndərişlərin natamam tərtibi, şəxsin əlillik vəziyyətini müəyyən etməyə əsas yaradan zəruri qeydlərin göndərişdə olmaması şəxsə əlilliyin təyin edilməsi ilə bağlı qərar verilməsində çətinliklər yaradır.

Həmçinin əlilliyin qiymətləndirilməsi məqsədilə müvafiq tibb müəssisələrinin həkim-məsləhət komissiyaları tərəfindən göndərişlərin rəsmiləşdirilməməsi, xəstələrin sonuncu diaqnozlarının, ağırlaşmaları təsdiq edən müayinələrin nəticələrinə dair məlumatların, xəstəlik əlamətlərinin düzgün daxil edilməməsi və ya natamam qeyd olunması, ən əsası isə göndərişlərin verilməsindən imtina olunması barədə qərarların qəbul olunmaması və ya vətəndaşa təqdim olunmaması sahəsində də problemlər qalmaqdadır. Bu kimi hallar əlilliyin qiymətləndirilməsi prosesini uzatmaqla, süründürməçiliyə səbəb olur.

Həkim-məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş bir sıra göndərişlər müəyyən edilmiş tələblərə cavab vermədiyi üçün əlillik dərəcəsinin qiymətləndirilməsindən imtina edilir. Qeyd olunan hallarla bağlı əlilliyin müəyyən olunması, yenidən qiymətləndirilməsi, habelə göndərişlərin verilməsindən və əlilliyin qiymətləndirilməsindən imtina edilməsinə dair qərarların vətəndaşlara vaxtında verilməsi

istiqamətində qanunvericiliyin tələblərinə əməl olunmalı, nöqsanların aradan qaldırılması üçün müvafiq sahədə fəaliyyət təkmilləşdirilməlidir.

Bununla yanaşı, əlilliyin təyin edilməsi üçün rəsmiləşdirilmiş göndərişin natamam doldurulması kimi neqativ halların qarşısının alınması məqsədilə rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsinə yanaşma dəyişməli, həkim məsləhət komissiyaları ilə əlaqələndirmə işi təkmilləşdirilməli, əlçatanlıq və operativlik təmin olunmalı, süründürməçilik hallarına yol verilməməlidir.

**Ərizəçi R (34-2025).** Ombudsmana müraciət edərək degenerativ miopiya və yüksək dərəcəli mürəkkəb miopik astiqmatizm xəstəliyindən əziyyət çəkdiyini, əlilliyinin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndəriş verilməsi üçün "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsində stasionar şəraitdə müalicə olunduğunu, lakin tibbi müayinə və müalicəsinin nəticələrinə baxılmadan müvafiq göndərişin verilməsindən imtina edildiyinin bildirildiyini, lakin imtina qərarının ona verilmədiyini qeyd etmiş, məsələnin araşdırılmasını və hüquqlarının müdafiəsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı yuxarı quruma verilmiş sorğuya cavab olaraq ərizəçinin "Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsinin Göz xəstəlikləri şöbəsində stasionar müalicə aldığı və müxtəlif vaxtlarda ambulator müayinə edildiyi, lakin xəstəliyinin əlilliyin müəyyən olunma meyarlarının tələblərinə cavab vermədiyi üçün göndərişin verilməsindən imtina olunduğu bildirilmiş, zəruri sənəd kimi göndərişin verilməsindən imtina olunması barədə qərarın surəti tələb olunsa da, təqdim edilməmiş, nəticədə ərizəçinin hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə imtinadan şikayət vermək hüququ məhdudlaşdırılaraq müraciət etmək hüququ pozulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 yanvar 2020-ci il tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın 2-ci bəndinə əsasən göndəriş verilməsi üçün əlilliyi qiymətləndiriləcək şəxs (onun qanuni nümayəndəsi) və ya müalicə həkimi həkim-məsləhət komissiyasına müraciət edir. Komissiya göndəriş üçün müraciətdən 7 (yeddi) iş günündən gec olmayaraq şəxsin tibbi müayinələrini, o cümlədən xəstəlik tarixlərindən çıxarışları toplayır və müalicənin nəticələrini araşdırır. Diaqnozun dəqiqləşdirilməsi məqsədilə şəxs ixtisaslaşdırılmış tibb müəssisəsinə göndərildikdə, bu müddət əlavə olaraq 10 (on) iş gününədək artırılır.

Komissiya göndəriş verilməsi və ya verilməsindən imtina barədə qərarı araşdırma bitdikdən sonra dərhal qəbul edir. Qərar protokolla rəsmiləşdirilir. Protokol Komissiyanın sədri və üzvləri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

Komissiya tərəfindən göndərişin verilməsindən imtina barədə əsaslandırılmış qərar göndəriş üçün müraciət edilən gün qəbul edilir. Həmin qərardan "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq, inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən müraciətə baxan subyektlərin vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə baxarkən müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat verməli, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərməli, şikayət vermək qaydasını izah etməlidirlər. Müraciətlər barəsində əsaslandırılmış qərarların qəbul edilməsini və bu qərarların vaxtında və düzgün yerinə yetirilməsini təmin etməlidirlər.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə əsasən inzibati orqan diskresion səlahiyyətlərini qanunla müəyyən olunmuş hüdudlar daxilində (qanunla ona verilmiş səlahiyyətlər daxilində) həyata keçirməyə borcludur. Diskresion səlahiyyətlərin həyata keçirilməsi zamanı fiziki və ya hüquqi şəxslərin hüquq və azadlıqlarının əsassız məhdudlaşdırılmasına yönəldilmiş qərarlar qəbul oluna bilməz.

Bu Qanunun 20-ci maddəsinə əsasən hər bir şəxsin onun hüquq və qanuni maraqlarına bilavasitə aid olan məsələlərlə bağlı inzibati orqana müraciət etmək, vəsatət vermək və ya inzibati orqandan məlumat əldə etmək hüququ vardır. Qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan onun səlahiyyətlərinə aid olan məsələlər üzrə müraciətlərə baxmağa, həmin müraciətlər üzrə müvafiq qərar qəbul etməyə və ya məlumat verməyə borcludur.

Bu Qanunun 52-ci maddəsinə əsasən səlahiyyətli inzibati orqanda ərizənin və ya müraciətin qeydiyyata alındığı vaxtdan ən geci 30 gün müddətində həmin inzibati orqan inzibati aktın qəbul edilməsi və ya onun qəbul edilməsindən imtina olunması haqqında qərar qəbul edir.

Ombudsman hesab edir ki, həkim-məsləhət komissiyası tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişin verilməsindən imtina barədə əsaslandırılmış qərarın qəbul edilməməsi qanunvericiliyin tələblərinin ciddi pozuntusudur və şəxsin hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə imtinadan şikayət vermək hüququnu məhdudlaşdırdığı üçün bu hal yolverilməzdir.

Hesabat dövründə Ombudsmana eyni məzmunlu müraciətlər ünvanlanmış, aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə təklif və tövsiyələr verildikdən sonra tibb müəssisələrinin həkim-məsləhət komissiyaları tərəfindən mövcud nöqsanlar aradan qaldırılaraq qanunvericiliyin tələblərinə uyğun göndərişlərin verilməsindən imtina barədə əsaslandırılmış qərarlar qəbul edilərək vətəndaşlara təqdim edilmişdir.

**Ərizəçi Ə (132-2025).** Ombudsmana müraciət edərək 90 yaşının olduğunu, tək yaşadığını, özünəqulluq qabiliyyətinin olmadığını bildirmiş, sosial xidmətə ehtiyacı olan şəxs kimi ona sosial işçi təyin edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Müraciətin araşdırılması və zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti dövlət orqanına müraciət olunmuş, lakin onunla eyni yaşayış məntəqəsində əmək qabiliyyətli oğlu yaşadığından ona evdə (səyyar) sosial xidmətin göstərilməsi mümkün olmamışdır.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə əsasən evdə (səyyar) sosial xidmət əmək qabiliyyətli qohumları və ya qanuni

nümayəndələri ilə eyni inzibati ərazi dairəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlilliyi olan şəxslərə, xəstəliyin terminal (son) mərhələsində olan şəxslərə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada göstərilir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə əsasən evdə (səyyar) sosial xidmət əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə Bakı şəhəri üzrə eyni inzibati ərazi vahidində, digər şəhər və rayonlar üzrə eyni inzibati ərazi dairəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlilliyi olan şəxslərə, xəstəliyin terminal (son) mərhələsində olan şəxslərə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada göstərilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2013-cü il tarixli 17 nömrəli Qərarı ilə təsdiq olunmuş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nın 2.1-ci bəndinə əsasən əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni inzibati ərazi dairəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllar, ahıl ər-arvadlar, əlilliyi olan şəxslər, xəstəliyin terminal (son) mərhələsində olan şəxslər evdə (səyyar) sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər.

Sosial müdafiə sahəsində digər hüquqların təmin edilməsi üçün sığortaedənlər müəyyən edilmiş müddət daxilində sosial sığorta haqqını sığortaçıya ödəməli, eyni zamanda qanunvericiliklə müəyyən edilmiş qaydada sığortaolunanların məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirləri, eləcə də xeyrinə ödənilmiş məcburi dövlət sosial sığorta haqları sığortaolunanların fərdi şəxsi hesablarında əks olunmalıdır.

**Ərizəçi M (61-2025).** Ombudsmana müraciət edərək 5 uşağı olduğu üçün sosial müavinət aldığını, 2014-2019-cu illər ərzində könüllü olaraq sosial sığorta stajının hesablanması üçün ödənişlər etdiyini, yaşa görə əmək pensiyası təyin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan "Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxsinə müraciət etsə də, Fond tərəfindən həmin ödənişlərin müvafiq sistemdə əks olunmadığını, maddi vəziyyətinin pis olduğunu bildirmiş, könüllü formada ödədiyi sığorta ödənişlərinin müvafiq sistemə daxil edilməsinə və sosial sığorta stajının nəzərə alınaraq ona təyin edilmiş sosial müavinətin əvəzinə yaşa görə əmək pensiyasının verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin ödənişləri vaxtı-vaxtında ödədiyi, lakin kənd təsərrüfatına yararlı torpaq sahələrini istifadə edən şəxs, yəni torpaq mülkiyyətçisi kimi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində uçota alınmadığı, bu səbəbdən ödədiyi sosial sığorta haqlarının fərdi şəxsi hesaba işlənilmədiyi məlum olmuşdur.

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə əsasən sığortaedənlərin məcburi dövlət sosial sığorta məqsədləri üçün sığortaçıda uçotu Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin təqdim etdiyi uçot məlumatları əsasında aparılır. Ailə kəndli təsərrüfatları qanunvericiliklə müəyyən olunmuş qaydada uçota alındıqdan, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər isə torpağa mülkiyyət hüququnu təsdiq edən sənəd aldıqdan sonra bir ay müddətində məcburi dövlət sosial sığortasının məqsədləri üçün uçota alınmaq barədə ərizə ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət edir.

Müraciətinə baxılmasının nəticəsi barədə ərizəçiyə yazılı məlumat verilmiş və hüquqları izah edilərək ona uçot nömrəsi təyin edildikdən sonra müvafiq sənədləri aidiyyəti dövlət orqanına təqdim etməsi tövsiyə olunmuşdur.

Ombudsman vətəndaşların sosial təminatının yaxşılaşdırılmasını, onların layiqli həyat səviyyəsinin təmin edilməsinə şərait yaradılmasını, hüquqlarının bərpasına nail olunması məqsədilə zəruri tədbirlərin görülməsini zəruri hesab edir.

***Sağlamlığın qorunması hüququ.*** Sağlamlığın qorunması hüququ hər bir fərdin və bütövlükdə cəmiyyətin rifahının əsasını təşkil edən, insanların fiziki və psixi sağlamlığının ən yüksək səviyyədə təmin olunmasını nəzərdə tutan fundamental hüquqdur. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzunömürlülüyünün artmasına, tibbi yardımla təminatına xidmət edir. Əsas məqsəd hər bir şəxsin bu sahədə hüquqlarının təmin olunması, sağlamlığın qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi və tibbi-sosial yardımın hamı üçün əlçatan olmasıdır.

Sağlamlıq fərdin həyat fəaliyyəti ilə birbaşa bağlı olduğuna görə ona olan münasibət və onunla bağlı məsələlərin əsası konstitusion hüquq səviyyəsində müəyyən edilmişdir.

Hər bir şəxs üçün ayrı-seçkiliyə yol verilmədən sağlam həyat şəraitinin yaradılması, keyfiyyətli tibbi xidmətlərə və sağlamlıq barədə məlumatlara əlçatanlığın təmin olunması müasir dövrün əsas prioritetləri sırasındadır. Qeyd edilməlidir ki, səhiyyə sahəsində əhəmiyyətli islahatların aparılmasına baxmayaraq, hələ də bu hüququn həyata keçirilməsi ilə bağlı müəyyən çətinliklər qalmaqdadır.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə güzəştli dərman preparatları ilə təminatda mövcud problemlər, həmçinin dövlət hesabına müayinə və müalicənin təşkilində, ixtisaslaşmış tibbi xidmətin göstərilməsində köməklik edilməsi, əlilliyin qiymətləndirilməsi ilə əlaqədar göndərişlərin rəsmiləşdirilməsi üçün tibb müəssisələrinə edilən müraciətlərin nəticəsiz qalması və ya göndərişlərin müəyyən edilmiş tələblərə uyğun rəsmiləşdirilməməsi, tibbi reabilitasiyanın, habelə icbari tibbi sığortanın imkanlarından yetərincə istifadə etmək üçün zəruri şəraitin yaradılmaması və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Həmin müraciətlər üzrə Ombudsman tərəfindən qanunamüvafiq qaydada və müddətdə araşdırmalar aparılmış, aidiyyəti dövlət orqanlarına ünvanlanmış müraciətlərdən sonra hüquqların təmini və ya pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

**Ərizəçi A (33-2025).** Ombudsmana müraciət edərək atasının böyrək köçürmə əməliyyatı olunduğunu, həmin vaxtdan etibarən hər gün immunsupresif dərmanlar istifadə etdiyini, əvvəllər bu dərmanların dövlət vəsaiti hesabına Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təmin edildiyini, lakin həmin dərman preparatlarının verilməsinin dayandırıldığını, bununla bağlı Səhiyyə Nazirliyinin qaynar xətti vasitəsilə əməkdaşlarla dəfələrlə əlaqə saxlasa da, heç bir nəticəsinin olmadığını bildirmiş, atasının xəstəliyi ilə əlaqədar olaraq ona müvafiq dərman preparatlarının verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması və zəruri tədbirlərin görülməsi məqsədilə Səhiyyə Nazirliyinə müraciət olunduqdan sonra "Naxçıvan Hemodializ Mərkəzi" publik hüquqi şəxsi tərəfindən müvafiq dərman preparatlarının təminatı həyata keçirilmişdir.

**Ərizəçi Ə (70-2025).** Ombudsmana müraciət edərək şəkərli diabet xəstəliyindən əziyyət çəkdiyini, pulsuz aldığı insulin və digər şəkərsalıcı dərman preparatları ilə təminatının yaşayış yerindən çox uzaq məsafədə yerləşən başqa qəsəbənin ailə sağlamlıq mərkəzində həyata keçirildiyini, xəstəliyi və maddi vəziyyəti ilə əlaqədar olaraq hər ay oraya gediş-gəlişdə çətinlik çəkdiyini, bu məsələ ilə bağlı etdiyi müraciətlərin nəticəsiz qaldığını bildirmiş, dərman preparatlarının yaşayış yeri üzrə tibb məntəqəsində verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə ünvanlanmış müraciətdən sonra hüquq pozuntusu aradan qaldırılaraq ərizəçiyə şəkərsalıcı dərman preparatlarının, inyeksiya və özünənəzarət vasitələrinin normaya uyğun və resept əsasında yaşayış yeri üzrə tibb məntəqəsi tərəfindən verilməsi təmin olunmuşdur.

Vətəndaşların, xüsusilə aztəminatlı şəxslərin dövlət hesabına müayinə və müalicə olunmasına köməklik göstərilməsi ilə bağlı müraciətləri üzrə Ombudsman tərəfindən aidiyyəti qurumlara müraciət edildikdən sonra zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi M (72-2025).** Ombudsmana etdiyi müraciətində şəkərli diabet xəstəliyindən əziyyət çəkdiyini, aldığı əmək pensiyasının müalicə xərclərini ancaq qarşıladığını, maddi imkansızlıq səbəbindən gözündəki xəstəliklə bağlı cərrahi əməliyyat oluna bilmədiyini qeyd etmiş və bu məsələ ilə bağlı müvafiq köməklik göstərilməsini xahiş etmiş, aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq nəticəsində ərizəçi cərrahi əməliyyat olunmuşdur.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 1-1-ci maddəsinə görə tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə sığortaolunanın tibbi xidmət almasına, dərman və tibb vasitələri ilə təchizatına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, sığorta hadisəsi zamanı icbari tibbi sığortanın maliyyə mənbələri hesabına və xidmətlər zərfi

çərçivəsində sığortaolunanların tibbi yardım almasını, habelə onların dərman və tibb vasitələrindən istifadə etməsini təmin edir.

Ombudsman hesab edir ki, ərazidən asılı olmayaraq vətəndaşların tibbi xidmətlərə əlçatanlığı təmin olunmalı və istənilən vaxt həkimə müraciət etmək imkanına şərait yaradılmalıdır. Belə ki, müvafiq tibb müəssisəsində kadr çatışmazlığı və tibbi avadanlıqların olmaması vətəndaşların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin edilməsinə mane olmaqla, sağlamlığın qorunması hüququnun pozulmasına gətirib çıxarır.

Bu baxımdan Ombudsman müvafiq ərazidə əhalinin sağlamlığının qorunması hüququnun etibarlı müdafiəsinə və əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasına şərait yaradılmasını, göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasını, eləcə də tibb müəssisələrinin zəruri avadanlıqlarla təmin edilməsini zəruri hesab edir.

***Təhsil hüququ.*** Təhsil dövlətin siyasi-iqtisadi, sosial və mədəni inkişafının əsas elementlərindən biridir. Müxtəlif beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş fundamental insan hüquqlarından biri kimi təhsil hüququ şəxsiyyətin, cəmiyyətin və dövlətin formalaşmasında və inkişafında həlledici rol oynayır. Bu hüquq hər bir fərdin bərabər, ədalətli və keyfiyyətli təhsil almasına və öz potensialını reallaşdırmasına təminat verir.

Ölkəmizdə təhsil sistemi Azərbaycan Respublikasının Konstitusiyasına, bu sahədə qəbul edilmiş müvafiq normativ-hüquqi aktlara, habelə respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində qeyd olunur ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir və maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir.

Təhsil yalnız bir hüquq kimi deyil, eyni zamanda digər insan hüquqlarının tam və effektiv həyata keçirilməsi üçün də vasitə kimi görülür, hər bir insanın inkişafına və ləyaqətinin dərk olunmasına, insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə, eyni zamanda hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmasına imkan yaradır.

Təhsil hüququ ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər əsasında aparılmış araşdırmalar nəticəsində hüquq pozuntularının aradan qaldırılması üzrə zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi İ (83-2025).** Ombudsmanın təşkilatçılığı ilə Culfa rayonunda keçirilmiş “Açıq Qapı” aksiyasında müraciət edərək ailəsinin maddi vəziyyəti ilə əlaqədar olaraq əmək fəaliyyəti ilə məşğul olduğunu, ərinin hərbi qulluqçu olduğunu, azyaşlı övladının Culfa şəhər körpələr evi və uşaq bağçasına qəbul edilməsi üçün növbəyə yazıldığını, həmçinin məsələ ilə bağlı Culfa Rayon Təhsil Şöbəsinə müraciət etdiyini, lakin müraciətinin nəticəsiz qaldığını bildirmiş, uşağının Culfa şəhər körpələr evi və uşaq bağçasına qəbul edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətin araşdırılması zamanı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə verilmiş sorğuya cavab olaraq dövlət məktəbəqədər təhsil müəssisələrinə ilk növbədə

prioriteti olan valideynlərin övladlarının qəbulunun həyata keçiriləcəyi və növbəti tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə uşaq qəbulunun iyul ayında yenidən aktiv olacağı bildirilmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin ərinin hərbi qulluqçu olmasına baxmayaraq növbəlilikdə onlara üstünlüyün verilmədiyi, beləliklə hüquq pozuntusuna yol verildiyi məlum olmuş, hüquqların bərpası istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə Nazirliyə müraciət olunduqdan sonra ərizəçinin övladının Culfa şəhər körpələr evi və uşaq bağçasına qəbulu həyata keçirilmişdir.

"Məktəbəqədər təhsil müəsissələri haqqında" Azərbaycan Respublikası Qanununun 8.9-cu maddəsinə əsasən dövlət məktəbəqədər təhsil müəssisəsinə, ilk növbədə, şəhid ailələrinin, Qarabağ müharibəsi və Vətən Müharibəsi iştirakçılarının və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, tək işləyən valideynlərin, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin, hərbi xidmətdə olan valideynlərin, təhsilalan anaların uşaqları, çoxuşaqlı ailələrdən olan uşaqlar, qəyyumluqda olan uşaqlar qəbul edilirlər.

**Ərizəçi T (142-2025).** Ombudsmana müraciət edərək Türkiyə Respublikasının İstanbul şəhərində anadan olduğunu, uzun müddət Türkiyə Respublikasında yaşadığını, 11 yaşında Türkiyə Respublikasında fəaliyyət göstərən Hüseyn Cavid adına məktəbin 1-ci sinifinə daxil olduğunu, həmin məktəbdə 8-ci sinfi bitirdikdən sonra Azərbaycan Respublikasına geri qayıtdığını, təhsilini davam etdirmək üçün Bakı Şəhər Baş Təhsil İdarəsinə müraciət etdiyini, 9-cu sinfi bitirərək ümumi orta təhsil haqqında attestat aldığını, Bakı şəhərində yaşayış yeri olmadığı üçün Naxçıvan şəhərinə geri qayıtdığını, 10-cu sinifdə təhsilini davam etdirmək üçün Şərur Rayon Təhsil Şöbəsinə müraciət etsə də, 18 yaşının tamam olması ilə əlaqədar təhsil almasının mümkün olmayacağının bildirildiyini qeyd etmiş və pozulmuş təhsil hüququnun bərpa edilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətə dair mülahizələrin alınması və qeyd olunan halların yoxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə verilmiş sorğuya cavab olaraq ərizəçinin Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış imtahanlarında iştirak edərək cari ilin məzunu kimi attestat aldığı, attestat eksternat qaydasında verilmədiyindən qanunvericiliyin tələblərinin pozulduğu, bu məsələyə aydınlıq gətirilməsi üçün Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə sorğu göndərildiyi bildirilmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin sərbəst (eksternat) təhsil formasında təhsil alması üçün qanunla müəyyən olunmuş əsaslar olmadığı, onun 2024-2025-ci tədris ilində Bakı şəhəri, Suraxanı rayonu 89 nömrəli tam orta məktəbin IX sinfində əyani formada təhsil aldığı və ümumi orta təhsilini başa vurduğuna görə attestat verilən ərizəçinin təhsilini növbəti pillədə davam etdirmək hüququnu əldə etdiyi, lakin sərbəst (eksternat) təhsilalma formasında təhsilalan şəxslərin buraxılış imtahanlarının təşkili ilə bağlı qaydalarda nəzərdə tutulan yaş məhdudiyyətinin əyani formada təhsil almış ərizəçiyə tətbiq edilməklə təhsil almasına maneələr yaradılmasının onun təhsil hüququnun ciddi formada pozulmasına səbəb olduğu müəyyən edilmişdir.

Ərizəçinin pozulmuş təhsil hüququnun bərpa edilərək tam orta təhsil alması üçün zəruri tədbirlərin görülməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət olunmuş, lakin nəticə əldə olunmamışdır.

"İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 13-cü maddəsinə əsasən təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Təhsil hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı verməlidir. Orta təhsil və onun müxtəlif formaları, orta texniki-peşə təhsili də daxil olmaqla, bütün tədbirlər görmək, xüsusilə və tədricən pulsuz təhsilə keçmək yolu ilə açıq və hamıya müyəssər olmalıdır.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.39-cu maddəsinə əsasən sərbəst (eksternat) təhsil müxtəlif səbəblərdən ümumi təhsildən kənarda qalan şəxslərə təhsil almaq və ya təhsilalana ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək hüququ verən təhsilalma formasıdır.

Bu Qanunun 5-ci maddəsinə əsasən dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən ümumi təhsil müəssisələrini ümumi təhsil pilləsinin ümumi orta və tam orta səviyyələri üzrə bitirən şəxslərə "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan müvafiq təhsil haqqında dövlət sənədi – attestat verilir. Ümumi təhsil haqqında dövlət sənədi növbəti səviyyədə və pillədə təhsili davam etdirmək və ya əmək fəaliyyətinə başlamaq üçün əsas sayılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 22 iyun tarixli, 115 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, bir səviyyədən digər səviyyəyə keçid Qaydaları"na əsasən ümumi orta təhsil səviyyəsində təhsilin müddəti 5 ildir. Ümumi orta təhsil səviyyəsində yekun attestasiya aparılır və təhsili başa vuran təhsilalanlara müvafiq dövlət sənədi – attestat verilir. Ümumi orta təhsil haqqında dövlət sənədi təhsilin növbəti səviyyədə və ya pillədə davam etdirilməsi üçün əsas sayılır.

Qanunvericiliyin müddəalarından müəyyən olunur ki, ümumi orta və tam orta təhsil səviyyələrində əyani təhsilalma forması tətbiq edilərkən hər hansı yaş məhdudiyyəti müəyyən olunmur. Bununla yanaşı, ümumi orta təhsili başa vuran təhsilalanlara verilən müvafiq dövlət sənədi – attestat təhsilin növbəti səviyyədə və ya pillədə davam etdirilməsi üçün əsas hesab edilir.

Hər hansı səbəbdən təhsildən yayınan uşaqlara münasibətdə aidiyyəti qurumlar tərəfindən vaxtında profilaktik tədbirlərin görülməməsi, konstitusion hüquqların pozulmasına gətirib çıxara bilər. Qeyd edilən halların aradan qaldırılması üçün aidiyyəti qurumlar tərəfindən monitorinqlər keçirilməklə təhsildən yayınan şagirdlərin müəyyən

edilməsi və təhsilin bütün pillələrində təlim-tərbiyə prosesinə, zəruri tərbiyəvi-profilaktik işin aparılmasına diqqətin artırılması məqsədəmüvafiqdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli, 157 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"nın 5.1-ci yarımbəndinə əsasən, təhsil müəssisələrində psixoloji xidmət müəssisə rəhbərliyinin, pedaqoji işçilərin, valideynlərin və ya digər qanuni nümayəndələrin psixoloqla qarşılıqlı əməkdaşlığı təmin edilməklə təşkil olunur.

Qeyd olunmalıdır ki, təhsil müəssisələrində müşahidə olunan problemlərdən biri də təhsilalanların qarşılıqlı münasibətlərində və ünsiyyətində mövcud olan gərginlik, davranış və intizam qaydalarına riayət edilməməsi halları ilə bağlıdır. Şagirdlər arasında baş verən anlaşılmazlıqların qarşısının alınması məqsədilə müəllimlərin uşaqlara münasibətdə onların yaşına müvafiq olaraq psixoloji durumu nəzərə alınmalıdır, uşaqlarda yarana biləcək hər hansı psixoloji gərginlik halının qarşısının alınmasında məktəb psixoloqları ciddi iş aparmalıdırlar.

Bu baxımdan, müəllim-şagird münasibətlərinin tənzimlənməsində psixoloqların müəllimlərlə və valideynlərlə əməkdaşlıq etməsi, həmçinin təhsilalanları fiziki və psixi zorakılığın bütün formalarından müdafiə etmək, zərərli vərdişlərdən çəkindirmək, şagirdlərin təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etməklə onlarla müvafiq profilaktik işin aparılması zəruridir.

***Mülkiyyət hüququ.*** Mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsində təsbit edilmişdir ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Mülkiyyət hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə, əsas etibarilə, mülkiyyətdə olan əmlakın (evin, tikilinin) müvafiq məhkəmə qərarı olmadan sökülməsi, xüsusi mülkiyyətdə olan evin dövlət ehtiyacları üçün geri alınması və əvəzinin ödənilməməsi və ya əvəzində uyğun kompensasiyanın verilməməsi və digər bu kimi hallar öz əksini tapmışdır.

**Ərizəçi Q (82-2025).** Ombudsmana müraciət edərək ona məxsus torpaq sahəsində tikdirdiyi fərdi yaşayış evinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması üçün Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət etdiyini, evin layihəsi təsdiq olunmadığı üçün qeydiyyata alınmadığı, layihənin təsdiq olunması məqsədilə Culfa Rayon İcra Hakimiyyətinə müraciət etsə də, tikilinin dəmir yoluna yaxın olması əsas gətirilərək layihənin təsdiq olunmasından imtina olunduğunu bildirmiş və torpaq sahəsinin təyinatının nəzərə alınaraq layihənin təsdiq olunmasına və evinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasına köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı aidiyyəti üzrə dövlət orqanlarına müraciət olunduqdan sonra ərizəçinin tələbi təmin edilərək layihə Culfa Rayon İcra Hakimiyyəti tərəfindən təsdiq olunmuş, fərdi yaşayış evinin üzərində hüquqları daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq çıxarışın verilməsi üçün zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi İ (59-2025).** Ombudsmana müraciət edərək pozulmuş mülkiyyət hüququnun bərpa olunması və vurulmuş ziyanın ödənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsində qaldırdığı iddia üzrə məhkəmə prosesinin gedişində cavabdeh dövlət orqanı ilə 400 $m^2$ torpaq sahəsinin verilməsi ilə bağlı qarşılıqlı razılıq əldə olunduğundan öz ərizəsi əsasında məhkəmədə iş üzrə icraata xitam verildiyini, həmin torpaq sahəsinin hərrac yolu ilə ona satıldığını, notariat qaydasında alqı-satqı müqaviləsi bağlansa da, torpaq sahəsinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmadığını bildirmiş və pozulmuş mülkiyyət hüququnun bərpa olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət qanunamüvafiq olaraq araşdırılmış, aidiyyəti dövlət orqanına müraciət olunduqdan sonra alqı-satqı müqaviləsi əsasında ərizəçiyə satılmış torpaq sahəsi üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması barədə çıxarış və digər müvafiq sənədlər ərizəçiyə təqdim olunmuşdur.

**Ərizəçi V (74-2024).** Ombudsmana müraciət edərək Zeyvə kəndində gözəllik salonu və lavaş sexi tikmək üçün bələdiyyəyə məxsus 600 $m^2$ torpaq sahəsinin mülkiyyətinə verilməsinə dair yazılı ərizəsinə Zeyvə Bələdiyyəsinin iclasında baxılaraq müsbət qərar qəbul edildiyini, tikinti üçün müvafiq dövlət orqanlarından rəylərin alındığını, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən torpaq sahəsinə baxış keçirildiyini, bütün sənədləri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə təqdim etdiyini, lakin bugünədək heç bir nəticənin olmadığını, bələdiyyə tərəfindən digər şəxslərə ayrılan torpaq sahələrində tikinti aparılması üçün icazə verildiyindən obyektlərin tikintisinin başa çatdığını bildirmiş, ona qarşı edilmiş ayrı-seçkiliyin qarşısının alınması, bələdiyyəyə məxsus torpağın mülkiyyətinə və ya icarəyə verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı aidiyyəti üzrə dövlət orqanlarına müraciətlər ünvanlandıqdan sonra ərizəçiyə edilmiş ayrı-seçkiliyin qarşısı alınmış, ərizəçi almaq istədiyi torpaq sahəsinin mülkiyyətə verilməsi ilə bağlı təşkil olunmuş hərracda iştirak edərək məsələ öz müsbət həllini tapmış və vətəndaş Ombudsmana ərizə ünvanlayaraq hüquq pozuntusunun qarşısı alındığı üçün təşəkkürünü bildirmişdir.

Bununla yanaşı, mülkiyyət hüququnun təmini və pozulmasının qarşısının alınması ilə bağlı Ombudsmana ünvanlanmış bəzi müraciətlərin araşdırılması zamanı vətəndaşlara qarşı ayrı-seçkiliyin edildiyi və hüquq pozuntusu faktı aşkar olunmuş, hüquqların bərpası ilə bağlı aidiyyəti dövlət orqanlarına müraciət olunsa da, heç bir zəruri tədbir görülməmişdir.

**Ərizəçi B (63-2024).** Ombudsmana müraciət edərək Babək rayonu, Didivar kəndində 1400$m^2$ torpaq sahəsi alaraq özünə fərdi yaşayış evinin tikintisi zaman səhvliklə bələdiyyəyə məxsus 6 metr torpaq sahəsini hasarladığını, bundan sonra həmin torpağı bələdiyyədən almaq istəsə də, müxtəlif bəhanələrlə bələdiyyə tərəfindən imtina edildiyini,

lakin onunla eyni vəziyyətdə olan şəxslərə bələdiyyə torpağının satıldığını, bununla yanaşı, müxtəlif vaxtlarda Babək Rayon Polis İdarəsinin Cəhri Polis Bölməsi və Babək Rayon Prokurorluğu tərəfindən təzyiqlərə məruz qalaraq torpağın zəbtdən azad edilməsinin ondan tələb edildiyini bildirmiş, ona qarşı edilmiş ayrı-seçkiliyin və süründürməçiliyin qarşısının alınaraq torpaq sahəsini mülkiyyətinə keçirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı aidiyyəti üzrə dövlət qurumlarına və bələdiyyəyə verilmiş sorğulara cavab olaraq ərizəçinin bələdiyyəyə ünvanladığı ərizəsinə bələdiyyənin iclasında baxılaraq müvafiq qərar qəbul edildiyi və torpaq sahəsinin alqı-satqısı üçün aidiyyəti qurum tərəfindən rəy verildikdən sonra ona lazımi köməklik göstəriləcəyi bildirilsə də, daha sonra sənədləşmə prosesinin dayandırılması əsas gətirilərək heç bir köməklik göstərilməmişdir. Digər bələdiyyələr tərəfindən torpağın alqı-satqı prosesinin davam etdirildiyi məlum olmuş, tərəfimizdən keçmiş Didivar bələdiyyəsinə, daha sonra Şıxmahmud bələdiyyəsinə dəfələrlə müraciət olunsa da, ərizəçiyə münasibətdə ayrı-seçkilik edilərək heç bir zəruri tədbir görülməmişdir.

“Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyət və icarə hüququ ilə hüquqi və fiziki şəxslərə verilməsi bələdiyyələrin qərarı və tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

Bələdiyyə torpaqlarından hər hansı bir hüquqda torpaq sahəsinin ayrılması üçün hüquqi və fiziki şəxslər ərizə ilə müvafiq bələdiyyəyə müraciət edirlər. Hüquqi və fiziki şəxslərin müraciətlərinə ərizənin daxil olduğu gündən etibarən 15 gün müddətində baxılır.

## 1.3 Əhali qruplarının hüquqlarının müdafiəsi

Hesabat dövründə muxtar respublikada ölkə Konstitusiyasında təsbit edilən fundamental hüquq və azadlıqlar, həmçinin əhalinin müxtəlif sosial qruplarının hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilmiş, əhalinin müxtəlif sosial qruplarının - qadınların, uşaqların, miqrantların, ahıl şəxslərin, müharibə veteranlarının, şəhid ailələrinin və məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, hüquq bərabərliyinin davamlı təmin edilməsi, hüquq və azadlıqlarının müdafiəsi, onların pozulmuş hüquqlarının bərpası Ombudsmanın əsas vəzifələrindən olmuşdur.

***"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının icrası.***

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa əsasən Ombudsmanın "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirməsi uşaqların və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində səmərəliliyin artırılması və bu fəaliyyətin müasir çağırışlara uyğunlaşdırılması, mütərəqqi beynəlxalq təcrübənin muxtar respublikamızda da tətbiq edilməsi baxımından əhəmiyyətli addımdır.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 1.3-1-ci və 13-3-cü maddələrinə əsasən Ombudsmanın müstəqil monitorinq mexanizm funksiyalarının icrası istiqamətində Ombudsman və onun Monitorinq qrupları tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrdə 63, Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrdə 8, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrdə 4, Əlahiddə Ümumqoşun Ordunun tabeliyində olan müəssisədə 1, Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 12 monitorinq olmaqla, ümumilikdə sosial xidmət, təhsil və tibb müəsissələrində **88 monitorinq** həyata keçirilmişdir. Bunlardan 6-sı plandankənar olmuşdur.

Monitorinqlər zamanı hüquq pozuntusu faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə texniki vasitələrdən istifadə edilməklə foto, audio və video qeydiyyatları aparılmış, monitorinqlərin gedişi və nəticələri protokollaşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Monitorinqlər zamanı müəssisələrdə hüquqların təmini vəziyyəti yoxlanılmış, bu məsələlərə diqqətin artırılması və qanunvericiliyin tələblərinə daha ciddi əməl olunması məqsədilə maarifləndirmə işi həyata keçirilmiş və yuxarı dövlət orqanlarına təklif və tövsiyələr verilmişdir.

***Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi.*** Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və təşviqi, onların cəmiyyətin tamhüquqlu üzvləri kimi inteqrasiyasının təmin edilməsi və qarşılaşdıqları maneələrin aradan qaldırılması insan hüquqlarına hörmətin və sosial ədalət prinsiplərinə bağlılığın vacib göstəricilərindən biridir.

İnsan hüquqlarının effektiv müdafiəsini həyata keçirən Ombudsman əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsində fəaliyyətini müraciətlərin araşdırılması və pozulmuş hüquqların bərpası, bu şəxslərin saxlanıldığı müəssisələrə monitorinqlərin həyata keçirilməsi və maarifləndirmə işinin təşkili üzrə davam etdirmişdir.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin aparılmasında köməkliyin göstərilməsi, reabilitasiya vasitələrinin verilməsi, dərman preparatları və köməkçi vasitələrlə təminat, məşğulluğun təmini məsələləri öz əksini tapmışdır. Bu qəbildən olan müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, müraciətlər üzrə araşdırmalar aparılmış, pozulmuş hüquqların bərpası istiqamətində müvafiq tədbirlər görülmüş və zəruri hallarda həmin şəxslərə hüquqi məsləhətlər verilmişdir.

**Ərizəçi İ (50-2025).** Ombudsmana müraciət edərək 3 azyaşlı uşağının olduğunu, özünün və arvadının işsiz olduqlarını, əlilliyi olan şəxs kimi aldığı müavinətdən başqa ailəsinin heç bir gəlir mənbəyinin olmadığını, münasib işlə təmin olunmaq üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə müraciət etdiyini, Agentlik tərəfindən Naxçıvan Şəhər Sanitar Təmizlik İdarasinə, Naxçıvan Şəhər 4 saylı Mənzil İstismar İdarəsinə göndərişlər verildiyini, lakin həmin müəssisələr tərəfindən işə götürülmədiyini bildirmiş, əlilliyinin və ailəsinin maddi vəziyyətinin nəzərə alınaraq sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxs kimi münasib işlə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti dövlət orqanlarına müraciət olunduqdan sonra ərizəçi Naxçıvan Yaşıllaşdırma Xidmətində bağban vəzifəsi üzrə işə götürülərək müraciəti təmin olunmuşdur.

"Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin 23-cü maddəsinə əsasən hər bir insan işləmək, istədiyi işi sərbəst seçmək, ədalətli və əlverişli iş şəraitinə malik olmaq və işsizlikdən müdafiə olunmaq hüququna malikdir.

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən dövlət sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə əlavə iş yerləri və sosial müəssisələr yaratmaq, onlar üçün uyğunlaşdırılmış təlim proqramları əsasında peşə hazırlığı kursları təşkil etmək, habelə kvota müəyyən etmək yolu ilə əlavə təminatlar verir.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilir. Kvotanın miqdarı müvafiq inzibati ərazi vahidində əmək bazarındakı vəziyyətdən asılı olaraq, müəssisələrdəki işçilərin orta siyahı sayının 5 faizindən çox olmamaq şərti ilə müəyyən edilir.

Göndəriş verilmiş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxsləri onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən işəgötürənlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Qeyd olunanları nəzərə alaraq, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün sosial müəssisələrin sayı artırılmalı, əlavə iş yerləri yaradılmalı və məqsədli proqramlar, aktiv məşğulluq tədbirləri həyata keçirilməlidir.

**Ərizəçi Ə (45-2025).** Ombudsmana müraciət edərək 17 yaşlı övladının şəkərli diabet xəstəliyindən əziyyət çəkdiyini, oğlunun hər gün insulin və digər şəkərsalıcı dərman preparatları istifadə etdiyini, onun xəstəliyi ilə əlaqədar Naxçıvan Muxtar Respublika Xəstəxanasında ambulator və stasionar müalicə olunarkən həkim tərəfindən ayrı-seçkiliyə məruz qaldığını və əlilliyinin təkrar qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişin verilmədiyini, həmçinin oğluna insulin və digər şəkərsalıcı dərman preparatlarının, inyeksiya və özünənəzarət vasitələrinin verilmədiyini bildirmiş, müraciətində qeyd etdiyi halların araşdırılmasını və oğlunun pozulmuş sağlamlıq və sosial təminat hüquqlarının bərpa olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə əlaqədar aparılmış araşdırma nəticəsində ərizəçinin övladının sağlamlığın qorunması və sosial təminat kimi konstitusion hüquqlarının pozuntusuna yol verildiyi məlum olmuş, hüquqların bərpası istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə müraciət olunduqdan sonra ərizəçinin övladına orqanizmin funksiyalarının 65 faiz pozulmasına görə 5 il müddətinə əlillik təyin olunmuş, o cümlədən insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli, 87 nömrəli qərarı ilə təsdiq edilmiş “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı" adlı 1 nömrəli əlavədə şəkərli diabet tip 1 və şəkərli diabet tip 2 insulinə ehtiyacı olanlara insulinin illik 14400 vahid, birdəfəlik insulin şprisinin və ya insulin şpris-qələmləri üçün ucluqların gündə 2 ədəd hər 5 gündən bir olmaqla, illik 144 ədəd və qanda şəkəri təyin etmək üçün vizual test-çubuqlarının isə ayda 1 qutu (50 ədəd) verilməsi müəyyən olunmuşdur.

**Ərizəçi B (47-2024).** İctimai birliyin sədri hüquqları pozulmuş müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş bəzi şəxslərin razılığı ilə Ombudsmana müraciət edərək həmin şəxslərin protez-ortopediya məmulatları və onların ehtiyat hissələri ilə təmin olunmadıqlarını, reabilitasiya vasitələrinin qiyməti baha olduğundan və maddi vəziyyətləri yaxşı olmadığından onları öz vəsaitləri hesabına ala bilmədiklərini, məsələ ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəfələrlə müraciət etsələr də, heç bir nəticənin olmadığını bildirmiş və reabilitasiya vasitələrinin verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə əlaqədar mülahizələrin alınması və məsələnin araşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə

ünvanlanmış sorğuya cavab olaraq əlilliyi olan şəxslərin qanunamüvafiq qaydada reabilitasiya vasitələri ilə təmin olunacaqları bildirilmiş, Ombudsman tərəfindən nəzarətə götürülən şikayətlə bağlı qanunvericiliklə müəyyən olunmuş müddətlərdə təminatın həyata keçirilməsi məqsədilə yenidən Nazirliyə müraciət olunduqdan sonra Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən müraciətdə adları qeyd olunan şəxslər reabilitasiya vasitələri ilə təmin olunmuşlar.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsinə əsasən əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi reabilitasiya vasitələrinin növlərinin siyahısına əsasən dövlət büdcəsinin vəsaiti, dövlət icbari şəxsi sığorta vəsaiti və qanunda nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nın 1.2-ci bəndinə əsasən şəxsin reabilitasiya vasitələri ilə təmin edilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi vasitəsilə Nazirlik üçün hər il üzrə dövlət büdcəsindən ayrılan vəsait çərçivəsində həyata keçirilir.

Bu Qaydaya edilmiş əlavədə əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin təminat müddətinin ən yuxarı həddi 6 ay və hazırlanma müddətinin isə ən yuxarı həddi 20 iş günü müəyyən olunmuşdur.

Əlilliyi olan şəxslərin sosial müdafiəsinin və tibbi-sosial reabilitasiyası sahəsində xidmətlərin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, onların hüquqlarının müdafiəsi sahəsində səmərəliliyin təmin edilməsi, habelə bu istiqamətdə aidiyyəti dövlət qurumlarının fəaliyyətinin effektiv əlaqələndirilməsi məqsədəmüvafiq hesab edilir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdəki əlilliyi olan şəxslərin, o cümlədən psixososial dəstək xidmətlərinə ehtiyacı olanların hüquqlarının təmini vəziyyəti, müyəssərlik məsələləri də daim diqqətdə saxlanılır.

Ombudsmanın preventiv mexanizm funksiyalarının həyata keçirilməsi məqsədilə başçəkmələr planı hazırlanarkən həssas əhali qruplarından olan əlilliyi olan şəxslərin saxlanıldığı müəssisələrə xüsusi önəm verilir. Belə müəssisələrə mütəmadi olaraq həyata keçirilən planlı və plandankənar başçəkmələr zamanı əlilliyi olan şəxslərlə rəftar, onların saxlanma şəraiti, qidalanma, tibbi yardımın təşkili məsələləri araşdırılmış, həmin şəxslərin müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının təmini vəziyyəti öyrənilmişdir. Penitensiar müəssisələrin tabeliyində olan müəssisələrdə infrastrukturun əlilliyi olan şəxslərin xüsusiyyətlərinə uyğunlaşdırılması aktual məsələlərdəndir. Köhnə tikililərdə fəaliyyət göstərən belə müəssisələrdə tam müyəssərliyin təmin olunması çətin olsa da, bu istiqamətdə mümkün tədbirlərin görülməsi, habelə müəssisələrdə təmir-bərpa işləri aparılarkən zəruri infrastrukturun təşkili və müyəssərliyin nəzərə alınması zəruridir.

Başçəkmələrin nəticələri onu deməyə əsas verir ki, psixiatriya müəssisələrinin binalarının yenidən qurulmasına və ya əsaslı təmirinə, bu müəssisələrdə müalicə alan şəxslərin qida və tibbi təminatının daha da yaxşılaşdırılmasına xüsusi ehtiyac vardır.

Tibb, təhsil, sosial xidmət və digər müəssisələrdə, həmçinin nəqliyyat sistemində və yollarda əlilliyi olan şəxslərin həyat fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, bütün sosial infrastruktur obyektlərində əlilliyi olan şəxslər üçün əlçatanlığın təmin olunması və bütün xidmətlərə bərabər çıxış imkanının yaradılması vacib məsələlərdəndir.

Əlilliyi olan şəxslərin gündəlik həyatda sərbəst hərəkətinin təmin edilməsi, bu məqsədlə dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlara məxsus olan binalarda, habelə ictimai binalarda və sosial infrastruktur obyektlərində müyəssərliyin təmin olunması, o cümlədən beynəlxalq standartlara cavab verən yeni pandusların quraşdırılması və mövcud pandusların standartlara uyğunlaşdırılması zəruridir. Qeyd edilənlərlə yanaşı, ictimai nəqliyyat infrastrukturunun əlilliyi olan şəxslər üçün əlçatanlığının təmin edilməsinə diqqətin artırılmasına, yerüstü və yeraltı keçidlərin onların sərbəst hərəkəti üçün uyğunlaşdırılmasına və ya yenidən qurulmasına, yol ayrıclarında quraşdırılmış işıqforların səsli-vibrasiyalı siqnallara malik (toxunma və səs siqnallarının təkrarlanması ilə) xüsusi işıqforlarla əvəz edilməsinə, o cümlədən dövlət qurumlarının rəsmi internet səhifələrində məlumatlara əlçatanlığın təmin edilməsinə, görmə məhdudiyyəti olan şəxslər üçün məlumatların əldə edilməsinin asanlaşdırılmasına də böyük ehtiyac vardır.

Ombudsman tərəfindən 2025-ci ildə əlilliyi olan şəxslərin hüquqlarının təbliği, müdafiəsi və təşviqində səmərəliliyin artırılması məqsədilə şəhər və rayonlarda dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinin iştirakı ilə maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

***Uşaq hüquqlarının müdafiəsi.*** Uşaqların hüquqlarının müdafiəsi və təbliği Ombudsmanın daim diqqət mərkəzində olmuşdur.

2025-ci il ərzində uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət Ombudsmana ünvanlanmış müraciətlərə baxılması, mediada yayılmış məlumatların araşdırılması, monitorinqlərin həyata keçirilməsi, analitik təhlilin aparılması və maarifləndirmə işinin təşkili istiqamətləri üzrə davam etdirilmişdir.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə əsasən, uşaqların saxlanılması üçün alimentin ödənilməməsi, ünsiyyət hüququnun təmin olunmaması, xüsusilə də ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası zamanı uşaqların mənafelərinin üstünlüyü prinsipinin nəzərə alınmaması, həmçinin sağlamlıq, sosial təminat və təhsil hüququ, müəssisəyə yerləşdirmə və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Uşaq hüquqlarının etibarlı və səmərəli müdafiəsi, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının effektiv təmini məqsədilə araşdırmalar aparılmış, müvafiq dövlət qurumlarına müraciətlər edilmiş, problemlərin həlli istiqamətində zəruri addımlar atılmış, müsbət nəticələr əldə edilmişdir.

Uşaqların saxlanılması üçün aliment onların fiziki, emosional və sosial rifahının təmin olunmasında mühüm rol oynamaqla hüquqlarının qorunmasında mühüm təminat vasitəsi kimi çıxış edir. Bu baxımdan, alimentin ödənilməsi sahəsindəki mövcud boşluqlar

nəzərə alınaraq, bu sahədə məhkəmə qərarlarının icrası metodlarının təkmilləşdirilməsi, habelə alimentin ödənilməsinə vahid dövlət nəzarət mexanizminin yaradılması zəruridir.

Uşaqların şəxsiyyətinin formalaşdırılmasında, sosial bacarıqlarının inkişafında və təhsil həyatına hazırlığında məktəbəqədər təhsilin əhəmiyyətli rolu vardır. Ombudsmana ünvanlanmış müraciətlərdən məlum olur ki, bir sıra hallarda valideynlər övladlarının yaşadığı ərazi üzrə məktəbəqədər təhsil müəssisəsinə yerləşdirilməsi ilə bağlı problemlərlə üzləşməkdədirlər. Bu kimi hallarla bağlı aidiyyəti qurumlardan verilən cavablarda isə müəssisədə boş yer yaranacağı təqdirdə növbəlilik prinsipi əsasında uşaqların həmin müəssisəyə qəbul ediləcəyi bildirilir. Bu baxımdan, mövcud tələbat nəzərə alınaraq dövlət əsaslı məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi məqsədəmüvafiqdir.

Ombudsmanın ünvanına uşaqların müayinə və müalicəsinin təşkili, qəyyumluq və himayəçilik, sosial təminat, o cümlədən əlilliyin qiymətləndirilməsi, təhsil və digər məsələlərlə bağlı müraciətlər də daxil olmuşdur. Həmin müraciətlər üzrə də müvafiq araşdırmalar aparılmış və problemlərin həlli istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

**Ərizəçi İ (88-2025).** Ombudsmanın təşkilatçılığı ilə Şərur rayonunda keçirilmiş "Açıq Qapı" aksiyasında müraciət edərək qeyri-rəsmi nikahdan 4 övladının olduğunu, Şərur Rayon Məhkəməsinin müvafiq qətnaməsi ilə atalığın müəyyən olunduğunu, məhkəmə qərarı ilə uşaqlarının onun yanında saxlanılmasının qət edildiyini, hazırda uşaqlarını tək başına böyütdüyünü, atalığın müəyyən edilməsi barədə şəhadətnamələri alsa da, elektron informsiya sistemində uşaqların atası olmasına dair məlumat olmadığından onlara soyadını verə bilmədiyini, uşaqlarının hazırda keçmiş arvadının soyadını daşıdıqlarını, bu məsələ ilə bağlı Şərur rayon Nikah Evinə müraciət etsə də, nəticənin olmadığını bildirmiş, uşaqlarına soyadının verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətinin araşdırılması zamanı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə verilmiş sorğuya cavab olaraq uşaqların doğumu haqqında akt qeydləri Türkiyə Respublikasında qeydə alındığından akt qeydlərinə atalığa dair məlumatın əlavə edilməsi məqsədilə Şərur Rayon Qeydiyyat Şöbəsi tərəfindən zəruri məlumatların Ədliyyə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Baş İdarəsi vasitəsilə Azərbaycan Respublikasının İstanbuldakı Baş Konsulluğuna göndərildiyi bildirilmiş, görülmüş zəruri tədbirlər nəticəsində uşaqların doğum haqqında akt qeydində dəyişiklik edilərək doğum haqqında yeni şəhadətnamələr verilmişdir. Vətəndaş Ombudsmana ərizə ünvanlayaraq müraciətinə qanunamüvafiq qaydada baxıldığına və problemi həll olunduğuna görə təşəkkürünü bildirmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"na əsasən qeydiyyat şöbəsi və konsulluq idarəsi atalığın müəyyən edilməsi haqqında akt qeydinə əsasən doğum haqqında akt qeydində müvafiq dəyişikliklər edir və doğum haqqında yeni şəhadətnamə verir. Doğum haqqında əvvəllər verilmiş şəhadətnamə ləğv edilir.

Doğum haqqında akt qeydi başqa qeydiyyat şöbəsində və ya konsulluq idarəsində saxlanıldıqda, atalığın müəyyən edilməsini qeydə almış qeydiyyat şöbəsi və ya konsulluq

idarəsi doğum haqqında akt qeydində müvafiq dəyişikliklərin edilməsi məqsədilə dərhal Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə həmin qeydiyyat şöbəsinə və ya konsulluq idarəsinə elektron qaydada bildiriş göndərir.

Bildirişi alan orqan 1 (bir) iş günü müddətində doğum haqqında akt qeydində dəyişiklik edir, doğum haqqında akt qeydinin digər nüsxəsində və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemində müvafiq dəyişikliklərin edilməsi üçün bildirişi elektron qaydada Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinə və Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivinə ötürür.

**Ərizəçi H (153-2025).** Ombudsmana müraciət edərək bir övladının olduğunu, ağır xəstəlikdən əziyyət çəkdiyini, müayinə və müalicə olunmaq üçün mütəmadi olaraq əri ilə birgə Bakı şəhərinə, Türkiyə Respublikasına gedib-gəldiyini, ərinin işsiz olduğunu, özünün isə aldığı maaşın yalnız müalicə xərclərini ödədiyini, övladının maddi ehtiyaclarını qarşılaya, təlim-tərbiyəsi və təhsili ilə məşğul ola bilmədiklərini qeyd etmiş və övladının Ordubad şəhər tam orta internat məktəbinə yerləşdirilməsini xahiş etmişdir.

Ərizəçinin sağlamlıq və maddi vəziyyəti, eyni zamanda uşağın mənafelərinin üstünlüyü prinsipi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq nəticəsində ərizəçinin övladı Ordubad şəhər tam orta internat məktəbinə yerləşdirilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması və onların sosial statusunun bərpası xüsusi diqqətdə saxlanılan məsələlər sırasındadır. Belə ki, hesabat dövründə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası, məşğulluq imkanlarının və peşə hazırlığının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, onlara göstərilən sosial xidmət, inklüziv təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılması Ombudsman tərəfindən davamlı monitorinq olunmuş, bu kateqoriyaya aid uşaqların sosial müdafiəsi və cəmiyyətə fəal inteqrasiyası diqqət mərkəzində saxlanılmışdır.

Qeyd olunanlarla yanaşı, preventiv, həmçinin "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi məqsədilə uşaq hüquqlarının təmini vəziyyətinin yerində araşdırılması üçün şəhər və rayonlarda yerləşən təhsil və tibb müəssisələrinə, o cümlədən uşaqların öz iradələri ilə tərk edə bilmədikləri digər müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən mütəmadi olaraq başçəkmə və monitorinqlər həyata keçirilmiş, saxlanma şəraiti araşdırılmış, uşaqlarla və müəssisə əməkdaşları ilə görüşlər keçirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Həyata keçirilən monitorinqlərin nəticəsinə əsasən təhsilverənlərə münasibətdə tədris prosesinin mütəmadi monitorinqinin aparılması, onların şagirdlərlə davranış qaydaları istiqamətində maarifləndirilməsi, məktəblərin valideynlərlə əlaqələrinin gücləndirilməsi zəruridir. Bununla yanaşı, məktəb psixoloqlarının sayının artırılması, onların bilik və bacarıqlarının gücləndirilməsi istiqamətində tədbirlər də həyata keçirilməlidir.

Monitorinqlər zamanı Ordubad şəhər tam orta internat məktəbində çətin həyat şəraitində olan ailələrin uşaqlarının, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların yerləşdirildiyi, onların psixoloji yardıma və nəzarətə daha çox ehtiyaclarının olduğu nəzərə alınmaqla "psixoloq" və "gecə dayəsi" ştatlarının sayının kifayət etmədiyi müşahidə olunmuşdur.

Bununla yanaşı, monitorinqlərin nəticəsi onu göstərir ki, erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin olunması və onlara ixtisaslaşdırılmış psixoloji yardımın göstərilməsi məqsədilə məktəbəqədər təhsil müəssisələrində "uşaq psixoloqu" ştatının yaradılması üçün "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli Qərarına dəyişikliyin edilməsi məqsədəmüvafiqdir.

Həmçinin müəssisələrdə baş verə biləcək neqativ halların qarşısının alınması məqsədilə konfidensiallıq təmin olunmaqla uşaqların müraciəti üçün imkanların yaradılmasına və tabe olduqları qurum tərəfindən nəzarət olunan mərkəzləşdirilmiş müşahidə kameralarının quraşdırılmasına ehtiyac vardır.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin Yetkinlik yaşına çatmayan məhkumlar üçün rejim bölməsində cəza çəkən uşaqların hüquqlarının müdafiəsi, saxlanma şəraiti, işçi heyətin rəftarı, tibbi xidmətin vəziyyəti, qida rasionu, qidanın keyfiyyəti, habelə onların asudə vaxtlarının təşkili kimi məsələlər daim diqqətdə saxlanılmış, Ombudsmanın Preventiv qrupu tərəfindən həmin uşaqlarla görüşlər keçirilərək fərdi söhbətlər aparılmış, hüquq və vəzifələri izah edilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyə və təkliflər verilmişdir.

Ombudsman tərəfindən uşaq hüquqlarının təmini və müdafiəsi, uşaqların zərərli informasiyalardan qorunması, erkən nikahların qarşısının alınması, uşaqların əməyinin istismarının hüquqi müdafiəsi və uşaqlara qarşı hər cür zorakılığın qarşısının alınması istiqamətində və digər mövzularda müxtəlif hədəf qrupları üzrə silsilə maarifləndirmə tədbirləri və monitorinqlər həyata keçirilmiş, həmçinin 8 Noyabr Zəfər Günü, 12 Noyabr Konstitusiya Günü və 20 Noyabr Ümumdünya Uşaq Hüquqları Günü münasibətilə Ordubad şəhər tam orta internat məktəbinin şagirdləri arasında "Gələcəyə aparan zəfər yolunda", "Balaca əllərdə böyük haqlar" və "Suveren Azərbaycanın sabahı bizik" mövzularında esse yazı müsabiqəsi təşkil olunub. Ombudsman müsabiqənin yekun tədbirində iştirak edərək uşaqlarla görüşmüş və qalibləri mükafatlandırmışdır.

Uşaq hüquqlarının səmərəli müdafiəsi və təşviqinə nail olmaq məqsədilə hər il olduğu kimi, 2025-ci ildə də "Uşaq hüquqları haqqında" Konvensiyanın qəbul edilməsinin ildönümü ərəfəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən ölkədə 20 oktyabr - 20 noyabr tarixləri "Uşaq Hüquqları Aylığı" elan edilmiş, tərəfimizdən aylıq çərçivəsində daxili işlər, təhsil və mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil və musiqi məktəblərində, həmçinin Uşaq Kitabxanasında "Uşaq Hüquqları Konvensiyasının təsir mexanizmləri: hüquqlar və vəzifələr", "Uşaq hüquqlarının müdafiəsi sahəsində

Ombudsmanın və insan hüquqları təsisatlarının rolu", "Uşaq hüquqlarının müdafiəsinin hüquqi və institusional aspektləri" və digər mövzularda tədbirlər keçirilmişdir.

Keçirilmiş tədbirlərdə Ombudsman təsisatı tərəfindən hazırlanmış "Ombudsmandan uşaqlara: Hüquqlarınız sizi qoruyur. Vəzifələriniz sizi böyüdür" adlı maarifləndirici vəsait (buklet) iştirakçılara təqdim olunmuşdur.

Bununla yanaşı, Ombudsman tərəfindən "Uşaq Hüquqları Aylığı" çərçivəsində uşaq hüquqlarının müdafiəsi sahəsində araşdırmaların aparılması, maarifləndirmə, təşviqat və digər tədbirlərin keçirilməsi məqsədilə dövlət və yerli özünüidarə orqanları, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumlara müraciətlər ünvanlanmış, uşaq hüquqlarının daha etibarlı müdafiəsinə yönəlmiş tədbirlər həyata keçirilmişdir.

***Şəhid ailələri və müharibə veteranlarının hüquqlarının müdafiəsi.*** Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması ölkəmizdə həyata keçirilən sosial siyasətin başlıca istiqamətlərindən biridir.

Ombudsman tərəfindən muxtar respublikada əhalinin bu həssas qrupuna aid olan vətəndaşlara daim xüsusi həssaslıqla yanaşılmış, məşğulluq, sosial təminat, səhiyyə, təhsil və digər hüquqlarının səmərəli təmini və müdafiəsi məqsədilə zəruri tədbirlər davam etdirilmiş, bu şəxslərlə görüşlər keçirilərək müraciətləri dinlənilmiş, həmçinin aparatın əməkdaşları tərəfindən bu kateqoriyadan olan şəxslərin ailələrinə mütəmadi ziyarətlər təşkil edilmiş, onların problemləri ilə yerində tanış olunmuş, həlli istiqamətində zəruri addımlar atılmışdır.

Ombudsmanın ünvanına şəhid ailələrindən, müharibə veteranlarından və müharibə ilə bağlı əlilliyi olan şəxslərdən daxil olmuş müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, müvafiq araşdırmalar aparılmış, bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birgə problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi şəhid atası Q (227-2024).** Ombudsmana müraciət edərək II Qarabağ müharibəsində şəhid olan oğlunun Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra medal və ordenlərlə təltif edildiyini, lakin bugünədək oğlunun adının heç bir küçəyə, məktəbə, hətta mədəni-maarif ocaqlarına verilmədiyini bildirmiş və şəhid oğlunun adının əbədiləşdirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən şəhid adının əbədiləşdirilməsinin təmin edilməsi ilə bağlı Kəngərli Rayon İcra Hakimiyyətinə müraciət olunduqdan sonra görülmüş zəruri tədbirlər nəticəsində məsələ müsbət həllini tapmışdır.

**Ərizəçi şəhid anası M (39-2025).** Ombudsmana müraciət edərək II Qarabağ müharibəsində şəhid olan oğlunun Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildiyini, lakin bugünədək oğlunun adının əbədiləşdirilməsi üçün dövlət orqanlarına etdiyi müraciətlərinin nəticəsinin olmadığını, oğlunun ölüm səbəbi ilə bağlı

mənbələrdə müxtəlif məlumatların olduğunu, mənbələrdən birində oğlunun Suqovuşan istiqamətində döyüş zamanı özünü düşmən qumbarasının üzərinə ataraq döyüş yoldaşlarının həyatını xilas etməsi ilə bağlı məlumatın qeyd olunduğunu bildirmiş, şəhid oğlunun hansı şəraitdə həlak olmasına dair məlumatın dəqiqləşdirilməsinə və şəhid oğlunun adının əbədiləşdirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı aidiyyəti üzrə dövlət orqanlarına verilmiş sorğulara cavab olaraq ərizəçinin oğlunun Tərtər rayonu istiqamətində döyüş tapşırığı yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində (hərbi əməliyyatlar nəticəsində digər növ partlayışlarla və qəlpələrlə törənmiş zədələnmələr) həlak olduğu bildirimiş və şəhid Suqovuşan istiqamətində döyüş zamanı özünü düşmən qumbarasının üzərinə ataraq döyüş yoldaşlarının həyatını xilas etməsi barədə arxiv-uçot sənədlərində heç bir məlumat aşkar edilməmişdir.

Həmçinin Culfa Rayon İcra Hakimiyyəti tərəfindən şəhidin adının əbədiləşdirilməsi üçün vəsatət qaldırıldığı və bu istiqamətdə zəruri tədbirlərin görüldüyü bildirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli, 10 saylı qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 3.1.2-ci bəndinə əsasən şəhid adını əbədiləşdirmə məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanlarının həyata keçirdiyi zəruri tədbirlərdən biri də Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan, habelə vətən uğrunda döyüşlərə görə ordenlə təltif olunan şəhid adlarının təşkilatlara və müəssisələrə verilməsi üçün aidiyyəti dövlət orqanlarının qarşısında vəsatət qaldırmaqdır.

**Ərizəçi müharibə veteranı Ə (229-2024).** Ombudsmana müraciət edərək Naxçıvan şəhəri 16 nömrəli tam orta məktəbdə xadimə vəzifəsində işləmiş arvadının əmək qabiliyyətini müvəqqəti itirməsinə görə müavinətin tam həcmdə ödənilmədiyini, o cümlədən arvadının vəfatına görə qanunvericiliklə müəyyən olunmuş vəfat edənin vərəsələrinə ödənilməli olan orta aylıq əmək haqqının azı üç misli miqdarında müavinəti və arvadının dəfn edilməsi ilə bağlı dəfn pulunun ödənilmədiyini bildirmiş, bu məsələnin araşdırılmasını və arvadının əmək qabiliyyətini müvəqqəti itirməsinə, vəfat etməsinə və dəfn üçün xərclərin çəkilməsinə görə müavinətlərin ödənilməsi üçün qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə göndərilmiş sorğuya cavab olaraq ərizəçinin mərhum arvadının tibb müəssisələrində müalicə aldığı və əmək qabiliyyətini müvəqqəti itirdiyi, vəfat edən şəxsin vərəsəsinə orta aylıq əməkhaqqının azı üç misli miqdarında müavinətin ödənilməsi üçün lazım olan zəruri sənədlərin Naxçıvan Şəhər Təhsil Şöbəsinə təqdim edilmədiyi və müvafiq sənədlər şöbəyə təqdim olunduğu təqdirdə tələbin qanunauyğun təmin ediləcəyi bildirilmiş, ərizəçi isə müraciətində həmin sənədləri təqdim etdiyini qeyd etmişdir.

Həmçinin araşdırma zamanı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna verilmiş sorğuya cavab olaraq dəfn üçün müavinətin ödənilməsi ilə bağlı Naxçıvan Şəhər Təhsil Şöbəsi tərəfindən müvafiq sənədlərin Fonda daxil olmadığı, Naxçıvan Muxtar Respublikası Təhsil

Nazirliyinə verilmiş sorğuya cavab olaraq isə ərizəçiyə dəfn üçün müavinətin Dövlət Sosial Müdafiə Fondu tərəfindən ödənilməli olduğu bildirilmişdir.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 12.2.9-cu maddəsinə əsasən Müvəkkilin şikayətlərə baxılması zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək hüququ vardır.

Qanunvericiliyin tələbinə uyğun olaraq, aidiyyəti qurumların sorğulara verdikləri cavablar arasında yaranan ziddiyyətli məsələlərin aydınlaşdırılması və hüquq pozuntusunun qarşısının alınması məqsədilə Müvəkkil aparatında keçirilmiş görüş zamanı Naxçıvan Şəhər Təhsil Şöbəsi tərəfindən zəruri sənədlərin rəsmiləşdirilərək Fonda göndərildikdən sonra müvafiq müavinətlərin ərizəçiyə ödəniləcəyi müəyyən olunmuş, görülmüş tədbirlər nəticəsində müavinətlərin ödənişi həyata keçirilmişdir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 77-ci maddəsinin 7-ci hissəsinə əsasən işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə vəfat edənin vərəsələrinə orta aylıq əmək haqqının azı üç misli miqdarında müavinət ödənilir.

"Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında" Əsasnamənin 1.1-ci bəndinə əsasən əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara ilk 14 təqvim günü üçün müavinət sığortaedənin vəsaiti hesabına, qalan günlər üçün isə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilir.

Bu Əsasnamənin 7-ci bəndinə əsasən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, qanunvericiliklə müəyyən edilmiş qaydada verilmiş xəstəlik vərəqəsinə (əmək qabiliyyətini itirmək vərəqəsi) əsasən təyin edilir.

Bu Əsasnamənin 90-cı bəndinə əsasən sığortaolunan və ya əmək pensiyaçısı vəfat etdikdə dəfn üçün müavinət verilir.

Bu Əsasnamənin 114-1-ci bəndinə əsasən məcburi dövlət sosial sığorta haqqı hesabına müavinətin ödənilməsi üçün sığortaedən Fondun yerli qurumuna, "DOST" mərkəzinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzinə məktubla müraciət etməlidir.

Ombudsman "əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə", "vəfat edən şəxsin vərəsəsinə orta aylıq əməkhaqqının azı üç misli miqdarında" və "dəfn üçün" müavinətlərin vaxtında ödənilməməsini sosial təminat hüququnun pozulması hesab edir.

**Ərizəçi müharibə veteranı Q (193-2024).** Ombudsmana müraciət edərək Babək rayonu Cəhri qəsəbəsinin suvarılması üçün istifadə olunan arxın fərdi yaşayış evinin ətrafından keçdiyi üçün həyətini mütəmadi olaraq su basdığını, fərdi yaşayış evinə və köməkçi tikililərinə ziyan dəydiyini, su arxının qarşısının betonlanması məqsədilə aidiyyəti üzrə dövlət qurumlarına müraciət etdiyini, lakin ona bu işin öz şəxsi vəsaiti hesabına

görülməsi bildirilsə də, buna maddi imkanının olmadığını qeyd etmiş və su arxının betonlanmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətdə qeyd olunan halların araşdırılması zamanı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə, Babək Rayon İcra Hakimiyyətinə, Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinə və Cəhri bələdiyyəsinə müraciətlər olunmuş, aidiyyəti dövlət orqanlarının və Cəhri bələdiyyəsinin nümayəndələrinin iştirakı ilə mübahisəli əraziyə yerində baxış keçirilmiş, qeyd olunan su arxının bələdiyyənin mülkiyyətində olduğu, həmin arxın başqa əraziyə köçürülməsinin mümkün olmadığı, arxın təmizlənməsinin heç bir fayda vermədiyi, həyətdə olan su quyusunun da arxdan sızan sular hesabına tam dolu olduğu müəyyən edilmiş, zəruri tədbirlərin görülməsi məqsədilə tərəfimizdən dəfələrlə Cəhri bələdiyyəsinə müraciət olunmuş, lakin bələdiyyə tərəfindən su arxının betonlanmasının maliyyə imkanları xaricində olması əsas göstərilərək zəruri tədbirlər görülməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 146-cı maddəsinə əsasən bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.

“Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsinə əsasən bələdiyyələrin su təsərrüfatı bələdiyyə torpaqlarında yerləşən yerli əhəmiyyətli yeraltı və yerüstü suların tənzimlənməsi, istifadəsi, mühafizəsi, habelə suların vurduğu zərərin qarşısının alınması ilə əlaqədar tədbirlərdir.

Bu Qanunun 25-ci maddəsinə əsasən bələdiyyə mülkiyyətində olan və onların idarəçiliyinə verilmiş su təsərrüfatı obyektlərinin çirklənməsinin, zibillənməsinin və suların tükənməsinin, israfçılığın qarşısının alınması, habelə bunların zərərli təsirinin aradan qaldırılması üzrə tədbirlər bələdiyyələrin su təsərrüfatı müəssisələri tərəfindən həyata keçirilir.

Ombudsman yaranan vəziyyətlə bağlı ərizəçinin əmlakına zərər dəyməsi və həyətyanı torpaq sahəsindən səmərəli istifadə edə bilməməsi faktını əsas insan hüquqlarından biri olan mülkiyyət hüququnun pozuntusu kimi qiymətləndirərək hesab edir ki, aidiyyəti qurumlar qanunamüvafiq qaydada və üsulla vətəndaşın mülkiyyət hüququnun pozulmasının qarşısını almalı və bu hüququn maneəsiz həyata keçirilməsi üçün zəruri tədbirlər görməlidirlər.

Qeyd edilməlidir ki, ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində şəhid ailələri, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilməkdədir.

Aidiyyəti üzrə müvafiq dövlət orqanları tərəfindən şəhid ailələri və müharibə veteranlarının sosial müdafiəsinin səmərəli təmin edilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin layiqli həyat şəraitinin, cəmiyyətə inteqrasiyasının təmini daim diqqətdə saxlanılmalı, bu sahədə fəaliyyət effektiv şəkildə əlaqələndirilməlidir.

***Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi.*** Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi cəmiyyətdə ədalətin bərqərar olunmasına, sosial inteqrasiyanın gücləndirilməsinə və hüququn aliliyinin təmin olunmasına xidmət edir. Müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin müasir standartlara uyğunlaşdırılması həmin müəssisələrdə saxlanılan və ya cəza çəkən şəxslərin onların ləyaqətinə hörmət edilən şəraitdə saxlanması, hüquqlarının pozulması hallarının qarşısının alınması, sağlamlıq və təhlükəsizliyinin təmin olunması, habelə reabilitasiya və sosial adaptasiyasına dəstək verilməsi baxımından əhəmiyyətlidir.

Ombudsman həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının təmini, o cümlədən müraciətlərin araşdırılması məqsədilə həbs yerlərinə və cəzaçəkmə müəssisələrinə başçəkmələrin keçirilməsi üzrə fəaliyyətini hesabat dövründə davam etdirmişdir.

Başçəkmələr zamanı bu müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmini vəziyyəti yerində yoxlanılmış, qəbul edilmiş şəxslərin qaldırdıqları məsələlər üzrə hüquqları izah edilmiş, həbs yerlərində saxlanılan şəxslər, məhkumlar, onların ailə üzvləri və müdafiəçiləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərdə öz əksini tapmış görüş, telefonla danışmaq, sovqat və ya banderol almaq hüquqlarının təmini, habelə sosial, tibbi təminat və digər məsələlər araşdırılmış, müəssisə daxilində həlli mümkün olan məsələlər yerində təmin edilmiş, digər məsələlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi məhkum V (47-2025).** Başçəkmə zamanı Preventiv qrupa müraciət edərək bel nahiyəsində fəqərəarası disk yırtığının olduğunu, müalicə olunsa da, ağrıları davam etdiyi üçün müalicəyə ehtiyacının olduğunu, həmçinin diş ağrısından əziyyət çəkdiyini, müalicə olunması üçün mart ayında bir dəfə Naxçıvan Muxtar Respublika Xəstəxanasına aparıldığını, daha sonra qeyri-iş günlərinə təsadüf etdiyi üçün müalicəsinin yarımçıq qaldığını, yenidən müalicə olunmaq üçün müəssisənin tibbi-sanitariya hissəsinə müraciət etdiyini, lakin nəticənin olmadığını bildirmiş və müalicə olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən aidiyyəti dövlət orqanına müraciət olunduqdan sonra məhkumun bel nahiyəsində fəqərəarası disk yırtığı diaqnozunun dəqiqləşdirilməsi məqsədilə o, Naxçıvan Sağlamlıq Mərkəzinə aparılaraq rentgen müayinəsindən keçmiş və müayinənin nəticəsinə uyğun olaraq müalicə olunması üçün həkim tərəfindən zəruri tədbirlər görülmüşdür.

"Avropa Penitensiar Qaydaları"na əsasən penitensiar müəssisələrin müdiriyyəti bütün məhkumların sağlamlığının qorunmasını təmin edir. Penitensiar müəssisələrin tibb xidmətləri dövlətin mülki səhiyyə müəssisələri ilə sıx əlaqədə təşkil edilir. Məhkumlar hüquqi vəziyyətlərinə uyğun olaraq və ayrı-seçkiliyə yol verilmədən ölkədə mövcud olan tibb xidmətlərindən istifadə imkanına malik olmalıdırlar. Penitensiar müəssisələrin tibb xidmətləri məhbusların əziyyət çəkə biləcəkləri fiziki və psixi xəstəlikləri, yaxud zədələri müəyyənləşdirir və müalicə edirlər. Bunun üçün məhkumlara, mülki səhiyyə

müəssisələrində mövcud olanlar da daxil olmaqla, bütün zəruri tibbi, cərrahi və psixiatrik xidmətlər göstərilir.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə əsasən ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq məhkumların hüquqlarıdır. Həmçinin məhkumlar tibbi məsləhət və müalicə almaq üçün pullu xidmət göstərən tibb müəssisələrinə müraciət etmək hüququna malikdirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 29 dekabr 2011-ci il tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nın 75-ci bəndinə əsasən cəzaçəkmə müəssisələrində məhkumlara göstərilən tibbi xidmətlər dövlət və qeyri-dövlət tibb müəssisələri ilə sıx əlaqədə təşkil edilir, məhkumların müayinə və müalicəsi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş üsul və vasitələrlə ambulator və ya stasionar şəraitdə aparılır.

Müalicə müəssisələrində məhkumun müayinə və müalicəsini təmin etmək mümkün olmadıqda məhkumun özünün, yaxın qohumlarının və ya qanuni nümayəndəsinin müraciətinə əsasən, onun pullu xidmət göstərən tibb müəssisələrində müraciət etmiş şəxslərin hesabına müalicə olunmasına icazə verilir.

Ombudsman qanunvericiliyin qeyd olunan müddəalarını rəhbər tutaraq hesab edir ki, tibbi yardım almaq məhkumların əsas hüququ olduğundan həmin hüququn pozulması onların islah edilərək gələcəkdə cəmiyyətə normal inteqrasiyasına maneə yarada bilər.

**Ərizəçi məhkum Q (161-2025).** Başçəkmə zamanı Preventiv qrupa müraciət edərək 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edildiyini, arvadının azyaşlı övladlarının anası ilə yaşadıqlarını, arvadının azyaşlı övladına qulluq etdiyi üçün işləyə bilmədiyini, əmək qabiliyyətli anasının işsiz olduğu üçün aztəminatlı ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunmadığını, ailəsinin heç bir yerdən gəlirinin olmadığını bildirmiş, məhkumluğu və ailəsinin maddi vəziyyəti nəzərə alınaraq, anasının münasib işlə təmin olunmasına və ailəsinə ünvanlı dövlət sosial yardımının verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmiş, tərəfimizdən aidiyyəti quruma müraciət olunduqdan sonra Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" (VEMTAS) altsistemi tərəfindən avtomatlaşdırılmış qaydada ərizəçinin ailəsinə aylıq 284,72 manat məbləğində sosial yardım təyin olunmuşdur.

Məlum olduğu kimi, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Onun əsl mahiyyəti cinayət törətmiş şəxsləri mənəvi, siyasi, fiziki və əmlak xarakterli məhrumiyyətlərə məruz qoymaqla, onları tənbeh etməkdən ibarətdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq kimi faydalı məqsədlərə nail olmaq üçün tətbiq edilir.

Cəzanın çəkilməsi ilə yanaşı, ondan azad olmanın şərtləri də qanunvericiliklə tənzimlənir. Belə ki, Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş institutlardan biri olan cəzadan azad etmənin əsaslarına cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, xəstəliyə görə cəzanı çəkməkdən azad etmə, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza

çəkməkdən azad etmə, amnistiya və əfvetmə aiddir ki, bunlar cəza icra siyasətinin humanistləşdirilməsinə xidmət edir.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamına uyğun olaraq cinayətlərin dekriminallaşdırılması, habelə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkumetmə institutlarının daha geniş tətbiq edilməsi, eləcə də digər istiqamətlər üzrə muxtar respublikada tədbirlər 2025-ci ildə də davam etdirilmişdir.

2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 11 məhkum, Nazirliyin yerli icra və probasiya qurumlarında 37 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 7 məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilərək cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmiş, 1 məhkumun cəzasının çəkilməsi təxirə salınmışdır. Azərbaycan Respublikası Prezidentinin 26 may 2025-ci il tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı ilə 1 məhkum barəsində əfvetmə tətbiq olunmuşdur.

Xüsusilə qeyd etmək lazımdır ki, "Konstitusiya və Suverenlik İli münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarına əsasən 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikasında cəzaçəkmə müəssisələri tərəfindən 60 məhkum, icra məmurları tərəfindən 118 məhkum cəzadan azad edilmiş, təhqiqat və ibtidai istintaq orqanları tərəfindən 11 şəxs barəsində cinayət işi üzrə icraata xitam verilmiş, 23 hərbi qulluqçu hərbi xidmət üzrə məhdudlaaşdırma cəzasının çəkilməmiş hissəsindən azad edilmiş, habelə məhkəmələr tərəfindən 37 məhkum cəzadan və cəzasının çəkilməmiş hissəsindən azad edilmiş, 5 məhkumun isə cəzası altı ay azaldılmışdır.

Ümumilikdə, 2025-ci il ərzində barələrində humanist cəza siyasəti tətbiq edilən 311 şəxs cəzadan, cəzanın çəkilməmiş hissəsindən azad edilmiş və ya cəzaları azaldılmışdır.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqətdə saxlanılmışdır. Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilmiş, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilmiş, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılmışdır. 2025-ci il ərzində ümumilikdə 173 cəza çəkməkdən azad edilmiş şəxs barəsində sosial adaptasiya tədbirləri tətbiq edilmişdir ki, bunlardan 136 şəxsə minimum aylıq əməkhaqqının dörd misli miqdarında birdəfəlik pul müavinəti verilmiş, 6 şəxs işlə təmin olunmuş, 22 şəxs özünüməşğulluq proqramı üzrə qeydiyyata alınmış, 9 şəxslə "Fərdi sosial iş" proqramı çərçivəsində sosial müdafiə tədbirləri barədə iş aparılmışdır.

Məhkumların şəxsiyyəti, səhhəti, ailə vəziyyəti, törətdikləri cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışları, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyəti nəzərə alınaraq, onlar barəsində amnistiya və əfvetmə institutlarının tətbiqi, onların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması və cəzadan azad etmənin digər əsaslarının tətbiqi dövlətimizin humanizm siyasətinin uğurla inkişaf etdirilməsinin təzahürü olmaqla, cinayət törətmiş şəxslərin cəzaçəkmə müəssisələrində rejim qaydalarına riayət etmələrinə, islah olunma prosesinin sürətləndirilməsinə və onların normal sosial faydalı həyata qaytarılmasına imkan verən əhəmiyyətli amillərdir.

***Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi.*** Qadınların hüquqlarının müdafiəsi və onların cəmiyyətdə rolunun gücləndirilməsi, gender bərabərliyinə nail olunması demokratik cəmiyyətlərin əsas məqsədlərindən biridir.

Azərbaycan Respublikasında gender bərabərliyinin təmin olunması istiqamətində atılan əsaslı addımlar, gender amilinin ümumi siyasətə daxil edilməsi üzrə səylər qadınların kişilərlə bərabər ictimai həyatın bütün sahələrində təmsil olunmalarına imkan vermişdir. Dayanıqlı inkişafın hərəkətverici qüvvəsi kimi qadınların və kişilərin ölkənin sosial- iqtisadi inkişafına bərabər şəkildə töhfə vermək imkanlarının genişləndirilməsi onların hüquq və azadlıqlarının reallaşması üçün əlverişli şərait yaradılmasını şərtləndirir.

Məhz elə həyata keçirilən tədbirlərin davamı kimi Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 871 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026 – 2028-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Milli Fəaliyyət Planının məqsədləri gender bərabərliyinin təmin edilməsi üzrə hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması, sosial cəhətdən həssas qrupdan olan qadınların dəstəklənməsi, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı tədbirlərin gücləndirilməsi və cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin təbliği və əhalinin məlumatlılıq səviyyəsinin artırılmasıdır.

Gender bərabərliyinin təmini və təbliği sahəsində Ombudsmanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Ombudsman cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi, bu sahədə mövcud qanunvericiliyin icrasının təmini, gender bərabərliyinin təbliği və təşviqi istiqamətində həyata keçirdiyi fəaliyyətini 2025-ci il ərzində də davam etdirmişdir.

2025-ci il ərzində Ombudsmanın icraatına daxil olan 241 müraciətin 82-si (55 şikayət, 27 ərizə olmaqla), yəni 34.02%-i sosial kateqoriyasına görə qadınlar tərəfindən edilmişdir.

Əhalinin həssas qruplarından olan qadınların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə məhkəmə qərarlarının icra olunmaması, əmək hüququnun pozulması, təhsil, məşğulluq, pensiya, əlilliyin təyin edilməsi, tibbi müayinə və müalicə məsələləri, məişət zorakılığı və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Qadın hüquqları ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, şikayətlərdə öz əksini tapmış problemlərin həlli məqsədilə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, hüquq pozuntularının və çətinliklərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi T (62-2025).** Ombudsmana müraciət edərək Babək Rayon Məhkəməsinin müvafiq qətnaməsi ilə nikahının pozulduğunu, buna baxmayaraq keçmiş əri tərəfindən dəfələrlə kobud rəftara və fiziki zorakılığa məruz qaldığını, hədələndiyini, bu məsələ ilə bağlı aidiyyəti polis orqanına müraciət etdikdən sonra keçmiş əri barəsində inzibati tənbeh tətbiq edildiyini, lakin keçmiş əri tərəfindən ona qarşı zorakılığın təkrarlandığını, həyatı və sağlamlığı üçün təhlükə yarandığını bildirmiş, ona qarşı törədilmiş zorakılığın qarşısının alınmasına, o cümlədən zərərçəkmiş şəxs kimi qısamüddətli mühafizə orderinin verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət araşdırılarkən məişət zorakılığı faktının mövcudluğu aşkar olunmuş, müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi üçün Babək Rayon İcra Hakimiyyətinə müraciət olunduqdan sonra məişət zorakılığını törətmiş şəxsə bu zorakılığın təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilmiş və zərər çəkmiş şəxsə 60 günədək qısamüddətli mühafizə orderinin verilməsi ilə bağlı müvafiq sərəncam imzalanaraq icra olunması üçün Babək Rayon İcra və Probasiya Şöbəsinə göndərilmişdir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci və 11-ci maddələrinə əsasən məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, həmin şikayətə yerli icra hakimiyyəti orqanı tərəfindən baxılır və məişət zorakılığı törətmiş şəxsin hərəkətləri nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, yerli icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığı törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilir və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilir.

Yerli icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərər çəkmiş şəxsə 60 gün müddətinədək qısamüddətli mühafizə orderi verir. Xəbərdarlığın icrasına bu barədə qərar qəbul etmiş orqan tərəfindən zorakılığı törətmiş şəxsin hərəkətlərinə diqqət yetirilməsi, habelə onunla və zərər çəkmiş şəxslə söhbətlərin aparılması formasında nəzarət həyata keçirilir.

Yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərərçəkmiş şəxslərin, xüsusən risk qrupuna daxil olan qadınların sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması insan hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

İstər müraciətlərin, istərsə də həyata keçirilən araşdırmaların (monitorinqlərin) nəticələrinin təhlilinə əsasən qeyd edilməlidir ki, Ombudsman zorakılığın bütün formalarının yolverilməzliyinin, gender bərabərliyinin təmin olunmasının, məişət zorakılığının qarşısının alınmasının və zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsinin vacibliyini vurğulayaraq, muxtar respublikada məişət zorakılığı ilə mübarizə sahəsində aidiyyəti dövlət qurumlarına effektiv tədbirlərin həyata keçirilməsini, mühafizə orderlərinin verilməsini,

məişət zorakılığı qurbanlarına daha çevik dəstəyin göstərilməsini, baş vermiş zorakılıq halları ilə əlaqədar onların vaxtında və hərtərəfli yardımla təmin edilməsini təklif edir.

Qadın sahibkarlığının inkişaf etdirilməsi qadınların ictimai fəallığının yüksəldilməsi, onların məşğulluğunun artırılması, iqtisadi müstəqilliyinin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.

**Ərizəçi B (84-2025).** Ombudsmana müraciət edərək işsiz olduğunu, ailəsinin maddi vəziyyətinin yaxşı olmadığını, münasib işlə təmin olunması üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə müraciət etdiyini, lakin nəticənin olmadığını bildirmiş və münasib işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət baxılması üçün icraata götürülərək qanunvericliyin tələblərinə uyğun araşdırılmış, şikayətlə bağlı aidiyyəti quruma ünvanlanmış müraciətdən sonra ərizəçi Culfa Rayon Mənzil İstismar Sahəsində xadimə vəzifəsi üzrə işə götürülmüşdür.

**Ərizəçi Ə (113-2025).** Ombudsmana müraciət edərək Şahbuz Rayon Təhsil Şöbəsində işlədiyini, hamiləliyə və doğuşa görə məzuniyyətdə olduğunu, doğuş çətin olduğu üçün məzuniyyət müddətinin əlavə 14 gün artırıldığını, lakin hamiləliyə və doğuma görə müavinətin bugünədək təyin edilmədiyini bildirmiş və müavinətin verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Naxçıvan Muxtar Respublikası Təhsil nazirliklərinə müraciət olunduqdan sonra hamiləliyə və doğuma görə müavinətin, həmçinin əlavə 14 günlük doğuma görə müavinətin ödənişi həyata keçirilmişdir.

Ombudsmanın preventiv mexanizm fəaliyyəti çərçivəsində ahıl şəxslər üçün sosial xidmət müəssisəsində yaşayan, habelə cəzaçəkmə müəssisəsində və istintaq təcridxanasında saxlanılan qadınların hüquqlarının təmini vəziyyəti də nəzarətdə saxlanılmış, mütəmadi olaraq başçəkmələr və monitorinqlər keçirilmiş, onların saxlanma şəraiti, hüquqlarının təmini vəziyyəti araşdırılmış, qidalanma rejiminin, psixoloji yardımın və göstərilən tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsi, habelə idman-sağlamlıq işinin və asudə vaxtın təşkili ilə bağlı müəssisələrin rəhbərliyinə də tövsiyələr verilmişdir.

Qeyd etmək lazımdır ki, ayrı-seçkiliklə mübarizə və bərabərliyin təmini baxımından Ombudsmanın müstəqil monitorinq mexanizmi də qadınların hüquqlarının müdafiəsində və gender bərabərliyinin təmin olunmasında mühüm rol oynayır.

***Ahılların hüquqlarının müdafiəsi.*** Sosial cəhətdən həssas qrupa aid olan ahıl şəxslərin hüquqlarının səmərəli təmin edilməsi və onlara sosial dəstək imkanlarının artırılması Ombudsman tərəfindən daim diqqət mərkəzindədir.

Bu şəxslərin sosial müdafiəsi sahəsində mövcud vəziyyətin və normativ hüquqi bazanın təhlili, eyni zamanda ahıllara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, sosial və reabilitasiya xidmətlərinin spektrinin genişləndirilməsi, ahılların asudə vaxtının səmərəli təşkili istiqamətində Ombudsman tərəfindən zəruri işlər görülmüş, hüquqi maarifləndirmə tədbirləri keçirilmiş, müraciətlər araşdırılmış, pozulmuş hüquqların bərpası ilə bağlı qanunamüvafiq tədbirlər həyata keçirilmişdir.

Ahıl vətəndaşların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyasının beynəlxalq standartlar səviyyəsində qurulması Ombudsman tərəfindən davamlı araşdırılmış, onlara göstərilən tibbi-sosial xidmətlərin, asudə vaxtlarının təşkili və digər hüquqların təmin olunması vəziyyəti nəzarətdə saxlanılmış, "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reablitasiya Müəssisəsi"nə başçəkmələr həyata keçirilmiş, orada olan şəxslərlə fərdi və konfidensial söhbət aparılmış, müəssisə rəhbərinə və əməkdaşlarına hüquqi məsləhətlər və tövsiyələr verilmişdir.

1 oktyabr Beynəlxalq Ahıllar Günü ərəfəsində Ombudsman və Aparatın əməkdaşları Şahbuz şəhərində yerləşən Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsini ziyarət etmiş, ahıl şəxslər üçün yaradılmış şəraitlə, onların hüquqlarının müdafiəsi, sosial fəaliyyətlərinin təşkili və həyat keyfiyyətlərinin yüksəldilməsi istiqamətində aparılan işlərlə tanış olmuş, onlarla geniş formatda görüş keçirilmiş, ayrı-ayrılıqda problemləri dinlənilmişdir.

Ahıllara göstərilən sosial müdafiə və səhiyyə xidmətlərinin keyfiyyət səviyyəsinin daha da artırılması üzrə tədbirlərin gücləndirilməsi, onların sosial-məişət xidmətlərinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsi məqsədəmüvafiqdir.

***Hərbi qulluqçuların hüquqlarının müdafiəsi.*** Silahlı Qüvvələrin şəxsi heyətinə, habelə ehtiyatda və istefada olan hərbi qulluqçulara dövlət qayğısının artırılması, hüquqlarının səmərəli təmin edilməsi, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması üzrə həyata keçirilən tədbirlər hərbi qulluqçuların hüquqlarının səmərəli təmin edilməsində və onların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayır.

Hərbi qulluqçular və onların ailə üzvləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərdə həqiqi hərbi xidmətdə, ehtiyatda və istefada olan (xüsusilə Silahlı Qüvvələrin tərkibindəki başqa silahlı birləşmələrdən ehtiyata və ya istefaya buraxılmış) hərbi qulluqçuların dövlət vəsaiti hesabına mənzillə təmin edilməsinin gecikdirilməsi, Silahlı Qüvvələrdən ehtiyata buraxılmada müəyyən problemlərin olması, bəzi hallarda bununla bağlı məhkəmə qərarlarının icrasının gecikdirilməsi, istifadə edilməmiş məzuniyyət günlərinə və əşya əmlakına görə pul kompensasiyasının vaxtında verilməməsi, möhlət və azadetmə hüququnu verən əsasların olmasına baxmayaraq, bəzi çağırışçılara münasibətdə bu hüquqdan istifadənin məhdudlaşdırılması, çağırışçıların sağlamlıq vəziyyətinin müəyyən edilməsi sahəsində nöqsanlara yol verilməsi nəticəsində müddətli həqiqi hərbi xidmətə göndərilmiş bəzi gənc əsgərlərin sağlamlığında problemlərin aşkar olunması, aidiyyəti qurumlar tərəfindən zəruri sənədlərin vaxtında verilməməsi və digər hallar öz əksini tapmışdır.

Ombudsman tərəfindən hərbi qulluqçular və onların ailə üzvlərindən daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, aidiyyəti dövlət qurumlarına sorğular verilmiş, onların hüquqlarının təmini və müdafiəsi istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Həmçinin hərbi qulluqçuların hüquqi maarifləndirilməsi istiqamətində aparılan işlər 2025-ci il ərzində Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ombudsmanın, Əlahiddə Ümumqoşun Ordunun və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının birgə təsdiq etdiyi tədbirlər planına əsasən, Ombudsman Aparatının

əməkdaşları muxtar respublikadakı hərbi hissələrdə və sərhəd zastavalarında olmuş, hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyətini yerində öyrənmiş, müvafiq obyektlərə baxış keçirmiş, şəxsi heyətlə görüşmüş, hərbi qulluqçuların suallarını cavablandırmış və onların Ombudsmana ünvanladıqları müraciətlərini qəbul etmişlər.

Tədbirlər zamanı şəxsi heyətin yaşayış şəraiti, ərzaq və əşya təminatının vəziyyəti, qidanın keyfiyyəti, müalicə işinin təşkili, asudə vaxtın səmərəli keçirilməsi və hərbi qulluqçuların sanitar-gigiyena qaydalarına əlçatanlığının təmin edilməsi üçün yaradılan şərait, şəxsi heyətlə təlim-tərbiyə sahəsində aparılan iş ümumilikdə qənaətbəxş hesab edilmişdir.

Qeyd edilməlidir ki, bu kimi tədbirlərin təşkili hərbi qulluqçuların hüquqlarının təmini vəziyyətinin yerində yoxlanılması, müəyyən edilən çatışmazlıqların çevik aradan qaldırılması, habelə hərbi qulluqçuların digər problemləri ilə yaxından tanış olmaqla səlahiyyətlər daxilində onlara köməklik göstərilməsi baxımından da əhəmiyyətlidir.

***Miqrantların hüquqlarının müdafiəsi.*** Miqrantların hüquqlarının təmin olunması məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınması məqsədilə mütəmadi olaraq başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərin beynəlxalq və milli qanunvericiliyə uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyəti araşdırılmışdır.

Miqrasiya proseslərinin iştirakçısı olan şəxslərin dövlətdaxili və beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş hüquq və mənafelərinin səmərəli qorunması, onların bu barədə məlumatlandırılması, qanuni miqrasiyanın təşviqi sahəsində aidiyyəti dövlət orqanı ilə əməkdaşlıq çərçivəsində Ombudsman tərəfindən tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlərdə miqrantların hüquqi statusunun tənzimlənməsi, onların miqrasiya, iqtisadi, sosial və digər sahələrdə dövlət xidmətlərindən operativ yararlanması və əlçatanlığın təmin edilməsi kimi məsələlər xüsusilə vurğulanmış, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınma proseduru, habelə miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə qanunla nəzərdə tutulmuş inzibati məsuliyyət barədə məlumatlar diqqətə çatdırılmışdır.

Ombudsmanın tapşırığına əsasən, Preventiv qrup tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tabeliyində olan Naxçıvan Şəhər Müvəqqəti Yerləşdirmə Mərkəzinə başçəkmələr həyata keçirilmiş, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə rəftar, onların saxlanma şəraiti, tibbi-sanitariya xidmətlərinin təşkili, qida və maddi-məişət təminatı, habelə hüquqlarının təmini vəziyyətinin monitorinqi aparılmış, saxlanılan şəxslər konfidensial qaydada qəbul olunmuş, müraciətləri araşdırılmış, bir sıra aktual məsələlərlə bağlı əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yerində yoxlanılmışdır.

## II FƏSİL
## Beynəlxalq təcrübə mübadiləsi və əməkdaşlıq:

Hesabat dövründə Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquqi, elmi-analitik, informasiya və metodiki məsələlər üzrə öz fəaliyyətini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əlaqələndirmişdir.

Ombudsman Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu və İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu ilə görüşmüş, görüşlər zamanı Ombudsman təsisatın fəaliyyət istiqamətləri barədə, muxtar respublikada insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinin davamlı inkişafı üçün yaradılan geniş imkanlar, şəxslərin hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər haqqında ətraflı məlumat vermişdir.

Həmçinin Ombudsman və təsisatın əməkdaşları Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşkilatçılığı ilə “Qanunun aliliyinin gücləndirilməsi: Ombudsmanların və milli insan hüquqları institutlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunda iştirak etmişdir.

# III FƏSİL
# HÜQUQİ MAARİFLƏNDİRMƏ, MEDİA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

***İnsan hüquqları sahəsində maarifləndirmə.*** Cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, bərabərlik hüququnun təmininin və ayrı-seçkiliyin qarşısının alınmasının təbliği məqsədilə hüquqi maarifləndirmə işinin həyata keçirilməsi xüsusi əhəmiyyətə malikdir.

2025-ci il ərzində Ombudsman tərəfindən əhalinin müxtəlif kateqoriyalarının hüquqi maarifləndirilməsinə xüsusi diqqət göstərilmişdir. Ombudsmanın təşkilatçılığı ilə əhalinin müxtəlif qrupları ilə yanaşı, dövlət orqanlarının, bələdiyyələrin, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən media nümayəndələrinin iştirakı ilə insan hüquqlarının müxtəlif istiqamətlərinə dair hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, eyni zamanda təsisat əməkdaşlarının əhalinin insan hüquqlarına dair məlumatlılıq səviyyəsinin artırılması məqsədilə müvafiq qurumlar tərəfindən keçirilən analoji tədbirlərdə məruzəçi qismində iştirakı da təmin olunmuşdur.

Ombudsman tərəfindən ənənəvi olaraq 2025-ci ildə də 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü və BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul edilməsinin ildönümü ilə bağlı Naxçıvan şəhərində və rayonlarda insan hüquqlarına dair müxtəlif aktual mövzulara həsr edilmiş hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Aidiyyəti dövlət qurumları, idarə, müəssisə və təşkilatlar, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları və media nümayəndələri də həmin tədbirlərdə fəal iştirak etmişlər. Təşkil olunmuş həmin tədbirlər əhalinin sosial cəhətdən həssas qruplarının hüquqlarının müdafiəsi və onların hüquqi cəhətdən maariflənmələri baxımından faydalı olmuşdur.

2025-ci ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə diqqət mərkəzində olmuş, Əlahiddə Ümumqoşun Ordu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış Tədbirlər Planına uyğun olaraq muxtar respublika ərazisindəki hərbi hissə və birləşmələrdə müxtəlif tədbirlər keçirilmişdir.

Əlahiddə Ümumqoşun Ordunun muxtar respublikadakı hərbi hissə və birləşmələrində 6, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zastavalarında 10 tədbir keçirilmişdir.

2025-ci il ərzində Ombudsmanın və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə cəzaçəkmə müəssisələrində 1 tədbir keçirilmiş, məhkumlar və müəssisə əməkdaşları arasında məhkumların hüquqlarının daha səmərəli müdafiəsinin təmin olunması, qanunlara hörmət ruhunun aşılanması üzrə maarifləndirici söhbət aparılmış, hüquq və vəzifələr izah olunmuşdur.

Həmçinin Ombudsman aparatının, Ədliyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə penitensiar müəssisələrdə görüş keçirilmiş, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması,

özünüməşğulluğun təmin edilməsi, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması ilə bağlı Ombudsmana müraciət etmək hüquqları izah olunmuşdur.

Hesabat dövründə Ombudsman "Naxçıvan Əlillərin Bərpa Mərkəzi"nə və "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi"nə baş çəkmiş, xüsusi qayğıya ehtiyacı olan əhali qruplarının hüquqlarının daha etibarlı və səmərəli müdafiəsi ilə bağlı hüquqi maarifləndirici söhbət aparmışdır.

Muxtar respublikada əhalinin sağlamlığının qorunması və sağlamlıq hüququnun müdafiəsi ilə bağlı Ombudsman və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə 10 oktyabr Ümumdünya Psixi Sağlamlıq Günü münasibətilə Psixi Xəstəliklər Dispanserində maarifləndirici görüş keçirilmişdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, 8 Noyabr Zəfər Günü, 12 Noyabr Konstitusiya Günü və 20 Noyabr Ümumdünya Uşaq Hüquqları Günü münasibətilə Ombudsman tərəfindən Ordubad şəhər tam orta internat məktəbinin şagirdləri arasında təşkil olunan esse yazı müsabiqəsinin yekun tədbiri uşaq kollektivlərinin ifasında təqdim olunan musiqi nömrələri və bədii kompozisiyaların müşayiəti ilə keçirilmiş, müsabiqənin qalibləri fəxri fərman və hədiyyələrlə təltif olunmuşdur.

Süni intellektin tətbiqi ilə bağlı yaranan hüquqi məsələlərə dair ictimai məlumatlılığın artırılması məqsədilə Ombudsman təsisatı və "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsi tərəfindən "Süni intellekt və insan hüquqları" mövzusunda məlumat sessiyası təşkil edilmişdir.

İnsan alverinə qarşı mübarizə sahəsində maarifləndirmə tədbirlərinin gücləndirilməsi məqsədilə Ombudsman təsisatı və Naxçıvan "ASAN xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan alverinə qarşı mübarizə" mövzusunda tədbir keçirilmişdir.

Həssas qrupların hüquqlarının müdafiəsi və onların cəmiyyətə inteqrasiyasının təşviqi Ombudsman təsisatının fəaliyyət istiqamətləri sırasında mühüm yer tutur. Bu çərçivədə, autizm spektri pozuntusu olan şəxslərin yaradıcılıq potensialının dəstəklənməsi məqsədilə Ombudsman təsisatı tərəfindən autizmli gənc rəssamın fərdi sərgisi təşkil edilmişdir.

2025-ci il ərzində Ombudsman təsisatı tərəfindən milli və beynəlxalq əhəmiyyətli günlərin qeyd olunması ilə bağlı ümumilikdə 13 tədbir, həmçinin "Konstitusiya və Suverenlik İli" çərçivəsində insan hüquq və azadlıqlarının təbliği məqsədilə 16 maarifləndirici tədbir təşkil edilmişdir.

Ombudsman təsisatı tərəfindən "Ombudsmandan uşaqlara: Hüquqlarınız sizi qoruyur, vəzifələriniz sizi böyüdür!" adlı buklet və "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında 2022-2024-cü illərə dair Tematik Materiallar" adlı vəsait hazırlanaraq aidiyyəti qurumlara və kitabxanalara paylanılmışdır.

Hesabat dövründə Qərbi Azərbaycana qayıdışla bağlı hüquqi maarifləndirmə və ictimai məlumatlandırma tədbirlərinə xüsusi önəm verilmiş, bu istiqamətdə həyata keçirilən fəaliyyətlər sistemli və məqsədyönlü xarakter daşımışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Qərbi Azərbaycana qayıdışla bağlı həyata keçirilən kompleks tədbirlər, o cümlədən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" çərçivəsində hüquqi fəaliyyətdən irəli gələn vəzifələrin icrasına

dəstək məqsədilə Ombudsman və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdışın hüquqi və konstitusional əsasları: milli və beynəlxalq normalar kontekstində" mövzusunda konfrans təşkil edilmişdir.

Bununla yanaşı, hesabat dövründə "Qərbi azərbaycanlıların hüquqlarının pozulması və onlara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti" mövzusunda maarifləndirici videoçarx hazırlanmışdır. Videoçarxın hazırlanmasında Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvinə dair Beynəlxalq Konvensiya və digər beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş hüquq və prinsiplər əsas götürülmüşdür. Bu çərçivədə, etnik mənsubiyyətə görə ayrı-seçkiliyin yolverilməzliyi, zorla köçürülmüş şəxslərin doğma torpaqlarına qayıtmaq hüququ, kollektiv yaddaşın qorunması və tarixi ədalətin bərpası kimi fundamental hüquqi və etik məsələlərə diqqət çəkilmişdir.

Qeyd etmək lazımdır ki, 2025-ci il ərzində Ombudsman aparatının əməkdaşları beynəlxalq səviyyəli 1 tədbirdə iştirak etmişdir. Həmçinin müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə respublika səviyyəli plan üzrə 72, plandankənar 26 olmaqla, 98 tədbir (konfrans, təlim, seminar və s.) keçirilmişdir. Ümümilikdə 69 müəssisəni əhatə edən tədbirlərdə 3700 nəfər iştirak etmişdir.

***İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq.*** Hesabat dövrü ərzində Ombudsman təsisatı tərəfindən müxtəlif dövlət qurumları və onların yerli struktur bölmələri, ali, orta ixtisas və ümumi təhsil müəssisələri ilə yanaşı, vətəndaş cəmiyyəti institutları - o cümlədən ictimai birliklər, media qurumları və digər qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq davam etdirilmişdir. Bu əməkdaşlıq çərçivəsində insan hüquq və azadlıqlarının prioritet istiqamətlərinə həsr olunmuş çoxsaylı maarifləndirici tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, Ombudsman təsisatı və "Hüquqi, Sosial Araşdırmalar və Maarifləndirmə Mərkəzi" ictimai birliyinin birgə təşkilatçılığı ilə "Rəqəmsal insan hüquqları" mövzusunda məlumat sessiyası, eləcə də "Rəqəmsal cəmiyyətdə informasiya azadlığı: beynəlxalq və milli hüquq kontekstində" mövzusunda tədbir keçirilmişdir.

Eyni zamanda, qeyri-hökumət təşkilatlarının hüquqi maarifləndirilməsi istiqamətində mühüm tədbirlər təşkil olunmuş, bu tədbirlərdə vətəndaş cəmiyyəti nümayəndələrinin fəal iştirakı təmin edilmişdir.

2025-ci il ərzində Ombudsman tərəfindən gənclərin hüquqi maarifləndirilməsi, hüquqi düşüncə və hüquq mədəniyyətinin müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsi məqsədilə bir qrup gənc dövlət qulluqçusu, istedadlı tələbə və muxtar respublikanın ictimai həyatında fəallığı ilə seçilən gənclərlə görüş keçirilmiş, həmçinin təsisatda təşkil olunan tədbirlərdə "ASAN" könüllülərinin iştirakı təmin edilmişdir.

Həmçinin Ombudsman təsisatı tərəfindən "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları nəzərə alınmaqla, dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə olunması, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakına şərait yaradılması, peşə vərdişlərinin formalaşdırılması, təcrübi biliklərinin artırılması, yaradıcı və innovativ təşəbbüslərinin dəstəklənməsi, eyni zamanda ölkədə

könüllülük hərəkatının təşviqi məqsədilə ali təhsil alan gənclərin Ombudsman aparatında könüllü fəaliyyətə cəlb olunmasını nəzərdə tutan "Könüllülük proqramı"nın başa çatması ilə əlaqədar tədbir keçirilmiş, proqram iştirakçılarına sertifikatlar və xatirə hədiyyələri təqdim edilmişdir.

***Media ilə əməkdaşlıq.*** 2025-ci il ərzində Ombudsman tərəfindən mətbuat və ictimaiyyətlə əlaqələrin təşkili, insan hüquq və azadlıqlarının mediada təbliği, habelə hüquqi maarifləndirmənin genişləndirilməsi istiqamətində ardıcıl və sistemli fəaliyyət həyata keçirilmişdir. Görülən tədbirlər Ombudsman təsisatının fəaliyyətinin şəffaflığının təmin olunmasına, insan hüquqları sahəsində ictimai məlumatlılığın artırılmasına və cəmiyyətlə effektiv kommunikasiyanın qurulmasına xidmət etmişdir.

Hesabat dövründə geniş ictimaiyyətlə əlaqələrin daha səmərəli və məqsədyönlü şəkildə təşkili məqsədilə media subyektləri ilə əməkdaşlıq genişləndirilmiş, ictimaiyyətin operativ və dolğun məlumatlandırılması istiqamətində davamlı tədbirlər görülmüşdür. Təsisatın fəaliyyəti barədə məlumatların vaxtında çatdırılması məqsədilə Ombudsmanın rəsmi internet səhifəsi və sosial şəbəkə hesabları - feysbuk, instaqram, X hesabları, yutub, vatsap və teleqram kanalları vasitəsilə mütəmadi olaraq yenilənmiş məlumatlar paylaşılmış, eyni zamanda bu məlumatlar mətbuata təqdim olunmuşdur.

Ombudsmanın fəaliyyəti yerli və ölkə mediası tərəfindən geniş şəkildə işıqlandırılmış, il ərzində televiziya və radio kanallarına 23 müsahibə verilmişdir. Ümumilikdə, Ombudsmanın fəaliyyəti ilə bağlı yerli və ölkə mediasında 121, rəsmi internet səhifəsi və sosial media hesablarında isə 1142 informasiya materialı olmaqla, ümumilikdə 1263 informasiya materialı yayımlanmışdır.

# TƏKLİFLƏR

Ombudsman insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları *təklif edir:*

- Rayonlarda məşğulluq imkanlarının artırılması üçün yerli əmək bazarına uyğun aktiv məşğulluq proqramlarının genişləndirilməsini;

- Gənclərin məşğulluq və sosial hüquqlarının təmin edilməsi məqsədilə onlara yönəlmiş proqramların genişləndirilməsini;

- Vakansiyalar barədə vətəndaşların əvvəlcədən məlumatlandırılması mexanizmlərinin gücləndirilməsini;

-Kənd yerlərində suvarma suyunun ədalətli bölgüsü məqsədilə bərabərliyin və şəffaflığın təmin edilməsini, ayrı-seçkiliyin aradan qaldırılmasını və infrastrukturun yenilənməsini;

-İçməli su təminatında yaranan uzunmüddətli fasilələr zamanı alternativ təminat imkanlarının yaradılmasını;

-Tibb müəssisələrində kadr təminatının gücləndirilməsini, maddi-texniki bazanın yenilənməsini, bütün ərazilərdə tibbi xidmətə əlçatanlığın təmin edilməsini, bərabər imkanların yaradılmasını;

- Sağlamlığın qorunması hüququnun effektiv təmin olunması məqsədilə psixatriya yardımının göstərilməsi sahəsində şəraitin yaxşılaşdırılmasını, avadanlıq və resurs təminatının gücləndirilməsini, müasir standartlara uyğun psixonevroloji sosial xidmət müəssisəsinin yaradılmasını;

-Y.Budaqov adına Psixi Xəstəliklər Dispanserində xəstəliklərin ağırlıq dərəcəsi və növü nəzərə alınmaqla pasiyentlərin eyni şəraitdə stasionar müalicə olunmalarının qarşısının alınmasını, Dispanserin binasının əsaslı təmir və yenidənqurulmasını;

-Pasiyentlərin psixi vəziyyətinin müayinəsini, psixi pozuntusunun diaqnostikasını, müalicəsini və profilaktikasını, psixo-sosial reabilitasiyasını özündə birləşdirən ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi məqsədilə kadr potensialının gücləndirilməsini və peşəkarlığın artırılmasını;

- Əlilliyi olan şəxslər üçün xidmət infrastrukturunun standartlara uyğunlaşdırılmasını, yeni infrastruktur layihələrinin planlaşdırılması zamanı əlilliyi olan şəxslərin ehtiyaclarının və fiziki imkanlarının nəzərə alınmasını;

- Əlilliyin müəyyən olunması ilə bağlı həkim-məsləhət komissiyalarının göndərişləri ilə tibbi-sosial ekspert komissiyalarının rəyləri arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə "Tibbi-Sosial Ekspert Komissiyasına göndərişlərin reyestri"nə daxil edilməli olan məlumatlara dair tələblərin dəqiq müəyyən edilməsini;

-Tibbi-sosial ekspertiza prosesində qərarların əsaslandırılmasının hüquqi mexanizmlərlə möhkəmləndirilməsini;

- Uşaqların təhsil hüququnun tam və bərabər şəkildə təmin edilməsi məqsədilə real ehtiyacların qiymətləndirilməsini, yeni internat tipli təhsil müəssisələrinin yaradılmasını;

-Ümumtəhsil müəssisələrində psixoloq ştatlarının artırılmasını və psixoloji yardımın keyfiyyətinin yüksəldilməsini;

-Məktəbəqədər təhsil müəssisələrində psixoloq ştatlarının yaradılmasını və psixoloji işin təşkilini;

-Təhsil müəssisələrində təmir-bərpa işlərinin aparılmasını, təhlükəsizlik standartlarına uyğunlaşdırılmasını;

- Məktəblərdə və digər təlim-tədris müəssisələrində insan hüquqları mövzusunun tədris edilməsini və bu sahədə maarifləndirmə proqramlarının keçirilməsini;

-Məişət zorakılığına qarşı effektiv müdafiə mexanizmlərinin tətbiqinin genişləndirilməsini;

-Məişət zorakılığı və digər təhlükələrə məruz qalmış qadınların müdafiəsi məqsədilə sığınacaq və reabilitasiya xidmətlərinin yaradılmasını, hüquqi-psixoloji dəstəyə əlçatanlığın təmin edilməsini;

-Məhkəmə qərarlarının, xüsusilə uşaq hüquqlarına təminat verən məhkəmə qərarlarının icrası zamanı borclu şəxsin axtarışı prosesinin gecikdirilmədən icra edilməsini;

-Müvəqqəti saxlama yerlərində, istintaq təcridxanasında, cəzaçəkmə müəssisələrində təmir-bərpa işlərinin genişləndirilməsini və infrastrukturun müasirləşdirilməsini;

- Məhkumların maddi ehtiyaclarının, habelə aliment və başqa borclarının ödənilməsi və ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində yeni istehsal sahələrinin yaradılmasını;

- Penitensiar müəssisələrdə məhkumlara mütəmadi olaraq psixoloji yardımın göstərilməsi məqsədilə məhkumlarla işləmək bacarığına malik peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;

- Video zənglərin təşkil edilməsinin məhkumun ailəsi və yaxınları ilə əlaqələrini möhkəmləndirməklə islah prosesinə müsbət təsirini, görüş üçün sərf ediləcək nəqliyyat xərclərinə (xüsusilə uzaqda yaşayanlar üçün) qənaəti nəzərə alaraq məhkumların videogörüş keçirmək hüququnun təmin olunması üçün zəruri addımların atılmasını;

- Məhkumların sosial adaptasiyası və cəmiyyətə inteqrasiyası üçün hazırlıq imkanlarının genişləndirilməsini;

- Ombudsman aparatının inzibati binasına buraxılışın və idarədaxili rejimin, təhlükəsizliyin və mülkiyyətin mühafizəsinin təmin edilməsi məqsədilə təsisatda mühafizə xidmətinin fəaliyyət göstərməsinə, həmçinin insan hüquqlarının müdafiəsinin daha səmərəli və operativ təmin edilməsi məqsədilə Ombudsman təsisatında "Çağrı mərkəzi" xidmətinin yaradılmasına maliyyə dəstəyinin verilməsini.

# DİAQRAMLAR

## 1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə 2025-ci ildə ünvanlanan müraciətlərin daxilolma forması




## Müraciətlərin növü



## Müraciətlərin aylar üzrə bölgüsü




## Müraciətlərin faiz və rəqəmlə göstəricisi



**2. 2025-ci il ərzində Ombudsman və onun Preventiv qrupu tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilmiş başçəkmələr**




**Başçəkmələrin aylar üzrə bölgüsü**



**Başçəkmələrin dövlət orqanları üzrə bölgüsü**




## 3. 2025-ci il ərzində Ombudsman və onun Monitorinq qrupları tərəfindən sosial xidmət, təhsil və tibb müəsissələrində həyata keçirilmiş monitorinqlər



## Monitorinqlərin aylar üzrə bölgüsü




## Monitorinqlərin dövlət orqanları üzrə bölgüsü




**Müvəkkil** **Günay Rzayeva**

**Mündəricat**


| | |
|---|---|
| **GİRİŞ SÖZÜ** | 3 |
| **I FƏSİL. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ** | 7 |
| **1.1. Mülki və siyasi hüquqların müdafiəsi** | 7 |
| • Azadlıq hüququ | 7 |
| • “İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə” Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi | 10 |
| • Hüquq və azadlıqların məhkəmə təminatı | 16 |
| •Hüquqi yardım almaq hüququ | 20 |
| • Hüquq və azadlıqların inzibati təminatı | 21 |
| • İnformasiya əldə etmək hüququ | 23 |
| • Müraciət etmək hüququ | 24 |
| • Seçki hüququ | 26 |
| **1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi** | 28 |
| • Əmək hüququ | 28 |
| • Sosial təminat hüququ | 31 |
| • Sağlamlığın qorunması hüququ | 40 |
| • Təhsil hüququ | 42 |
| • Mülkiyyət hüququ | 45 |
| **1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi** | 48 |
| • "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi | 48 |
| • Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi | 49 |
| • Uşaq hüquqlarının müdafiəsi | 52 |
| • Şəhid ailələrinin və müharibə veteranlarının hüquqlarının müdafiəsi | 56 |
| • Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi | 60 |
| • Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi | 63 |
| • Ahılların hüquqlarının müdafiəsi | 65 |
| • Hərbi qulluqçuların hüquqlarının müdafiəsi | 66 |
| • Miqrantların hüquqlarının müdafiəsi | 67 |
| **II FƏSİL. BEYNƏLXALQ TƏCRÜBƏ MÜBADİLƏSİ VƏ ƏMƏKDAŞLIQ** | 68 |
| **III FƏSİL. HÜQUQİ MAARİFLƏNDİRMƏ, MEDİA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ** | 69 |
| • İnsan hüquqları sahəsində maarifləndirmə | 69 |

| | |
|---|---|
| • İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq | 71 |
| • Media ilə əməkdaşlıq | 72 |
| **Təkliflər** | 73 |
| **Diaqramlar** | 76 |
| **Mündəricat** | 81 |